khazar-view.com

aprel - 2011
295

KHAZAR VIEW

# XƏZƏR XƏBƏR

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU




ISSN 2218 - 2772
AYLIQ DƏRGİ





# “XƏZƏR”DƏ MƏZUNLARLA













Aprelin 2-də Xəzər Universitetinin yaradılmasının 20 illiyi münasibətilə universitetin Mərmər salonunda məzunlarla görüş keçirildi. Universiteti müxtəlif illərdə bitirmiş 60 nəfər məzun doğma təhsil ocağına dəvət olunduqlarına, yubiley şənliklərində iştirak üçün onlara şərait yaradıldığına və yenidən "Xəzər" ailəsinə qovuşduqlarına görə böyük sevinc hissi keçirir, məmnunluqlarını ifadə edirdilər. Görüşü açan Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da çıxışına məzunlara müraciətlə "Öz doğma evinizə xoş gəlmisiniz!" sözləri ilə başladı.

Öz məzunları ilə fəxr edən və onlarla həmişə sıx əlaqə saxlayan Xəzər Universitetinin bu gözəl ənənəsindən söz açan H. İsaxanlı sonra universitetin yaranmasından başlayaraq 20 il ərzində keçdiyi uğurlu və şərəfli yola qısa nəzər saldı, 2011-ci ildə dünyanın nüfuzlu tədqiqat mərkəzlərindən biri – İspaniyanın məşhur Dövlət Elmi Tədqiqat Mərkəzinin (Consejo Superior de Investigac Cientifasasiones) Webometrics reytinqində Azərbaycandan yeganə universitet olaraq Xəzər universitetinin dünyanın 6 min ən yaxşı universiteti sırasına, kitabxanasının isə bütün Qafqaz və Orta Asiyadan yeganə kitabxana olaraq dünyanın 1120 ən yaxşı kitabxanası sırasına daxil edildiyini qeyd etdi. O, məzunlarla universitetin gələcəkdə də qarşılıqlı sıx əlaqəsinin davam edəcəyinə əminliyini bildirdi və onlara bütün işlərində müvəffəqiyyətlər arzuladı.







# GÖRÜŞ





(ardı səh. 13-də)

LIBRARY



# ABŞ-a İŞGÜZAR SƏFƏR



Xezer Universitetinin tesisçisi, Direktorlar ve Qeyyumlar Şurasının sedri professor Hamlet İsaxanlı martın 22-den 30-dek ABŞ-da seferde olmuşdur. Martın 24-de o, Vaşinqtonda tarixi Linkoln teatrında hemtesisçisi olduğu Qarabağ Fondu terefinden teşkil olunmuş "Azerbaycan ritmleri" adlı konsertde iştirak etmişdir. Hemin gün H. İsaxanlı Dünya Bankının Avropa ve Merkezi Asiya regionları üzre İnsan İnkişafı Departamentinin nümayendesi, Azerbaycanda ali tehsil islahatı layihesine rehberlik eden, tehsil sahesi üzre iqtisadçı Saçiko Kataoka ile görüşmüşdür.

Martın 27-de H. İsaxanlı Vaşinqtondakı Türkiye sefirliyinde teşkil edilen qebula devet olunan qonaqlar arasında olmuşdur. Hemin gün o, Vaşinqtonda fealiyyet gösteren New World Radio – ya (Yeni Dünya Radiosu) müsahibe vermişdir. Hemin müsahibeni bu saytda dinlemek olar: http://www.wust1120.com/Audio/Azerbaijani%20Radio%20Hour.mp3

Martın 28-de H. İsaxanlı Linkoln teatrında Azerbaycan da daxil olmaqla türkdilli ölkelerin 120 musiqiçisinin qatıldığı çoxsponsorlu esas konsertde - Türksoy konsertinde iştirak etmişdir.

Martın 29-da o, Corc Vaşinqton Universitetinin Mexaniki ve Aerokosmik Mühendislik Departamentinde görüş keçirmişdir. Görüşde hemin departamentle Xezer Universiteti arasında gelecek terefdaşlığın perspektivleri müzakire olunmuşdur. Yene de hemin gün H. İsaxanlı Merilend Universitetinde "Deyişen dünyada ABŞ-Azerbaycan emekdaşlığı ve müttefiqlik elaqeleri" adlı deyirmi masa müzakiresinde iştirak etmişdir. Bununla da onun ABŞ-a işgüzar seferi başa çatmışdır.

# ABŞ SƏFİRİ "XƏZƏR" DƏ







Martın 31-də Xəzər Universitetində Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Metyu Brayza ilə tələbələrin görüşü keçirildi. Görüşü Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açdı. Səfir Metyu Brayza Azərbaycan-Amerika münasibətləri, regiondakı vəziyyətlə bağlı çıxış etdi, tələbələrin çoxsaylı suallarını cavablandırdı. Görüşdə Xəzər Universitetinin rektoru professor Con Rayder iştirak etdi.

# ASAIF - İN QƏRARGAHININ AÇILIŞI

Aprelin 5-də "Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumu" – ASAİF-in Bakıda yerləşən qərargahının rəsmi açılış mərasimi keçirilmişdir. Təşkilatın əsas məqsədi xaricdə təhsil alan, həmçinin məzun olmuş azərbaycanlı gənclərin məqsədyönlü fəaliyyətini təşkil etmək, Azərbaycanın xaricdə təbliği sahəsində onlara köməklik göstərmək və bunun üçün münbit şərait yaratmaq, təcrübə mübadiləsi üçün uyğun platformalar hazırlamaqdır. ASAİF-in sədri Orxan Əkbərov mərasimi açaraq çıxış etdikdən, sonra təşkilatın təsisçiləri və idarə heyətinin üzvləri qonaqları salamlamışlar Daha sonra qonaqlar ofis ilə yaxından tanış olmuş, arzu və istəklərini bildirmişlər.



# "KARYERA PLANLAŞDIRILMASI"
## MÖVZUSUNDA SEMİNAR



Aprelin 4-də Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetdə "Karyera planlaşdırılması" mövzusunda seminar keçirildi. Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayevin təlimçi olduğu seminarda tələbələrə CV yazmaq, iş axtarmaq, müsahibədə iştirak etmək qaydaları və başqa mövzularla bağlı məlumatlar verildi. Seminarda Xəzər Universitetinin və digər universitetlərin tələbələri iştirak etdilər. Sonda tələbələrin sualları cavablandırıldı.



*Universitetimizin yeni nəşrləri*

# "KLASSİK RUS POEZİYASINDAN NÜMUNƏLƏR İSAXANIN TƏRCÜMƏSİNDƏ"

Xəzər Universiteti Nəşriyyatında pedaqoji elmlər üzrə fəlsəfə doktoru İsaxan İsaxanlının "Klassik rus poeziyasından nümunələr İsaxanın tərcüməsində" adlı kitabı çapdan çıxmışdır. Kitaba məşhur rus şairləri – Aleksandr Puşkin, Mixail Lermontov, Aleksandr Blok, Sergey Yesenin, Aleksey Tolstoy və İvan Buninin bəzi şeirlərinin Azərbaycan dilinə tərcümələri daxil edilmişdir. Tərcümələrlə yanaşı şeirlərin orijinalı da verilmişdir. Kitabın redaktoru Mahir N. Qarayevdir. Kitab Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzində çap olunmuşdur.

# XƏZƏR UNİVERSİTETİNDƏ 30-cu MƏZUNLUQ MƏRASİMİ




















**Mətn səh.12-də**





# "XƏZƏR"

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru professor Con Rayder, İctimai Əlaqələr və Media üzrə Direktor Əlövsət Əmirbəyli və universitetin mahnı və rəqs qrupu universitetin 20 illiyi münasibətilə aprelin 23-24-də Şəki şəhərində oldular. Bakıdan gələn qonaqları şəhərin girişində Şəki Şəhər Təhsil Şöbəsinin müdiri Südabə xanım İsmayılova qarşıladı. Universitet rəhbərliyini öncə Şəki Şəhər İcra Hakimiyyətində icra hakimiyyəti başçısının təhsil, səhiyyə və mədəniyyət üzrə müavini Zərinə xanım Cavadova qəbul etdi. Z. Cavadova Xəzər Universiteti rəhbərliyinin Şəkiyə səfərindən məmnun olduğunu və bölgələrdə universitetlərlə görüşlərin mühüm əhəmiyyət kəsb etdiyini bildirdi. O, Şəki şəhəri haqqında qonaqlara geniş məlumat verərək, onlara hədiyyələr təqdim etdi. Professor Hamlet İsaxanlı səmimi qəbul üçün təşəkkürünü bildirdi və icra hakimiyyəti rəhbərliyinə universitetin hədiyyələrini və "Xəzər Universiteti ilə fəal əməkdaşlığa görə" xüsusi plaketini təqdim etdi.

(ardı səh. 19-da)







# Şəkidə









# "XƏZƏR"DƏ İKİ YUBİLEY

Xəzər Universitetinin prorektoru Məhəmməd Nuriyevin 65, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Eldar Şahgəldiyevin 55 illik yubileyləri münasibətilə aprelin 11-də universitetdə ziyafət təşkil olundu. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, rektor Con Rayder, prorektor Rafiq Əhmədov, dekanlar Nigar Bağırova, Cabir Xəlilov və başqaları çıxış edərək, həm M. Nuriyevin, həm də E. Şahgəldiyevin universitetdəki fəaliyyətlərini və insani keyfiyyətlərini yüksək qiymətləndirdilər, onlara pedaqoji və elmi işlərində uğurlar, şəxsi həyatlarında xoşbəxtlik arzuladılar. Yubilyarların şərəfinə mahnılar səsləndi, xoş sözlər söyləndi.



## "LAYİHƏ TƏKLİFLƏRİNİN HAZIRLANMASI" MÖVZUSUNDA TƏLİM



Xəzər Universitetinin əməkdaşları Leyla Abdullayeva və Aytən Şadlinskaya "British Council" tərəfindən Ali Təhsilin Beynəlmiləlləşdirilməsi Proqramı çərçivəsində aprelin 12-13-də Müəllimlər İnstitutunda bir sıra ali məktəblərin nümayəndələrinin iştirakı ilə keçirilən "Layihə təkliflərinin hazırlanması" mövzusunda təlimdə iştirak etmişlər. Təlim Birləşmiş Krallıqdan dəvət olunmuş beynəlxalq ekspert Kris Tribıl tərəfindən aparılmışdır. Ali təhsil müəssisələrindən olan təlim iştirakçıları yerli və beynəlxalq təşkilatlara müraciət vaxtı layihələrin yazılması qaydaları, əsas konsepsiyalar və layihə dizaynı sahəsində bacarıqlar əldə etmişlər.

İştirakçılar layihə hazırlanması sahəsində bir çox yeni nəzəri və praktiki biliklərə yiyələnmişlər.

# İÇİNDƏKİLƏR


- Universitet xəbərləri 3
- *Vaqif Məmmədov.* Vəzifə ilə əqidə üst-üstə düşəndə... 16
- *Hamlet İsaxanlı.* Keçmişin fəlsəfəsi və ya tarix necə yazılır? 20
- *Xəlil Məcidoğlu.* Rus xasiyyəti 26
- İslam dünyada 30
- "Xaricdə təhsil alan gənclərlə bağlı yanlış fikirlərə son qoyulmalıdır" - *"İrəli" İctimai Birliyinin sədri, millət vəkili Ceyhun Osmanlının müsahibəsi* 32
- Mədəniyyət 34
- *Səbuhi Məmmədli.* Kosmosun ilk fatehi 36
- *Mirmehdi Ağaoğlu.* Ernest Heminqueyin intiharı 40
- *Ataəmi Mirzəyev.* Nəsimidən Seyid Əzimə, yaxud sözdən musiqiyə doğru 44
- *İsgəndər Quliyev.* Çoxmədəniyyətlilik müasir cəmiyyət üçün hansı əhəmiyyətə malikdir 47
- Dünya 50
- Amerikalılarda "korkunç türk" önyargısı 52
- Azerbaijan gap analysis strategic planning & analysis division 55
- *Əlirza Balayev.* Yas mərasimi ilə əlaqədar bid'ət haqqında 56
- Sosial 59
- Təbabət 62
- Mozaika 64
- "Dünya" məktəbi 73



Xəzər Xəbər

1995-ci ilin yanvarından çıxır

Təsisçi:
**XƏZƏR UNİVERSİTƏSİ**

Baş redaktor:
**Hamlet İSAXANLI**

Baş redaktor müavini:
**Əlirza BALAYEV**

Redaksiya heyəti:
**Camal MUSTAFAYEV**
**Tofiq ABASQULIYEV**
**Nurəddin RZAYEV**
**Cəmil HƏSƏNLİ**
**Bəhlul ABDULLA**
**Nizami CƏFƏROV**
**Əfqan ABDULLAYEV**

Rəssam:
**Mir Rafiq ƏBDÜLRƏHİMOV**

Kompüter tərtibatçısı:
**Yəmən HAŞIMOVA**

Foto:
**MEDİA MƏRKƏZİ**

*Ünvanımız:*
*Bakı, Məhsəti küçəsi 11.*
*("Neftçilər" metrosunun yanı)*
*Faks: 498-93-79*
*Telefon: 421-79-16*
*421-10-93*
*E-mail: xazarxabar@khazar.org*
*Şəhadətnamə: 376*
*İndeks: 67178*
*Sifariş: 190*
*Tiraj: 3000*

## XƏZƏR UNİVERSİTETİNDƏ 30-CU MƏZUNLUQ MƏRASİMİ

Aprelin 16-da Xəzər Universitetində universitet rəhbərliyi və professor-müəllim heyətinin, məzunlar və valideynlərin iştirakı ilə 30-cu məzunluq mərasimi keçirildi. Bu buraxılışda universiteti 105 məzun – 96 bakalavr, 9 magistr bitirirdi.

Mərasimdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, bu dəfəki buraxılışın universitetin 20 illik yubileyi ilə eyni vaxtda keçirildiyinə görə xüsusilə əlamətdar olduğunu söylədi. Qeyd etdi ki, məzunlar yeni müstəqil həyata qədəm qoyurlar və onları bu mərhələyə hazırlamaq, savadlı, bilikli, müasir dünyagörüşlü, yüksək səviyyəli ixtisaslı kadrlar kimi yetişdirmək üçün universitetin professor-müəllim heyəti ciddi səy göstərmiş, məzunlar da öz müəllimlərinin etimadını doğrultmağa çalışmış və buna nail olmuşlar. H. İsaxanlı məzunlara belə bir arzusunu bildirdi ki, onlar uğurlu əmək fəaliyyəti göstərməklə öz işlərini bitmiş hesab etməməli, özləri öz bizneslərini qurmalı və başqalarını işə götürməlidirlər. Ona görə ki, məhz "Xəzər"də tədris və təcrübə prosesi tələbələrin bunun üçün lazım olan bilik və bacarıqlara yiyələnmələri istiqamətində qurulmuş və həyata keçirilir. H. İsaxanlı valideynlərə öz oğul və qızları ilə birlikdə onların Xəzər Universitetində təhsil alması qərarına gəldiklərinə görə minnətdarlıq bildirdi və onların bu seçimdə yanılmadıqlarına əmin olduğunu söylədi. O, məzunları universitetin kollektivi adından təbrik edərək, onlara əmək fəaliyyətlərində və şəxsi həyatlarında müvəffəqiyyətlər arzuladı. Eyni zamanda qeyd etdi ki, Xəzər Universitetində yaranmış ənənəyə görə məzunlar universitetlə əlaqələri kəsmir və universitet də müxtəlif layihələrin həyata keçirilməsində onlara yardımçı olur. H. İsaxanlı bu ənənənin indiki məzunların timsalında da davam edəcəyinə əminliyini bildirdi.

Xəzər Universitetinin rektoru professor Con Rayder məzunları müstəqil həyata qədəm qoymaları münasibətilə təbrik edərək, onlara müraciətlə dedi: "Sizin gələcəyinizin uğurlu olacağına mən əminəm, ona görə ki, vaxtında düzgün seçim edib, Xəzər Universitetinə təhsil almağa gəlmisiniz."

Sonra məzunlara diplomlar təqdim olundu. Diplomları prorektorlar Məhəmməd Nuriyev və Rafiq Əhmədov, dekanlar Cabir Xəlilov, Nigar Bağırova, İnqilab Əhmədov və dekan əvəzi Zərifə Əliyeva təqdim etdilər. Rektor Con Rayder diplom alan məzunların hər birini təbrik etdi.

Məzunlar and içdilər: "Xəzər Universitetində əldə etdiyim bilik və bacarığı tətbiq edərək ailəm, xalqım və vətənim üçün faydalı olacağıma and içirəm! Xəzər Universitetinin şərəfini qoruyacağıma and içirəm!"

Məzunlar universitetin rəhbərliyi və öz müəllimləri ilə xatirə şəkilləri çəkdirdilər.

Xoş əhval-ruhiyyə ilə keçən mərasim universitetin mahnı və rəqs ansamblının bu münasibətlə hazırladığı konsert proqramı ilə başa çatdı.

*(fotolar səh.6-7-də )*

Khazar VIEW

It has been publishing since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nuraddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV

Design by:
Mir Rafig ABDULRAHIMOV

Computer graphics:
Yemen HASHIMOVA

Photo:
MEDIA CENTRE

*Address:*
*11 Mahsati str., Baku,*
*(near the "Neftchilar" metro)*
*Fax: 498-93-79*
*Phone: 421-79-16*
*421-10-93*
*E-mail: xazarxabar@khazar.org*

*Certificate: 376*
*Index: 67178*
*Order: 190*
*Copies: 3000*

# MƏZUNLARA TƏBRİKLƏR

**Xəzər Universitetinin təsisçisi,**
**Xəzər Universiteti Direktorlar və Qəyyumlar**
**Şurasının sədri professor Hamlet İsaxanlı**



***ƏZİZ MƏZUNLAR!***

*Artıq otuzuncu dəfədir ki, Xəzər Universitetinin say-seçmə tələbələri məzunluq andı içir, zəhmət, axtarış və fərəh dolu illərin yaratdığı təntənəli anın sevinci ulə yaşayırlar.*

*Tələbələrimiz get-gedə daha dolğun təhsil alır, daha dolğun tələbə həyatı keçirir, məzunlarımız daha geniş üfüqlərdə parlayırlar.*

*Əziz məzunlar! Siz yüksəklərə ucaldıqca, böyüdükcə Xəzər Universiteti də böyüyür, ucalır, qəlbi sevinclə dolur, siması nura boyanır. Ümidvaram ki, illər ötdükcə sizi Xəzər Universitetinə bağlayan tellər daha da bərkiyəcək, doğma universitetinizlə fəxr edəcəksiniz.*

*Uğur olsun! Sizinlə fəxr edirik, aziz "Xəzər" məzunları!*

**Khazar University Founder,**
**Chairman of the Board of Directors and**
**Trustees of Khazar University professor Hamlet İsakhanli**

***DEAR ALUMNI!***

*It is already the thirtieth time that successful students of Khazar University take the graduates' oath and are happy to experience the joy of the Degree Recognition Ceremony after their hard years of study and research.*

*Our educational standards have been rising constantly making students' life more interesting and meaningful. Khazar University alumni have been performing brilliantly in many professional endeavors.*

*Dear graduates! You're achieving high level educational standards and becoming established experts in diverse areas inspires Khazar University to make further remarkable progress with you. We are sure that as the years pass the ties between you and Khazar University will get stronger and you will always be proud of your Alma Mater.*

*Good luck to you! We are proud of you!*

**Hamlet İsaxanlı**

# MƏZUNLARLA GÖRÜŞ

*(əvvəli səh. 3-də)*

Sonra universitetin Media Resursları Mərkəzinin yubiley münasibətilə hazırladığı "Gəlin xatırlayaq" adlı sənədli film nümayiş etdirildi. Universitetin keçdiyi yolu əks etdirən film tamaşaçıları riqqətə gətirdi, onların alqışları ilə qarşılandı.

Universitetin rektoru Con Rayder çıxış edərək, universitetin gələcək inkişaf istiqamətləri, xüsusən beynəlxalq əlaqələrinin genişləndiriləcəyi barədə danışdı, məzunları doğma universitetlərinin yubileyi münasibətilə təbrik etdi, onlara xoş arzularını bildirdi.

Məzunlar adından universitetin hüquq və sosial elmlər fakültəsini 1999-cu ildə yüksək fəxri diplomla bitirən, BP Sağlamlıq və təhlükəsizlik şöbəsinin rəisi Emil Əliyev çıxış edərək, savadlı və ixtisaslı kadrlar kimi yetişmələrində universitet rəhbərliyi və professor - müəllim heyətinin böyük əməyindən danışdı, onlara minnətdarlıq bildirdi və doğma universitetlə daim təmasda olacaqlarını söylədi.

Görüş universitetin mahnı və rəqs ansamblının konserti ilə başa çatdı. Konsert proqramında Opera və Balet Teatrının solisti Çinarə Şirin iştirak etdi.



**Xəzər Universitetinin rektoru**
**professor Con Rayder**

***ƏZİZ MƏZUNLAR!***

*Bu gün Xəzər Universitetində təhsilinizi uğurla başa vuraraq, akademik proqramları yüksək səviyyədə başa çatdırmağınız münasibətilə rəsmi sənəd əldə edirsiniz. Bu nailiyyətinizlə bağlı sizi təbrik edirəm.*

*Bildiyiniz kimi, Xəzər Universitetində təhsilin keyfiyyəti və standartları birmənalı olaraq çox yüksəkdir. Gələcəyinizi uğurla qurmaq üçün Xəzər Universitetində aldığınız bilik sayəsində və bitirdiyiniz sahənin mütəxəssisləri kimi daim müvəffəqiyyət qazanacağınıza inanırıq.*

*Ancaq bu heç də o demək deyil ki, siz Xəzər Universitetindən həmişəlik ayrılırsınız. Universiteti bitirməklə artıq siz Xəzər Universitetinin dünyada daim uğurlar qazanan, müxtəlif sahələrdə öz nailiyyətləri ilə seçilənlərin cərgəsinə qoşulursunuz. Sizin gələcəyiniz və nailiyyətləriniz doğma universitetinizin, Xəzər Universitetinin nüfuzunu daha da yüksəldəcək. Nə qədər ki siz gələcək fəaliyyətinizə başlayacaqsınız, sizinlə əlaqə saxlamaqda davam edəcəyik.*

*Təbrik edirəm və uğurlar arzulayıram!*

**Rector of Khazar University**
**professor John Ryder**

***DEAR GRADUATES!***

*Today you reach the culmination of your studies at Khazar University, and you receive the recognition you have earned by successfully completing your academic programs. We congratulate you on your achievement.*

*To receive your degree is indeed an achievement because as you know the academic standards at Khazar University are uniformly high. You leave the university with an expertise in your field with which to build your future, and we have every confidence that all of you will succeed brilliantly.*

*At the same time, you are not really leaving Khazar University. Rather, you are joining the growing ranks of Khazar alumni who are making their mark in many fields around the world. Your future and your success contribute to the prestige of your Alma Mater, Khazar University. We look forward to continuing contact with you as you begin to pursue your future activities.*

*Congratulations and Good Luck!*

***John Ryder***

## TƏHSİL NAZİRLİYİNİN İŞÇİSİ İLƏ GÖRÜŞ

Aprelin 7-də Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetdə Təhsil Nazirliyinin baş məsləhətçisi Elnur Əlizadə ilə Xəzər Universiteti Tələbə Məclisinin idarə heyətinin görüşü keçirildi. Görüşdə gələcək əməkdaşlıq, müxtəlif layihələrdə birgə iştirak, Tələbə Məclisinin digər ali təhsil müəssisələrinin tələbə gənclər təşkilatları ilə əməkdaşlığı müzakirə olundu. Xəzər Universiteti Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev və Tələbə Məclisinin prezidenti Emil Əliyev Təhsil Nazirliyinin müxtəlif proqramlarında iştirakla bağlı çıxış etdilər.

## AZƏRCELL NÜMAYƏNDƏLƏRİ İLƏ MÜZAKİRƏ

Aprelin 14-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və universitetin İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva Azərcell şirkətinin səlahiyyətli nümayəndələri Ülviyyə Həsənzadə və Nigar Şıxlinskaya ilə görüşdülər. Görüşdə Xəzər Universiteti ilə Azərcell şirkəti arasında gələcək əməkdaşlığın perspektivləri müzakirə olundu.

# "XƏZƏR XƏBƏR"İN NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ BÜROSU AÇILMIŞDIR



"Xəzər Xəbər"in Naxçıvan Dövlət Universitetində bürosu fəaliyyətə başlamışdır. Büroya Vaqif Məmmədov rəhbərlik edir.

Vaqif Məmmədov 1948-ci il iyunun 28-də Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Sədərək kəndində anadan olub. 25 ilə yaxın kənd məktəbində pedaqoji fəaliyyətlə məşğul olub.

Azərbaycan Jurnalistlər Birliyinin (1992), Azərbaycan Yazıçılar Birliyinin (1995) və İLESAM-ın (Türkiyə) üzvü (2005), tarix elmləri üzrə fəlsəfə doktoru (2001), Əməkdar mədəniyyət işçisidir (2005).

1970-ci ildən bədii yazıları mətbuatda çap olunan, otuza yaxın bədii-publisistik kitabın müəllifi olan Vaqif Məmmədovun şeirləri Türkiyə, İran, İraq, Özbəkistan, Rusiya, Ukrayna, Belarus, Yunanıstan, Almaniya, Bolqarıstan, Pakistan və ABŞ-da çap olunub.

1995-2000-ci illərdə Naxçıvan MR Ali Məclisinin millət vəkili olmuşdur.

1998-ci ildən Naxçıvan Dövlət Universitetinin "Qeyrət" nəşriyyatının direktoru vəzifəsində çalışır.

*(Bürodan redaksiyaya daxil olmuş ilk yazı səh.16-da)*

# İNTERNATIONAL HOUSE ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİ "DÜNYA" MƏKTƏBİNDƏ

Aprelin 12-də İnternational House şirkətinin nümayəndələri "Dünya" məktəbinin qonağı oldular. Məqsəd məktəbin şagird və müəllim heyətini Kanadanın Toronto şəhərində təşkil olunan yay məktəbinin "Junior" proqramı ilə tanış etmək idi. Qonaqlarla görüş məktəbin konfrans zalında müəllimlərin və 5-9-cu sinif şagirdlərinin iştirakı ilə keçirildi. Şagirdlərə "Junior" proqramının mahiyyəti, keçiriləcək dərslər və təşkil olunacaq gəzintilər haqqında ətraflı məlumat verildi və slayd-şou təqdim olundu. Sonda məktəblilər onları maraqlandıran suallarla qonaqlara müraciət etdilər.

# "DÜNYA" MƏKTƏBİNDƏ BÜDCƏ TƏKLİFLƏRİNİN MÜZAKİRƏSİ

Aprelin 12-də Xəzər Universutetinin rektoru Con Rayderin "Dünya" məktəbinin direktoru Mərufə Mədətli ilə görüşü oldu. Məqsəd 2011-2012-ci tədris ilində "Dünya" məktəbinin büdcəsini müəyyənləşdirmək idi. Görüşdə büdcə təklifləri müzakirə edildi.

# "MƏDƏNİYYƏTLƏRARASI DİALOQ" VERİLİŞİNDƏ

"Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, dilşünas və ədəbiyyatşünas alim, AMEA-nın müxbir üzvü, millət vəkili Nizami Cəfərov və filosof İlham Məmmədov aprelin 15-də "Mədəniyyət" televiziya kanalında "Mədəniyyətlərarası dialoq" verilişinin qonağı oldular. Tarixdə, müasir dövrdə və Azərbaycanda mədəniyyətlərarası dialoq məsələsi müzakirə edildi.

# BELT PROQRAMININ TƏQDİMATI

Aprelin 15-də Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentində ingilis dili müəllimi Elif Tüylü tərəfindən İngilis dilinin mərhələli interaktiv tədrisinə dair BELT proqramının təqdimatı keçirildi. Təqdimatda departamentin müəllimləri iştirak edərək, proqramla yaxından tanış oldular. Gələcəkdə BELT proqramından tədrisdə istifadə olunması üçün müəyyən mərhələlərin sınaqdan keçirilməsi qərara alındı.



"Xəzər Xəbər"in NDU bürosu

# VƏZİFƏ İLƏ ƏQİDƏ ÜST-ÜSTƏ DÜŞƏNDƏ...

*Naxçıvan Dövlət Universitetinin rektoru, akademik, millət vəkili, Əməkdar elm xadimi İsa Həbibbəyli ilə müsahibə*

**Sual:** -***Hörmətli İsa müəllim, siz 1967-ci ildən fəaliyyətə başlayan Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialının (indiki NDU) ilk 105 tələbəsindən biri, universitetin Tələbə Elmi Cəmiyyətinin ilk sədri, həmin universitetin məzunlarından ilk müəllim, ilk elmi işlər üzrə prorektor və nəhayət, 1996-cı ildən 15 ilə yaxındır ki, universitetin rektoru kimi bir yol keçmisiniz. Bu 45 illik «yol təəssüratlarınızı» öz dilinizdən eşitmək «Xəzər Xəbər» oxucuları üçün də maraqlı olardı.***

**Cavab:** -Hazırda rektoru olduğum Naxçıvan Dövlət Universitetinin vaxtilə ilk tələbələrindən biri olmağım mənim üçün çox əhəmiyyətli məsələdir. Hər şeydən əvvəl, özümü həmişə formalaşmağımda mühüm rolu olan doğma universitetimə borclu hesab edirəm. Həmin borcu layiqincə ödəmək üçün bütün imkanlarımı, enerjimi ürəklə universitet quruculuğuna yönəldirəm. İkincisi isə, Naxçıvan Dövlət Universiteti məndən ötrü məbəddir. Onu qorumağı və adını uca tutmağı müqəddəs vəzifə kimi qəbul etmişəm.

Dünya təcrübəsi göstərir ki, ölkələrin və xalqların tarixində və taleyində universitetlərin böyük rolu vardır. Hətta heç bir təbii sərvətə malik olmayan ölkələr var ki, onlar elmin, təhsilin, yeni texnologiyanın hesabına dünyanın liderləri sırasına çıxa biliblər. Azərbaycanda isə yerin altı da, üstü də sərvətlərlə zəngindir. Həmin zənginliyi qoruyub saxlamaq, daha da inkişaf etdirmək, daim xalqın xeyrinə yönəltməyi bacarmaq üçün geniş dünyagörüş, bilik və bacarıqlar tələb olunur. Bu vəzifəni isə yalnız inkişaf etmiş məktəbin, yüksək təhsilin sayəsində həyata keçirmək mümkündür. Bu prosesdə ali təhsilin xüsusi rolu vardır. Harvard, Oksford, Kembric... kimi universitetlər ölkələrinin inkişafında böyük rola malikdirlər. Rektorluq fəaliyyətimi ölkənin inkişafı üçün əhəmiyyətli ola biləcək universitet quruculuğuna həsr etməyi əsas vəzifə kimi qəbul etmişəm. Bu yolda nə qədər bacarıramsa çalışıram. Hesab edirəm ki, Azərbaycanın regionunda diqqəti cəlb edə biləcək bir ali məktəb qurulmaqdadır.

İndiki Naxçıvan Dövlət Universiteti 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı kimi fəaliyyətə başlayıb. Sonra 18 il Pedaqoji İnstitut səviyyəsində yolunu davam etdirib. Artıq 21 ildir ki, Naxçıvanda Dövlət Universiteti fəaliyyət göstərir.

Naxçıvan Dövlət Universitetinin 108 hektarlıq sahəni əhatə edən kampusunun formalaşdırılması onu fərqləndirir. Universitet şəhərciyində yeni istifadəyə verilmiş üç mərtəbəli sosial xidmət mərkəzində sərgi salonu, kafeteriya, ərzaq və kitab mağazaları, aptek, rabitə evi və sair xidmət sahələrinin fəaliyyət göstərməsi asudə vaxtın təşkili və sosial fəaliyyətin genişləndirilməsi baxımından çox faydalıdır. Ərazidə bu il başa çatdırılmış tələbə yataqxanası ən azı dörd ulduzlu otellərlə müqayisə oluna bilər. Universitet şəhərciyinin hər yerində simsiz internet şəbəkəsindən istifadə etmək mümkündür. Elektron kitabxana yaratmaq sahəsində də mühüm addımlar atılmışdır. Konservatoriya, olimpiya tipli idman mərkəzi, xəstəxana, botanika bağı, stadion və sair kampusun faydalılıq əmsalını artırır. Bunların hamısı ölkəmizdə uğurla həyata keçirilən elm və ali təhsil siyasətinin konkret bəhrələridir. Mənim üçün bunlardan hər birinin yaranması, qurulub istifadəyə verilməsi ayrıca tarixdir.

**Sual:** - ***Naxçıvan Dövlət Universiteti fitnəkar qonşularımızın törətdikləri məlum hadisələrlə əlaqədar blokadaya salınmış bir regionda fəaliyyət göstərsə də, ölkə ali təhsil ocaqları sırasında xüsusi çəkisi və reytinqi olan elm ocağı səviyyəsinə qalxmış və beynəlxalq «Minilliyin universiteti» adına layiq görülmüşdür. Xahiş edirik bir qədər uğurlarınız barədə və bir də nadir bu uğurun sirləri?***

**Cavab:** - Fikrimcə, uğurlarımızın əsasında kollektivdəki sabitlik və yenilikçilik ruhu xüsusi yer tutur. Naxçıvan Dövlət Universitetinin beş min nəfərlik professor-müəllim heyəti və tələbə kollektivi böyük bir ailəni xatırladır. Səmimiyyət, birlik, qarşılıqlı ehtiram hisslərinin formalaşması bizim bir çox lazımsız, lüzumsuz məsələlərdən yaxa qurtarmağımıza imkan yaradır. Belə olduqda yaradıcı düşüncə, intellektual inkişaf üçün daha münasib meydan açılır.

Tədris prosesindən tutmuş idarəetməyə, elmi axtarışlara qədər bütün sahələrdə yenilikçilik, təşəbbüskarlıq, inkişafa meylli olmaq da bizim üçün əsas şərtlərdən biridir.

Ali məktəbdə milli ənənə ilə, ölkənin təcrübəsi ilə dünyaya inteqrasiya olunmağın da balansı müəyyən olunmalıdır. Biz Naxçıvan Dövlət Universitetinin möhkəm milli əsaslara malik olan və eyni zamanda dünyaya inteqrasiya edilmiş bir ali məktəb tipində inkişafını daha məqbul hesab edirik.

Naxçıvan Dövlət Universiteti Avropa Rektorlar Klubunun və Asiya Universitetlər Assosiasiyasının üzvüdür. Avropa Universitetlər Birliyinə üzv olmaq üçün də müraciət etmişik. Çalışırıq ki, universitetlərin dünya məkanında da müəyyən izimiz-sözümüz olsun.

**Sual:** ***-Daşıdığınız vəzifə ilə əlaqədar bütün qitələri gəzib, yüzlərlə ali məktəblərin iş təcrübəsi ilə tanış olmusunuz. Bugünkü ali məktəbin qarşısında duran əsas vəzifəni nədə görürsünüz? Bu vəzifənin icra olunması üçün Azərbaycan ali məktəblərinin və NDU-nun nə kimi perspektiv imkanları var?***

**Cavab:** -Ali təhsilin, xüsusən də Naxçıvan Dövlət Universitetinin qarşısında duran əsas vəzifə hərtərəfli inkişaf etmiş vətənpərvər yeni nəsli formalaşdırmaqdan ibarətdir. Biz «Hər şey tələbə üçün» proqramını həyata keçiririk. Dövlətimizin köməyi ilə tələbə gəncliyin aşıb-daşan maraqlarının universitetdə təmin olunması üçün geniş imkanlar yaratmağa çalışırıq. Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti, Tələbə Teatr və Opera Studiyaları, xor, vokal və rəqs qrupları, Gənc Sahibkarlar Mərkəzi, Tələbə İdman Klubu, Tələbə İnformasiya Mərkəzi, «Gəmiqaya» Ədəbi Birliyi və sair kimi daimi fəaliyyətdə olan qurumlar, internet mərkəzləri yeni nəslin maraqlarının həyata keçirilməsində mühüm rol oynayır. Universitetdə tədris prosesi ilə maarifçi-mədəni mühitin bir-birini tamamlamasına ciddi diqqət yetiririk. Belə olduqda tələbə -gənclik üçün universitet doğma bir ocağa çevrilir. Nəticədə, bu yolla böyük inkişafın təməllərini yaratmaq mümkündür. Çünki bugünkü tələbə gəncliyin vətənpərvərlik ruhu və inkişaf səviyyəsi ölkənin yaxın gələcəkdəki inkişafının göstəricisidir. Düşünürəm ki, bu istiqamətdə hələ çox işlər görmək lazımdır.




**Sual:** ***-Rektor, akademik, millət vəkili, üstəgəl 60-dan artıq sanballı kitab müəllifi olan ən məhsuldar ədəbiyyatşünas... Bu gərgin, biri-birindən məsuliyyətli vəzifələr yormur sizi? Necə vaxt ayıra bilirsiniz bu qədər gərgin fəaliyyətə?***

**Cavab:** - Daşıdığım vəzifəyə qəlbdən, dərindən bağlılıq, həyata keçirdiyim işlərdən zövq almaq hissi vaxt və yorğunluq amilini aradan qaldırır.

Vəzifə ilə əqidə üst-üstə düşəndə çoxcəhətli fəaliyyət özünüifadənin təbii bir təzahürünə çevrilir.

**Sual:** ***-Xəzər Universitetinin kollektivinə və «Xəzər Xəbər» jurnalının oxucularına sözünüz, arzunuz?***

**Cavab:** - Azərbaycan ali təhsil sistemində Xəzər Universitetinin özünəməxsus yeri və mövqeyi vardır. Novatorluq baxımından Xəzər Universiteti daha çox cəlbedici görünür. Arzu edirəm ki, digər ali təhsil ocaqları kimi Xəzər Universiteti də həmişə milli ənənə ilə dünyaya inteqrasiyanı vəhdətdə yaşatsın.

«Xəzər-Xəbər» yeni tipli ali məktəb jurnalıdır. Universitetlərin çoxunda bu vəzifəni ali məktəb qəzetləri həyata keçirirlər. Bizim universitetdə bunların hər ikisi -«Fikir» informasiya jurnalı və «Yeni fikir» qəzeti fəaliyyət göstərir. İlk tanışlıqdan hiss olunur ki, «Xəzər-Xəbər» ali məktəbin informasiya bülleteni olmaqla yanaşı, analitik yazılara da yer ayırır. Bu mənada təkcə universitetin salnaməsi deyil, həm də bələdçisidir. Uğur olsun.

*Müsahibəni apardı:*
**Vaqif Məmmədov**

KHAZAR LIBRARY

# UNİVERSİTET XƏBƏRLƏRİ

## DÜNYA BANKININ (WORLD BANK) NÜMAYƏNDƏSİ XƏZƏR UNİVERSİTETİNDƏ

Aprelin 15-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Dünya Bankının (World Bank) Azərbaycandakı layihələr üzrə direktoru professor Dr. Hab. Zelves Rimantas və Təhsil nazirliyinin nümayəndələri ilə görüşdü. Xəzər Universitetinin Təhsil Siyasəti İnstitutunun təhsilin gələcək inkişafında oynaya biləcəyi müsbət rol haqqında müzakirə aparıldı.

## MƏŞĞULLUQ İDARƏSİNİN İŞÇİLƏRİ İLƏ GÖRÜŞ

Aprelin 21-də Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Baş Məşğulluq idarəsinin və Nizami Rayon Məşğulluq İdarəsinin işçiləri ilə tələbələrin görüşü keçirildi. Baş Məşğulluq İdarəsinin rəisi İlqar Şıxəliyev və Nizami Rayon Məşğulluq İdarəsinin işçisi Fərhad Xəlilov tələbələrə təşkil olunacaq əmək yarmarkaları və bir sıra digər layihələr haqqında məlumat verdikdən sonra tələbələrin sualları cavablandırıldı.

## TƏLƏBƏLƏRİMİZ I BEYNƏLXALQ MƏDƏNİYYƏT FESTİVALINDA

Aprelin 22-də Azərbaycan Diplomatik Akademiyasında (ADA) Kitab mərkəzinin açılışı və bu münasibətlə I Beynəlxalq mədəniyyət festivalı keçirilmişdir. Xəzər Universitetində təhsil alan 3 əcnəbi tələbə də festivalda iştirak edərək, müxtəlif ölkələrin tarixi və mədəniyyətini əks etdirən kitab, jurnal, foto-şəkil, geyim və bəzək əşyaları, şirniyyat məmulatları ilə tanış olmuşlar.

## "DÜNYA" MƏKTƏBİNDƏ İLAHİYYATÇI ALİMLƏ GÖRÜŞ

Aprelin 25-də "Dünya" məktəbində Din və Demokratiya Mərkəzinin "Əhalinin ekoloji şüuru və tərbiyəsinə mənəvi dəyərlərin təsiri mexanizmlərinin yaradılması" layihəsi çərçivəsində görüş keçirildi. Görüşdə ilahiyyatçı alim, Qurani- Kərimin dilimizə tərcüməçisi Nəriman Qasımoğlu din, təbiət, dünyanın ekoloji tarazlığının pozulması məsələlərinə aid məruzə ilə çıxış etdi. Görüşdə Yaşıllar Hərəkatının sədri Fəridə Hüseynova iştirak edirdi.

## "XƏZƏR"DƏ GÖRÜŞ-DEBAT

Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə "Aydınlığa Doğru" Milli-Mənəvi Dəyərlərin Qorunması İctimai Birliyi və "Yeni Yol" Gənclərin Maarifləndirilməsi İctimai Birliyi aprelin 25-də Xəzər Universitetində "Gənclərimizin gələcəyi Vətənimizin gələcəyidir" layihəsi çərçivəsində ə tələbələrlə görüş-debat keçirmişlər. "Aydınlığa Doğru" İctimai Birliyinin sədri Solmaz Əmirli layihənin məram və məqsədini açıqladıqdan sonra sözü "Gənclərimizin gələcəyi Vətənimizin gələcəyidir" layihəsinin Məsləhət Şurasının sədri, əməkdar elm xadimi, professor Şahlar Əsgərova verdi. Ş. Əsgərov gənclərin təhsili, əməyi və mənəvi-əxlaqi tərbiyəsi ilə əlaqədar məsələlər üzərində dayandı, problemlərdən və onların həlli yollarından danışdı. O, Xəzər Universitetindəki təhsil sisteminin müasir keyfiyyətli təhsil sisteminin bir modeli olduğunu da vurğuladı.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı belə bir görüş-debatın məhz Xəzər Universitetində keçirilməsindən çox məmnun olduğunu bildirdi, universitetin nəzdində fəaliyyət göstərən tədqiqat mərkəzlərini də bu layihəyə qoşulmağa dəvət etdi və tələbələri müzakirədə fəal olmağa çağırdı.

Debat tələbələrin fəallığı şəraitində keçdi. Onlar mövcud problemlərə öz münasibətlərini açıqladılar. Qeyd etmək lazımdır ki, Xəzər Universitetində oxuyan tələbələri narahat edən məsələlər əsla təhsillə bağlı deyildi, verilən suallar əsasən şəxsiyyət və ailə sferasına aid idi. Olduqca maraqlı keçən debatda Məsləhət Şurasının üzvləri tələbələrin suallarını cavablandırdılar.

# "XƏZƏR" ŞƏKİDƏ

*(əvvəli səh.8-də)*

Sonra universitet rəhbərliyi ictimaiyyətlə görüş üçün nəzərdə tutulmuş Sabit Rəhman adına Şəki Şəhər Dövlət Dram Teatrına yollandı. Orada artıq Xəzər Universitetindən gələn qonaqları çoxlu sayda ictimaiyyət nümayəndələri, müəllimlər, valideynlər və şəhərin orta məktəblərindən olan yuxarı sinif şagirdləri gözləyirdilər. Təhsil şöbəsinin rəhbərliyi qonaqları izdihamlı salona dəvət etdi. Şəki Şəhər Təhsil Şöbəsinin müdiri Südabə xanım İsmayılova salona toplaşanları salamlayaraq, Xəzər Universitetindən gələn qonaqları salona toplaşanlara təqdim etdikdən sonra çıxış üçün sözü professor Hamlet İsaxanlıya verdi. H. İsaxanlı Xəzər Universitetinin təsis edilməsindən, 20 illik tarixindən geniş məlumat verdi. Xəzər Universitetinin rektoru professor Con Rayder şəkililərə yüksək qonaqpərvərlik üçün təşəkkür etdi və universitetin gələcək planlarından, görüləcək işlərdən danışdı. Şəki şəhərinin rəhbərliyinə və təhsil şöbəsinin müdiri S. İsmayılovaya fəal əməkdaşlıq üçün təşəkkür etdi və universitetin plaketini ona təqdim etdi. Universitetin İctimai Əlaqələr və Media üzrə Direktoru Əlövsət Əmirbəyli Xəzər Universitetinin ölkədəki və beynəlxalq arenadakı uğurlarından danışdı. Ə. Əmirbəyli Xəzər Universitetinin ənənəvi Olimpiadasından geniş məlumat verdi və hər il olduğu kimi bu il də Şəki şəhər məktəblilərinin bu yarışda fəal iştirak edəcəklərinə əmin olduğunu bildirdi. Çıxışlardan sonra Xəzər Universiteti tələbələrinin və Xəzər Universiteti "Dünya" məktəbi şagirdlərinin ifasında konsert proqramı iştirakçılar tərəfindən alqışlarla qarşılandı.

Universitet rəhbərliyi və tələbələr həmin gün Şəki şəhərinin tarixi və görməli yerləri ilə tanış oldular. Universitet rəhbərliyinin hər zaman yanında olan təhsil şöbəsinin əməkdaşı Məmməd Qədirov Şəki və şəkililər haqqında maraqlı məlumatlar verdi. Xəzər Universitetindən gələnlər şəhərin mərkəzində yerləşən tarixi Karvansaray mehmanxanasında gecələdilər. Səhər universitet rəhbərliyi və tələbələr Şəki şəhərini gəzdikdən sonra Bakıya doğru yollandılar. Yol boyu Azərbaycanın əsrarəngiz mənzərəsi ilə tanış oldular.

Şamaxıda yol kənarında yerləşən, 1918-ci ildə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Qafqaz İslam Ordusunun tənha türk əsgərinin məzarını ziyarət etdilər. Xəzər Universitetinin 20 illiyinə həsr edilmiş daha bir görüş arxada qaldı.

**Əlövsət Əmirbəyli,**
*İctimai Əlaqələr və Media üzrə Direktor*

# XƏZƏR UNİVERSİTETİ PSİXOLOJİ MƏSLƏHƏT VƏ PSİXOTERAPİYA MƏRKƏZİ QRUP PSİXOTERAPİYASI SEANSLARINA QƏBUL ELAN EDİR

Xəzər Universiteti Psixoloji Məsləhət və Psixoterapiya Mərkəzi qrup psixoterapiyası seanslarına qəbul elan edir. 18-35 yaşlar arasında olan, psixoloji problemlər yaşayan şəxslər həftədə bir dəfə 2-3 ay ərzində bu qrup terapiyasının xidmətindən yararlana bilərlər.

Sizin problemləriniz müxtəlif ola bilər: depressiya, müxtəlif fobiyalar, panik atak, obsessiv-kompulsiv rahatsızlıqlar, şəxsi həyatda və ya işdə yaşanan problemlər, alışqanlıqlar, komplekslər və s. Bu proqramın məqsədi – bənzər şəxslərlə, yəni oxşar psixoloji problemlər yaşayan və ya həyatında hər hansı problemi həll etməyə çalışan insanlarla ünsiyyət yaradaraq, öz problemlərini daha asan anlamaq və çıxış yolu tapmaqdır.

*Sizi maraqlandıran müvafiq məsələlərlə əlaqədar mənə müraciət edə bilərsiniz:*

**Ülkər İsayeva**
**Əlaqə nömrələri:** (050) 2867371 ; (012) 5968774
**Email:** ulker_17@yahoo.com ; ulker@khazarpcpc.org

# KEÇMİŞİN FƏLSƏFƏSİ VƏ YA TARİX NECƏ YAZILIR?

*Əvvəli jurnalın 284-cü (aprel 2010), 286-287-ci (iyun 2010 -iyul 2010), 288 - 294 - cü (sentyabr 2010 - mart 2011) nömrələrində*

***Hamlet İSAXANLI***



***Keçmiş keçib gedib. Bu, məntiqi cəhətdən həqiqət olsa da, o qədər də sadə həqiqət deyil. Keçib gedən bizim keçmişimizdir, biz o keçmişdən əmələ gəlmişik. Kimliyimizi, mahiyyətimizi o keçmişsiz təsəvvür etmək mümkün deyil. Biz öz keçmişimizə bağlıyıq. Biz keçmişimizin davamıyıq.***

***Bəşəriyyətin keçmişi necə olub? Bu barədə əfsanələr, miflər və tarix söz deyir. Tarix daha dəqiq məlumat verməyə çalışır. Əslində, biz keçmişi tam deyil, tarixin bizə söylədiyi qədər bilirik. Başqa sözlə desək, tarixin məzmunu keçmiş haqqında bildiklərimiz və öyrənib yazdıqlarımızdan ibarətdir. Tarixin məzmunu və tutumu ayrı-ayrı şəxslərin, tarixçilərin yazıb toplaya bildiyi qədərdir. Tarix subyektivdir, nisbidir, tarix yazanların iradəsindən, ideyasından, şəxsiyyətindən, gücündən müəyyən dərəcədə asılıdır.***

***Keçmişin təbiəti və ruhu nədir? Keçmiş necə dərk olunur? Bəlkə keçmiş kəşf olunur? Keçmişin dərkində subyektivlik varsa, keçmişi öyrənən tarix nədir, elmdir, yoxsa sənət? Tarixi subyektiv edən hansı amillərdir? Tarix gözəldir; bu gözəllik öz heyranlarını yoldan, başdan çıxarmırmı, tarix təhlükə törədə bilərmi? Tarix necə yazılır və ya necə yazılsa yaxşıdır?***

***Bu və buna bənzər suallar tarixin fəlsəfəsinə aiddir. Bu yazı keçmişdə baş verənlərin dərki ilə məşğul olan tarixin mahiyyəti haqqındadır. Elm və sənətin qovşağında yer tutan tarixin fəlsəfəsi, çox güman ki, tək tarixçilərə və filosoflara deyil, bəşəri düşüncələrə dalan hər kəsə maraqlıdır.***

## Tarixdə dövlət və hakimiyyət fəlsəfəsi. İslam

İslamda Məhəmməd peyğəmbər həm siyasi (dünyəvi), həm dini lider sayılsa da, o, özünü yalnız dini sahədə nüfuzlu söz sahibi hesab edir, ətrafındakılara "dünyəvi həyatı siz daha yaxşı anlayırsınız" deyirdi (bu barədə hədis mövcuddur). Əl-Hədid (57) surəsinin 25-ci ayəsi vəhylə yanaşı gündəlik, həyati məsələlərdə mizanın, yəni tərəzinin, ölçünün, insanların müəyyən etdiyi ədalətli, tarazlaşdırılmış və ya orta yolun zəruriliyini yada salır: "Kitab və mizan da nazil etdik ki, insanlar ədalətlə hərəkət etsinlər". İlk xəlifələr hər iki sahəni - dini və idarəetməni öz üzərlərinə götürdülər. Din və şəriət məsələləri ilə hərbi işin fərqli əllərdə olması çox tez baş verdi. Türk sultanları dövründə isə dini, hərbi və idarəetmə işi uyğun olaraq xəlifə (və üləma), sultan və sultanın vəziri arasında bölüşdürüldü. Əlbəttə ki, sultan bəzən xəlifənin və vəzirin işinə qarışmaq istəyirdi və qarışırdı.

Din və dövlət münasibətləri, siyasət və əxlaq (etika), yaxşı dövlət başçısına xas olan sifətlər İslam siyasi fəlsəfəsində, praktik (əməli) fəlsəfədə (necə yaşamaq, dünyada və cəmiyyətdə hansı yeri tutmaq kimi suallara cavab axtaran fəsəfədə) mərkəzi məsələlərdən biridir. Hüquqçu, ilahiyyatçı və filosoflar (bu sahələr bir çox hallarda eyni adamda birləşə bilirdi), vəzir və digər yüksək inzibatçılar dövlət, hüquq, hakimiyyət, ədalət anlayışları ətrafında müzakirə açır, yazır və uyğun hallarda qərar çıxarırdılar. Hüquqi müstəvidə qərarlar Quran, sonra Məhəmməd peyğəmbər və onun yaxın həmkarlarının həyat və baxışlarını əks etdirən hədislərə əsaslanan yanaşma, yəni sünnə və nəhayət, dini liderlərin razılaşdırılmış rəyi, yəni icma əsasında qəbul edilirdi. Lakin siyasi məsələlər və xüsusilə idarəetmə işi qədim hökmdarların (xüsusilə iranlıların) idarəetmə üsulları, yunan filosoflarının fikir və nəzəriyyələrinin şərhi və onların İslami müstəvidə inkişafına əsaslanan nəzəriyyələr və tövsiyələr üzərində qurulurdu.

Hüquqi məsələlərdə Qurandan sonra ikinci yerdə duran hədislərin bir qismində siyasi meyllərin əks olunduğu şübhə doğurmur. Hakimiyyətin dinc yolla bir əldən digərinə keçid prinsipləri, xəlifə və imamların vəzifəyə hansı qanun əsasında gəlmələri məsələsində fikir ayrılığı İslamda müxtəlif cərəyanların yaranmasına səbəb oldu. "Xaricilər" adlandırılan cərəyan yalnız seçki yolu ilə gələn xəlifələri qanuni sayır, davranış və praktik fəaliyyəti ciddi çərçivələr içində görür, cah-calal və dəbdəbəni, alkoqollu içki, musiqi və oyunları pisləyirdi. Şiələr isə hakimiyyət haqqının

ilahidən gəldiyini, irsi keçdiyini, bu işdə Məhəmməd peyğəmbərin ailəsinin (bu halda Əlinin) əlahiddə hüququ olduğunu müdafiə edirdi. Sünnilərin icma prinsipi şiələrdə imamın nüfuzu ilə əvəz olunur, hədislər içində yalnız Məhəmməd peyğəmbərin özünə aid olanlara baxılırdı. İztirab və günahların təmizlənməsi də şiəliyin əsasında dayanan ünsürlərdəndir. Dini, siyasi-ideoloji təsirlərlə yanaşı tayfaçılıq, hakimiyyətin sülalələrə çevrilməsi əsas qüvvə rolunu oynayır, hökmdar böyük məmnuniyyətlə "öz kölgəsini cəmiyyətin qalan hissəsi üzərindən əksik etmirdi".

Burada İslam dövründə yaşamış bəzi filosof, vəzir, mütəfəkkir yazıçı və şairlərin dövlət, siyasət və idarəetmə haqqında görüşlərini qısaca təhlil etməklə kifayətlənəcəyik.

* * *


*Əbu Nəsr əl-Fərabi*

**Əbu Nəsr əl-Fərabi** (870/72-950/951) İslam fəlsəfəsinin ən böyük peşəkar filosoflarından biri olaraq Müəllimi Sani, yəni ikinci müəllim adına layiq görülmüşdü (birinci müəllim Aristotel idi). Orta əsr latındilli qaynaqlarda Abunaser, bəzən də Alpharabius kimi təqdim olunurdu. Tam adı belədir: Muhəmməd ibn Muhəmməd İbn Tarxan İbn Uzalağ al -Fərabi (bəzən buna ət-Türki də əlavə edirlər). Fərabinin mükəmməl dövlət haqqında görüşləri Platondan qaynaqlanmaqla, ondan fərqli xüsusiyyətlərə malikdir. Bu məsələ Fərabinin "əl-Mədinətü`l-Fazilə" (fəzilətli, yaxşı şəhər) və qismən də "Siyasətü`l- Mədəniyyə" əsərində verilmişdir. Əsl xoşbəxtliyə aparan cəmiyyət ideal sayıla bilər. Həkim bədən üçün nədirsə, filosof da cəmiyyət üçün odur; filosof insanların ruhunu müalicə edir, ədaləti təbliğ edir ki, xoşbəxtlik əldə olunsun. Rəhbər isə cəmiyyətin ürəyidir. Rəhbər filosof və imam olmalıdır. İnsan ictimai varlıqdır, o, digər insanların köməyinə ehtiyac duyur. Cəmiyyət insanın fiziki, intellektual və mədəni ehtiyaclarını ödəyir. Yəni insanla, fərdlə müqayisədə cəmiyyət daha mükəmməldir. Bu mühakimə Fərabini ümumbəşəri yaxşılığın, ədalətin milli sərhədləri aşan təşkilati prinsipinə gətirib çıxarır. İnsanlar bir-birinə kömək edirsə, yaşadıqları şəhər yaxşı olur. Eynilə, şəhərlər bir-birinə kömək edirsə, xalq yaxşı olur və xalqlar bir-birinə kömək edirsə, bəşəriyyət yaxşı olur. Fərabiyə görə ailə, kənd, şəhər məhəlləsi natamam cəmiyyətlərdir, tam cəmiyyət isə kiçikdən böyüyə üç növdür: şəhər (kiçik), xalq (orta) və bəşəriyyət (böyük).

Fərabi Platondan fərqli olaraq insanları kateqorik bölgülərlə ayırmır. Bu məsələdə o, daha humanistdir, insanlar arasında bərabərsizlikləri kəskinləşdirmir, insanların ümumi məqsəd ətrafında birləşməsini əsas sayır. İnsanın hər zaman biliyə can atması vacibdir, bir çox şeylər anadangəlmə deyil, iradə ilə çox şeyə nail olmaq mümkündür. Vəziyyətdən asılı olaraq həm inandırma, həm də cəza vermənin tətbiq oluna biləcəyini deyir. Dövlət nəinki cari maddi rifahda, həm də gələcək tale məsələsində cavabdehdir. Fərabi Platonun ideal dövlətinə Aristotel elementlərini, məsələn özəl mülkiyyəti də daxil edir. Dövlət başçısı, Fərabiyə görə, bir çox xüsusiyyətlərə malik olmalıdır: böyük zəka və xəyal gücü, mükəmməl yaddaş, öyrənmək sevgisi, fiziki cəhətdən qüsursuz, ədalətli, həqiqətpərəst, cəsarətli, maddi və həzz arzularında həddini aşmayan, sərvət sahibi. Fərabinin gəldiyi bir nəticə çox maraqlıdır: Bir adamda bu xüsusiyyətlər tam birləşməsə, heç olmasa, mühüm bir qismi olmalıdır, əks halda dövlət iki və ya daha çox şəxs tərəfindən birlikdə idarə edilməlidir! Yəni, monarxiya ilə yanaşı aristokratik respublika da yaxşı quruluşdur, hətta bir sıra hallarda zəruridir. Fərabi yaxşı sayılmayan dövlətlərin (şəhərlərin) təsnifatını da verir.[1]

10-cu əsrdə yaşayıb fəaliyyət göstərən, adlarını gizli saxlayan və **"İxvan əl-Səfa"** (Saf qardaşlar) adı altında tanınan bir dəstə İslam alim və filosofları İslam dünyasının ən əhatəli və ən maraqlı ensiklopediyalardan biri sayılan 52 cildlik "Rəsail İxvan əl-Səfa"nı yazdılar (rəsail dərgi, əsər deməkdir). Riyaziyyat və təbiət elmlərini, fəlsəfə və ilahiyyat elmlərini əhatə edən bu ensiklopediyada dövlət və cəmiyyət haqqında da yunan və islam qaynaqları əsasında məlumat və şərhlər verilmişdir.[2]

* * *


**Yusuf Xas Hacib Balasaqunlu**

**Yusuf Xas Hacib Balasaqunlu** (1015/19-1077/85 ) "Kutadqu biliq" və ya "Qutadqu biliq" (xoşbəxt edən və ya səadət verən bilik-elm) 1069/70-ci illərdə əruz vəznində türkcə ("xan tilinçə") yazılmış sanballı epik-fəlsəfi poeması ilə tanınır. Əsərdə quta, yəni xoşbəxtliyə, səadətə sahib olma yollarından, ideal dövlətdən bəhs edilir. "Kutadqu biliq" sözünü dövlət quran bilgi, şahanə bilgi, hökmranlıq bilgisi kimi də şərh edirlər. Əsər şərqi Qaraxanlı hökmdarı Tavqaç Uluğ Buğra Qaraxana (1058-1103) ithaf edilmişdir. "Kutadqu biliq" qədim türk ədəbiyyatının son böyük əsəri olmaqla, İslam və İran mədəniyyətinə nisbətən yeni daxil

[1] А.Аль-Фараби. Философские трактаты. См. «Трактат о взглядах жителей добродетельного города». Алма-ата, 1970. 2. Аль-Фараби. Социально-этические трактаты. Алма-ата, 1973

[2] Кирабаев Н.С. Общество и государство в учении чистых братьев. Историко-философский ежегодник. Москва, «Наука», 2009

olan türk düşüncəsinin verdiyi ilk böyük bədii əsərdir. "Türklər belə deyirlər", "Ötükən bəylərinə qulaq asın", "Üç-Ordu hökmdarı dedi" kimi ifadələrlə və bəzi düşüncə qəlibləri ilə türk coğrafiyası, tarixi və ədəbiyyatına bağlı olmaqla, türk siyasi mədəniyyətini təmsil etməklə yanaşı bu əsər İslam və İran mədəniyyəti və həyat tərzini də müəyyən dərəcədə əks etdirir.

Həyatın mənası, ictimai-siyasi əxlaq, idarəetmə, iqtisadiyyat kimi sahələrə aid orijinal fikirləri özündə ehtiva edən bu əsər Ədalət və ya Qanunu, Səadəti, Ağılı və Qənaəti (və ya Axirəti) təmsil edən dörd şəxs - hökmdar Kün-Toğdı, vəzir Ay-toldı, vəzirin oğlu Ödülmüş və vəzirin qohumu guşənişin Odğurmış arasında gedən ictimai-fəlsəfi söhbət və məktublar üzərində qurulmuş siyasətnamə və ya idarəetmə haqqında elm kimi təqdim edilə bilər. Əsərdə sarayda yüksək idarəetmə və xidmət sahəsində çalışanlar, eləcə də səfir, sərkərdə, şair, alim və münəccimlər, tacir, sənətkar, əkinçi, heyvandar və digər sənət sahibləri üçün zəruri hesab olunan keyfiyyətlər, müxtəlif sənət və təbəqəyə məxsus insanlarla davranış qaydaları, tərbiyə üsulları haqqında danışılır.

İnsanın ləyaqəti onun elmində, biliyindədir. Elmi, biliyi insana çatdıran isə dildir. Münaqişələri elmlə, danışıqla, yalnız ən sonda, başqa yol olmayanda silahla həll etmək lazımdır. Səadət çay kimi, nitq kimi axır, Ay kimi çıxır, yox olur, aldadıcıdır, onu anında tutmaq lazımdır. Ağıllı söz böyük qüvvədir, ağılsız söz təhlükəlidir. Başın yerində olması üçün dilini saxla. Az danış, çox qulaq as.

Xalqı güclə yox, qanunla idarə etmək lazımdır. Qanun möhkəm olduqca xalq varlanır, zənginləşir (bu, ana fikir olaraq, dəfələrlə təkrarlanır). Qanun amansızdır və qanun qarşısında hamı bərabərdir - Günəş hamı üçün olan kimi. Ədalətli insan azdır. Qoy bəy (hökmdar) varlı olmasın, amma xalqın qarnını doyursun. Kasıba kömək et ki, ortababa çatsın, ortababa kömək et ki, varlıya çatsın.

Bəy, vəzir və digər idarəedənlər üçün vacib olan ümumi xüsusiyyətlər mövcuddur - ağıl, bilik, müdriklik, səbr, cəsarət, gözüaçıq olmaq, əliaçıq və düzdanışan olmaq, ədalət və s. Böyük vəzifələr alimlərə verilməlidir. Hökmdara yaxşı köməkçilər lazımdır. Vəzir yazı və hesabını bilən, sağlam və sərvət sahibi olmalıdır. Sərkərdə fəndgir, hiyləgər olmasa, qələbə çala bilməz. Vəzir və katib sirr saxlamağı bacarmalıdırlar. Elm adamları ən böyük hörmətə layiqdirlər. Şairlərin sözləri qılınc kimi kəsir, xeyir də, zərər də verə bilər; onların dilinə düşmə, nə istəyirlərsə ver. Evlənəndə arvadı xarici gözəlliyinə görə deyil, daxili gözəlliyinə görə seçmək lazımdır. Qadın qapalı ailə həyatı yaşamalıdır (burada İslam təsiri açıq görünür).

"Kutadqu biliq" ümumilikdə hökmdar və onun ətrafında olanlardan peşəkarlıq və humanist siyasi əxlaq tələb edir. Nizamülmülkün "Siyasətnamə"si kimi əsərlərdə tövsiyə edilən xəbərçi və casus şəbəkəsi qurmaq işinə "Kutadqu biliq"də mənfi münasibət bildirilir. Rahat, sakit, dünya nemətlərindən uzaq həyatla fəal həyat arasında müqayisə aparılır, fəal həyatın, hökmdarlara qulluğun faniliyindən bəhs edilir. Bir səhvə görə başına əlvida de. İnsanlara deyil, Allaha xidmət etmə lazımmış. Ölümü unutma, ona hazırlaş.[3]

* * *

**Əbu Həmid əl-Qəzali** və ya İmam Qəzali (1058-1111), latınca Algazel kimi tanınan mütəfəkkir İslam düşüncəsi və mədəniyyəti tarixində fəlsəfə ilə təsəvvüfü (sufizmi) bir-birinə yaxınlaşdırmağa cəhd edən, yunan fəlsəfəsi üzərində qurulan fəlsəfəyə qarşı şübhəçiliyi və tənqidi ilə fəlsəfə və din tarixində çox böyük yer tutur. "Duyğularımın məni aldatdığını ağlım hökm etdi. Ağlın da məni aldatmadığına necə əmin ola bilərəm?" Dini elmlərlə əqli elmlərin hər ikisini vacib hesab edir, biri olmadan digərinin yarımçıq olduğunu bildirir. Ağıl gözə, din də işığa bənzəyir. İşıq olmasa göz görməz. Göz olmasa sırf işıqla görmək mümkün deyil.[4] Əl-Qəzali 1109/10-cu illərə yaxın yazdığı "Nəsihət əl-muluk" (Hökmdarlara nəsihət) əsərində hökmdarın Allah tərəfindən seçildiyini, amma ədalətə bağlı olduğunu bəyan edir. Hökmdarın Allah və xalq qarşısında vəzifələri var, o, dini qorumalı, bidətliklə mübarizə aparmalı, zəka sahibi olmaqla mənəvi keyfiyyətləri ilə seçilməli, qəddar hisslər, ehtiras və qəzəbdən çəkinməlidir. Sərvət ordunu, ordu dövləti, dövlət dini güclü edir. Sərvət xalqın artması və ölkənin çiçəklənməsi vasitəsilə yaradılır, bütün bunlar isə ədalətli idarəetmə yolu ilə əldə edilir.[5]



**Əbu Həmid əl-Qəzali**

Dövlətin vacibliyini Platon və Fərabiyə uyğun izah edərkən Qəzali insanın öz axirət həyatı istiqamətində düşünüb çalışması üçün sağlam bir dünyəvi

[3] 1. Reşid Rahmeti Arat. Kutadgu bilig. I. Metin. Istanbul, 1947. 2. Reşid Rahmeti Arat. Kutadgu bilig. II. Tercüme. Ankara, 1959. 3. Юсуф Баласагунский. Благодатное знание. Перевод Сергея Иванова. "Наука". Москва. 1983

[4] Necip Taylan. Anahatlarıyla İslam Felsefesi."Ensar", İstanbul, 2010; s.270-271

[5] A.K. Lambton. İslamic Political Thought; pp. 418-419. See "The Legacy of İslam". Edited by Joseph Schacht üith C. E. Bosworth. Oxford University Press, 1979

təşkilatın olmasını zəruri hesab edir. Onun dövlət başçısına olan tələbləri Fərabininkinə yaxındır.[5]

* * *



*Nizamülmülk*

Səlcuq sultanı Alp Arslanın, sonra onun oğlu Sultan Məlikşahın vəziri olan **Nizamülmülk** (1017/18-1092) yaxşı idarəetmə barədə yazdığı "Siyasətnamə" əsərində dövlətin möhkəmliyini aparıcı xətt kimi götürür və bunun əsasında ətrafdakılardan şübhəçilik mexanizmini yerləşdirir.[6] Daha əvvəllərin (1082/83) məhsulu olan "Qabusnamə" də əsasən bu prinsip üzərində qurulub.

"Siyasətnamə"də hər fikir, hər nəsihət qısa tezis şəklində ifadə edilir və əksər hallarda bir və ya bir neçə ibrətamiz tarixi hekayə, əhvalat söyləməklə işıqlandırılır. Bu əhvalatlar əsasən İran tarixinə, İslam və İslamöncəsi dövr tarixinə, Sultan Mahmud Qəznəvi və digər türk sultanlarının həyatına aiddir.

Nizamülmülkə görə şah ədalətli, səbrli və səxavətli olmalı, vəzifələrə qabiliyyətli adamları təyin etməli, yaxşılıq etməyi bacarmalı, mükafat da, cəza da verməli, zülmün qarşısını almalı, daim (həftədə ən azı iki dəfə) şikayətə baxmalıdır. Sosial nizam mühümdür, hər kəsin öz yerini bilməsi vacibdir. Şah vəzirlərin işinə nəzarət etməli, dini öyrənib bilməli, din alimlərinə, zahidlərə hörmət etməlidir. Şah ağlının gücü ordudan güclüdür. Şah arvadına tabe olmamalıdır, "çünki bunların ağlı kamil olmaz". Arvadlar xaricdə cərəyan edən hadisələri öz gözləri ilə görə bilməz, başqalarından eşidərlər. Şah ən çox öz nədimi, yəni yaxın dostu, məşvərətçisi ilə oturub durmalı, nədim ağıllı, əxlaqlı, söhbətcil, təcrübəli, hərtərəfli adam olmalı, şahdan çəkinməməlidir. Nədimə heç bir vəzifə verməl olmaz, əks halda o, şahla yaxınlığından sui-istifadə edə bilər. Şah öz işləri barədə alim və hikmət sahibləri ilə məsləhətləşməlidir. Xəzinə, gəlir və çıxarları düzgün tərtib etmək çox vacibdir; şah hesabda əndazəni bilməlidir. Təhlükəsizlik tədbirləri mühümdür. Elçilərlə hərhansı vəziyyətdə hörmətlə rəftar edilməlidir.

Yerli başçılar xalqla yumşaq və ədalətlə rəftar etsin. Onları hər 2-3 ildən bir dəyişmək lazımdır ki, özlərindən müştəbeh olmasınlar. Vergi qanunun dediyi hədd aşılmadan, xoş dillə alınsın. Dünyanın indiyə qədər qalması ədliyyənin olmasına görədir. Qazilərə yüksək maaş vermək və nəfsini saxlamayanları işdən çıxarmaq lazımdır. Şah hər şey edə bilər-döydürmək, baş vurdurmaq, əl-qol kəsdirmək, axta etdirmək kimi. Amma digər insanlar şahın fərmanı olmadan bunu edə bilməzlər.

Yerlərdə vəziyyəti izləyən və şaha xəbər verən "əli, dili və qələmi" təmiz adamlar olmalıdır ki, zülm və qanunsuzluğun qabağı vaxtında alınsın. Bu xəfiyyələri şah özü təyin etməli, onlara yaxşı baxmalıdır. Hər tərəfə, ölkə daxilinə və xaricə müxtəlif libaslarda casus göndərmək lazımdır ki, şah və dövlət əleyhinə cəhdlərin qarşısı vaxtında alınsın.

* * *

Əndəlis (İspaniya müsəlman dövləti) mütəfəkkiri, tarixçi və ilahiyyatçı **əl-Turtuşi** (?1049-1126) hökmdarın xalqla münasibətini ruhun bədənə münasibəti ilə müqayisə edirdi. Hökmdarın idarəetmə hüququ ilahi səciyyə daşıyır, Allahın təmsilçisi kimi hökmdar rəiyyəti ədalətlə idarə etməli, xeyirxah olmalıdır. Ədalətsiz hökmdar Allahın hansı günaha görə isə xalqa verdiyi cəzadır, xalq özünə layiq hökmdar alıb.[7]



*İbn Bəcca*

Əl-Fərabi və İbn Sina (latınca: Avicenna) ideal dövlət başçısının özündə iki xüsusiyyəti birləşdirməsini zəruri sayırdılar: filosofluq (Platonun fikri!) və peyğəmbərlik, yəni dini qüdrət. Məğrib İslam Fəlsəfəsi burada fərqli fikirdə idi. Latıncada Avempace kimi tanınmış **İbn Bəcca** (? - 1138/39) ideal cəmiyyətdə həkimə və hakimə ehtiyac olmamalıdır deyir; qidalanmada ən uyğun olanı seçən və bir-birinə sevgi, dostluq əlaqələri ilə bağlı olan icmada dərman işlədilməz və ixtilaf çıxmaz. Avropada uyğun olaraq Abubacer və Averroes kimi tanınan **İbn Tüfeyl** (?1105/1110-1185) və **İbn Rüşd** (1126-1198) dövlət rəhbəri üçün filosofluğu vacib sayır, pey-



*İbn Tüfeyl*

[5] 1. Haroon Khan Shervani. Studies in Muslim Political Thought and Administration. Publisher: Munhshiram Manoharlal, 1981. 2. Ervin Rosental. Political Thought in Medieval İslam: An İntroductory Outline. Cambridge University Press, 2009)

[6] Nizamülmülk. Siyasətnamə. "Elm". Bakı, 1987)

[7] A.K. Lambton. İslamic Political Thought; pp. 418. See "The Legacy of İslam". Edited by Joseph Schacht üith C. E. Bosworth. Oxford University Press, 1979)



*İbn Rüşd*

ğəmbərliyi, yəni dini rəhbərliyi zəruri hesab etmirdilər (İbn Xəldunun da açıq belə düşündüyü məlumdur). İbn Tüfeylə görə mükəmməllik, deməli xoşbəxtlik ancaq az sayda seçilmiş adamlara nəsib olur. O, filosofluğun peyğəmbərlik qədər vacib olduğuna inanır. Peyğəmbərlik vəhy, xəyal gücü ilə baş verir. Din fəlsəfi idraka çatmayanların birgə yaşayışı və mənəviyyatı üçün faydalıdır.

İbn Rüşd öz siyasi fəlsəfəsində daha çox Platonun davamçısıdır. İnsan öz mövcudiyyətini və inkişafını cəmiyyətdə tapa bilər. Cəmiyyətin rifahından, xoşbəxtliyindən hər fərdə pay düşməlidir. Buna görə cəmiyyətin marağı fərdin marağından daha üstündür və "ümumi səadət"ə yalnız bu ümumi marağı təmin etməklə çatmaq olar.

İbn Rüşd din və fəlsəfə arasında ziddiyyətin olmadığını, onların həqiqətə iki fərqli yanaşma olduğunu deyir (Kindi, Fərabi, İbn Sina kimi), həmçinin qadınla kişinin bərabər hüquqlu olduğunu irəli sürür. O, filosofu peyğəmbərin davamçısı hesab edir. Peyğəmbər həm də filosofdur, tərsi doğru deyil. Peyğəmbər dediklərini həyata keçirir, filosof bunu çox zaman edə bilmir. Onun İbn Sinadan qaynaqlanan bəzi fikirlərini fəlsəfənin din, ağlın vəhy üzərində üstünlüyü kimi şərh etmək mümkündür. İbn Rüşd Quranı hərfi mənada anlamağın əleyhinə idi; əgər həqiqəti əks edən fikir Quranın hərfi mənası ilə düz gəlmirsə, yəni zahiri ziddiyyət varsa, onda Quranı alleqorik mənada şərh etmək lazımdır.

* * *

**Nəsirəddin Tusi** (1201-1274) "Əxlaq-i- Nasiri" əsəri ilə yunan və İslam mütəfəkkirlərinin (o cümlədən Əbu Əli Miskəveyhin, əl Fərabinin və İbn Sinanın) əxlaq, təsərrüfat və idarəetmə nəzəriyyələrini şərh etməyə və daha da irəli aparmağa çalışmışdı.[8] Misqəveyh (932/40-1030) çağdaş dövrdə daha çox "Təzhib əl-əxlaq" əsəri və rusların 943-44-cü illərdə Bərdəyə basqını haqqında məlumat verməsi ilə tanınır.



*Nəsirəddin Tusi*

Əməli hikməti və ya praktik fəlsəfəni N. Tusi üç hissəyə ayırır: 1. əxlaqın saflaşdırılması, yəni fərdin hikməti. 2. Evqurma, yəni ən kiçik icma olan ailə və onun idarə edilməsi. 3. Ölkə və ya şəhərləri idarəetmə.

İnsan kamilliyə ağıl və iradə vasitəsilə çata bilər. Bu yolda peyğəmbər, filosof, imam, rəhbər, tərbiyəçi və müəllimlərin köməyinə ehtiyac duyulur. Kamillik isə iki hissədən ibarətdir: həqiqətin mahiyyətinə nüfuz etmək, onu dərk etmək, ona qovuşmağa aparan elmi kamillik və xoşbəxtliyə çatmaq üçün imkan verən və fəaliyyəti nizama, ahəngə sala bilən əməli kamillik. Kamilləşmənin məqsədi insanın xeyir və səadətidir. Əxlaqı saflaşdırma yolunda danlamaq və cəza vermək də olar, lakin həvəsləndirmə və ürək-dirək vermək daha doğrudur. Ər lap birinci gündən arvadın gözünün odunu almalı, advadın başı ev işlərinə qarışmalıdır. Ər mühüm sirrini arvada verməməli, lakin, eyni zamanda arvadı gözəl saxlamalıdır. Fəzilətlərin ən şərəflisi ədalətdir, onu "vicdan səsi" adlandırmaq olar. Əsərdə müəllif bir sıra psixoloji və etik məsələlər haqqında da söhbət açır.

Dövlət və onun idarə olunması məsələsinin şərhində əl-Fərabinin fikirləri əsas tutulur. İnsanların bir-birinə ehtiyacı var. İctimai əmək bölgüsü, ixtisaslaşma bu köməyi zəruri edir və həmçinin gücləndirir. Əməklə haqq arasında ədalət bərpa edilməyincə şahla rəiyyət, qulluqçu ilə ağa arasında məhəbbəti nizama salmaq olmaz. Ölkə sahibi olmaq istəyənin aşağıdakı xüsusiyyətləri olmalıdır: 1) atalıq, hamıya mehribanlıq göstərmək, 2) alicənablıq, 3) mətinlik, 4) tam əzm, kişilik və ya şahlıq əzmi, 5) səbrli olmaq, 6) sərvəti olmaq, 7) sadiq və əməlisaleh köməkçiləri olmaq. Burada N. Tusi bu postulatların vacibliyi və orijinallığına toxunur (riyaziyyatçı fəhmi ilə): "atalıq" böyük təsirə malik olsa da, zəruri deyil. Sonuncu iki xüsusiyyət isə əvvəlki dörd xüsusiyyət vasitəsilə əldə edilə bilər.[9]

Dövlətin bünövrəsinin ittifaq olması məsələsində N. Tusi sanki İbn Xəldunun məşhur "asabiyyə"sinin vacibliyi fikrinə yaxınlaşır. Hökmdarlar mal toplamağa aludə olsalar, onların əvvəlki təbiətləri dəyişər, zəhmətsevərlik əldən gedər və dövlət inkişafdan qalıb dağıla bilər. "Dövlət yalnız ədalət əsasında uzun müddət yaşaya bilər". Ədalət xalqın dörd müxtəlif təbəqəsi – 1) qələm əhli, 2) qılınc əhli, 3) tacir, vergiyığan və sənətkarlar, 4) ziraət əhli, əkinçi və hey-

[8]Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. "Elm", Bakı, 1989
[9]yenə orada: səh. 209-210
[10]yenə orada: səh. 212-218

vandarlar arasında uyğunluq yaratmaqla əldə edilə bilər. Ümumi gəlirdən hər adama öz payı verilməlidir, nə az, nə də çox. Az olsa həmin adama, çox olsa qalan şəhər əhlinə (az qaldığı üçün) zülm olar. "Təltif və mükafatlar şah zəhmi ilə yanaşı olmalıdır". Hiylə işlətmək, düşmən arasına təfriqə salmaq kimi tədbir görmək lazımdır, savaş son tədbirdir.[10]

Rəiyyət öz yerini bilməli, rəisin marağını birinci təmin etməlidir. "Kim rəislərdən mənfəət götürmək istəsə-rəzil, kim onların xeyrinə əlləşsə-əziz hesab edilər". Bərabər olanlar arasında davranış qaydaları isə üç cürdür: dostlarla, düşmənlərlə (açıq-nifrət edənlər, gizli-həsəd aparanlar) və nə dost, nə də düşmən olanlarla davranış. Açıq-nifrət edən və ya gizli-həsəd aparan düşməni müxtəlif vasitələrlə yola gətirmək, ələ almağa çalışmaq ən doğru yoldur.[11]

* * *

Zəmanəsinin ən hərtərəfli və savadlı şəxslərindən biri (bəzilərinə görə birincisi) hesab olunan **İbn Teymiyyə** (1263-1328) insanların bir-biri ilə ortaq iş görmək və təhlükələri dəf etmək üçün dövlətə ehtiyac duyduqlarını, başçıya itaət etməklə yanaşı başçının nəsihətə qulaq asmasını da zəruri sayırdı. Dövlət faydalı olanı dəstəkləməli, ziyanlı olanı qadağan etməlidir. Dövlət dinin və əxlaqın qorunması məsələlərinə mütləq və fəal surətdə müdaxilə etməlidir. Bazar iqtisadiyyatının, bazarın tənzimlənməsi və özbaşına buraxılmasının müsbət və mənfi cəhətlərini təhlil edən İbn Teymiyyə, ümumiyyətlə, insanlara iqtisadi azadlıq verməyin tərəfdarı idi. Lakin iqtisadi-ticari fəaliyyətin cəmiyyətə fayda verməsini bir şərt kimi qoyur, o cümlədən dini təəssübkeşliyin bazarın sərbəstliyinə müdaxilə etmək hüququnu müdafiə edirdi. İbn Teymiyyə şəriəti donuq, dəyişməz bir məna kimi qəbul etmir, onu çevik, zamana uyğun, cəmiyyətə xeyir vermək baxımından şərh etməyi, şəriəti dövrə uyğunlaşdırmağı tələb edirdi. O, həmçinin sufilərin Allaha qovuşmaq ideyasını tənqid edir. Allahın mahiyyəti dərkedilməz olduğu üçün insanın kamilliyə çatmaq yolunu sadəcə Allaha ürəkdən xidmətdə görürdü.[12]



*İbn Teymiyyə*

* * *

Dövlət və idarəetmə, hökmdar və rəiyyət münasibətləri, tərbiyə və sosial-siyasi məsələlər İslamaqədərki şərq və orta əsrlər İslam dünyasının zəngin bədii ədəbiyyatında da (ərəb, fars və türk dillərində) geniş əks olunmuşdur. Bunların bir qismi bədii (əsasən poetik) əsər müəlliflərinin fəlsəfi və etik görüşləri, digər qismi isə xüsusi didaktik əsərlər şəklindədir. **İbn əl-Müqəffanın** (721/24-757/60) orta fars və ya pəhləvi dilindən ərəbcəyə tərcümə etdiyi (təqribən 750-ci ildə) və "Kəlilə və Dimnə" adı verdiyi allegorik əsər İslam dünyasında dövləti idarə etmək haqqında hökmdarlara ünvanlanan zəngin tövsiyə və ya nəsihət ədəbiyyatı sırasında zaman etibarilə birincidir. Hindistanda "Pançatantra" adını daşıyan və heyvanların dilindən danışılan ibrətamiz rəvayətlər küllisindən ibarət olan bu əsər öncə (təqribən 570-ci ildə) sanskrit dilindən pəhləvi dilinə tərcümə olunmuşdu. Qədim Yunanıstanda Sokratın müasiri, tarixçi və hərbçi Ksenofonun ([-430/-425] – [-355/-354]) "Cyropaedia" (Kirin tərbiyəsi) və Makiavellinin (1469-1527) məşhur "Hökmdar" (və ya "Şahzadə", italyanca: "Il Principe") əsərləri hökmdara tövsiyə ədəbiyyatının ən tanınmış nümunələridir; bu janra ingiliscə "Mirror for Princes" deyilir. "Qabusnamə", yuxarıda toxunduğumuz Yusuf Balasaqunlunun "Kutadqu Biliq" poeması, Nizami Gəncəvi və Sədinin yaradıcılığı bu cəhətdən xüsusi diqqətə layiqdir. İslam dünyasında xəlifə və xüsusilə sultan, şah, hökmdar sarayında şairlər sanki ictimaiyyətlə əlaqələr və təbliğat şöbəsinin işini (indiki zamanın qəzet, radio və televiziya işini) görürdülər. Sarayda olanlar sanki tam ştatda, saraydan kənarda yaşayanlar isə xüsisi hesabda (müqavilə əsaslı) idilər.




Şair, filosof və vəzirlər hökmdarlardan ədalət və qanun tələb edirdilər. Əvvəlcədən böyük səlahiyyətlərə malik olan, "Allahın yerdə nümayəndəsi" hesab edilən hökmdarlar isə birinci növbədə hakimi-mütləq rolunu mənimsəyirdilər. Hökmdarlar və ülamənin ittifaqı bu mütləqliyi gücləndirir, siyasi hakimiyyətin dünyəviləşməsinə yol vermirdi. 19-cu yüzilliyə qədər mütləq monarxiyanın daha yumşaq monarxiya ilə əvəz olunması və "hökmdar deyil, dövlət əsasdır" kimi fikirlər İslam dünyasında kök sala bilmədi. Fərabinin ideal dövləti və digər mütəfəkkirlərin bənzər fikirləri nəzəri fikir olaraq qaldı. Ümumiyyətlə, getgedə mücərrəd düşüncənin meydanı daralır, sufilər, şairlər və nağılçılar meydanı tam ələ alırdılar.

---

[11] yenə orada: səh. 221, 234-239

[12] 1. Henri Laoust. Essai sur les doctrines sociales et politiques de Tuki-d-Din Ahmad b. Taimia. Le Caire, 1939. 2. A Companion to the History of Economic Thought. Wiley-Blackwell, 2006; pp. 35-38. 3. Muhammed Ebu Zehra. İslamda İtikadi, Siyasi ve Fikhi Mezhepler Tarihi. Şura Yayınları, 1993; s. 575-619. 4. Takiyyuddin Ahmed İbn Teymiye. Siyaset. Dergah Yayınları, 1985

# RUS XASİYYƏTİ

Çox çətin və məsuliyyətli bir işə girişmək fikrim var. Böyük bir xalqın, millətin xasiyyəti haqqında söz demək istəyirəm. Rus xasiyyəti haqqında. Mənim ruslar haqqında söz deməyə mənəvi haqqım çatır. Çünki mən rusları uzun illər çox yaxından tanımışam, onlara hərtərəfli bələd olmuşam.

Təhsilimlə, işimlə, rəsmi, qeyri-rəsmi səfərlərimlə, səyahətlərimlə, istirahətimlə bağlı Rusiyanın Moskva, Leninqrad (Sankt-Peterburq), Qorki (Nijniy Novqorod), Sverdlovsk (Ekaterinburq), Novosibirsk, Kuybışev (Samara), Rostov-Don və s. kimi elm, təhsil, sənaye mərkəzlərində, Vladimir, Kostroma, İvanovo, Yaroslavl. Rostov-Velikiy, Suzdal, Novqorod-Velikiy, Pskov kimi şəhər-muzeylərdə, Murom, Yuqo-Kamsk, Boroviçi kimi əyalət şəhərlərində, böyük və abad kəndlərdə, stanitsalarda, gözdən-könüldən, sivilizasiyalardan uzaq, yolsuz-rizsiz yaşayış məntəqələrində, xutorlarda olmuşam, yaşamışam. Tanınmış siyasi, ictimai xadimlərlə, dünya şöhrətli alim, yazıçı, şair, bəstəkar, musiqiçi və artistlərlə tanışlığım, dostluğum olub, xalq şənliklərində, toylarda, ad günlərində, yaslarında iştirak etmişəm. Yüksək intellektuallı, mənəviyyatlı, aristokrat ailələr görmüşəm. Tüfeyli, meşşan, spirtli içki düşgünü olan ailələrin də şahidi olmuşam. Bir sözlə, bütün bunlar rusları hərtərəfli tanımağa imkan verib.

Şübhəsiz, Amerikada, Avropada, Avstraliyada yaşayan ruslarla Rusiyada yaşayan ruslar arasında böyük fərq var. Hətta Rusiyanın müxtəlif regionlarında (Rusiyanın Avropa hissəsi, Volqaboyu, Ural, Sibir, Uzaq şərq) yaşayan ruslar da xasiyyətcə bir-birindən fərqlənirlər. Lakin ruslar üçün səciyyəvi olan xüsusiyyətlər var ki, məhz onlardan söhbət gedəcək.

Ruslar haqqında fikrimin formalaşmasında şübhəsiz, rus klassikləri L.Tolstoyun, F. Dostoyevskinin, A. Çexovun, İ. Turgenevin, A. Ostrovskinin və rus dili müəllimlərimin təsiri olub. Lakin yalnız gördüklərim, eşitdiklərim, apardığım araşdırmalar aldığım nəticənin, gəldiyim qənaətin əsasını təşkil edir. Bunun üçün gözlərimə çəhrayı eynək taxmaq da istəməmişəm. Hər şeyi haqqa, ədalətə, vicdana tabe etmişəm. Aldığım nəticə mənim şəxsi fikrimdir, şəxsi qənaətimdir.

Hamının qəbul etdiyi bir fikir var: bütün millətlərin pisi də, yaxşısı da var. O da var ki, həqiqət müqayisədə ortalığa çıxır. Fərz edək ki, yüz milyonluq xalqın yüz mini oğru, qatil, terrorçu, xuliqan və s. cinayətkar elementlərdir (min nəfərdən biri). İki milyonluq xalqın da bir o qədər cinayətkarı varsa, bu, onu göstərir ki, kiçik xalqın "cinayətkarlıq" göstəricisi (əgər belə demək olarsa), böyük xalqdan əlli dəfə artıqdır.

İkinci mühüm məsələ pis əməllərin hansı zəmində aparılmasıdır. Ən qorxulu hal milli zəmin halıdır. Kimisə soyğunçuluq üçün deyil, hansı millətəsə aid olmasına görə qətlə yetirirlər. Bu, qatilin milli mənsubiyyətinin fəsadıdır.

Doğulduğum Ağcabədiyə rusların gəlişi, mən bilən, mən gördüyüm üç dövrü əhatə edir: birinci, Böyük Vətən müharibəsindən əvvəl (keçən əsrin 30-cu illəri), ikinci, müharibə illəri və üçüncü, keçən əsrin 50-ci illərinin əvvəli.

Birinci dövrdə gələn ruslar yerli mühitə, şəraitə nisbətən asan qaynayıb-qarışmışdılar. Rus qadınları azərbaycanlılarla ailə qurub, ömürlük məskunlaşmışdılar. Əksəriyyəti Azərbaycan dilində danışırdı. Qonşumuz Marusya xala and içəndə yerli ləhcə ilə: "az, dədəmin goru haqqı xəvərim yoxdur", ya da dələduz oğlu haqqında: "az, o ciyəri yanmış bizim gədənin işi olajaq" – deyərdi. Amma elələri də var idi ki, dilləri Azərbaycan dilinə yatmırdı. Qonşumuz Nadya xala qırx il bir yastığa baş qoyduğu əri Həmidə "Qamid" deyərdi.

Əllinci illərdə gələn ruslar üçün (onlar, əsasən, rus dili müəllimləri, maliyyə işçiləri idilər) fin evlərindən ibarət qəsəbə salmışdılar. Nədənsə, onlar yerli mühitə alışa bilmirdilər, ona görə də əksəriyyəti Ağcabədini tərk etməli olmuşdu.

Uşaqlıq xatirələrimdə o dövrün rusları şən, qayğısız, dərd-sər çəkməyən "kefqom" insanlar kimi yadımda qalıb. Onlar dəstə ilə hər gün kinoya gedərdilər, gecəyarısı evlərinə qayıdanda oxuduqları çastuşkaları, hay-küyləri, qayğısız zarafatları, gülüşləri uşaqlıq hafizəmdə özünə yer tapmışdı. Onların nikbinliyi həsəd aparılacaq dərəcədə güclü idi.

Məktəb illərində ruslar haqqında məndə ilk təəssüratı rus dili müəllimim Nikolay İvanoviç Çaplıgin və qonşu uşağı Vova (sonradan öyrənmişdim ki, adı Vladimir imiş) yaradıblar.

N.İ. Çaplıgin bizə təkcə rus dilini, ədəbiyyatı öyrətmirdi. O bizə maraqlı hadisələr haqqında danışır, müxtəlif mövzularda söhbətlər aparırdı. İstedadlı pedaqoq idi – bizə rus dilini sevdirə bilmişdi. Öz valideynlərinə ruslara xas olmayan möhkəm bir bağlılığı vardı. Deyirdi ki, kontrakt vaxtım (o, gənc mütəxəssis kimi bir müddətə işə göndərilmişdi) qurtaran kimi, valideynlərimin yanına qayıdacam, onları tək qoya bilmərəm. Onda qocalara, xəstələrə bir mərhəmət, uşaqlara sevgi hissi vardı. Yaxşı yadımdadır, bir gün o, dərsə başlamazdan əvvəl, İ.V. Stalin yoldaşın xəstələnməsi barədə bizə məlumat verdi və hər gün rəhbərin səhhəti ilə bağlı rəsmi xəbəri bizə çatdırırdı. Növbəti dərs vaxtı biz onu gözüyaşlı gördük. O, rəhbərin vəfat etdiyini bildirdi və hönkürtü ilə ağlamağa başladı. Biz də ağladıq.

Rus dili müəllimimiz yüksək mənəviyyat sahibi, çox oxumuş, məlumatlı, xeyirxah, əsl rus ziyalısı idi. Onun spirtli içki içdiyini görən olmamışdı.

İndiki gözləri qaynaşan, dələduz, avara, siqaret çəkən, pivə butulkasından ayrılmayan rus yeniyetmələrini görəndə, tərbiyəli, çalışqan, təmiz qəlbli, saf niyyətli, əxlaqlı Vova yadıma düşür.

Ağcabədidə yaşayan ruslar özləri çörək bişirmirdilər. Çörəkbişirmə sexində (pekarnya) bişirilən qara çörək alırdılar. O dövrün çörəyi indikindən fərqlənirdi. O, çox qara və nəm olurdu. Kərpic formasında olan çörəyin (buxanka) görünüşü yaxşı olmasa da, dadı yaxşı idi. Vova qap-qara çörəyi nazik doğrayıb üstünə ərinmiş yağ yaxırdı və ləzzətlə yeyirdi. O, bir dəfə məni də qonaq elədi – ləzzətli idi. Mən də Vovanı sap-sarı buğda unundan bişirilmiş təndir çörəyinə qonaq etdim. O, təndir çörəyini yavanlıq kimi qara çörəklə yedi.

Hər bir xalq müəyyən xüsusiyyətlərinə görə öz xasiyyətini büruzə verir. Bu xüsusiyyətləri araşdırmaqla həmin xalqın xasiyyətini araşdırmış oluruq.

### *BÖYÜK QARDAŞ MİSSİYASI*

Rusiya çoxmillətli ölkədir. Burada sayı milyonlarla hesablanan xalqlarla yanaşı, sayı cəmi bir neçə min olan xalqlar da yaşayır. Ruslar bu ölkədə tam əksəriyyət təşkil edirlər. Bəlkə də, bu mütləq çoxluq ruslarda əsrlər boyu burada yaşayan xalqlara qarşı "böyük qardaş" sindromu yaradıb. Onlar böyük ailədə böyük qardaşın ailə üzvləri üzərində qayğılarını çəkmək, köməklik göstərmək, sevincinə, dərdinə şərik çıxmaq kimi missiyalarını yerinə yetirməyə çalışırlar. Yenə də böyük qardaş kimi, bir əlində duz-çörək, o biri əlində şallaq (yeri gələndə cəzalandırmaq üçün). Ədalət naminə deməliyəm ki, ruslar şallağı əllərindən yerə qoymasalar da, ondan hələlik istifadə etməyiblər.

Əsrlər boyu "böyük qardaş" missiyası hakimiyyət dairələri üçün bir dövlət siyasəti səviyyəsinə qaldırılıb və bundan istifadə edilib. Bu, özünü Sovetlər dövründə daha əyani göstərib. Haqq üçün deyək ki, bu dövrdə ruslar Sovet İttifaqında yaşayan başqa millətlərə təhsil, elm, səhiyyə və s. sahələrdə hərtərəfli köməklik göstərmişlər. Yeni universitetlər, institutlar, səhiyyə müəssisələri, zavodlar, fabriklər açır, rəhbərlik edir, yerli, milli kadrlar hazırlayırdılar. Yerli kadrlar yaranandan sonra ruslar o müəssisələri tərk edirdilər. Bu, onların təmənnasızköməyinin sübutu idi.

"Böyük qardaş" missiyası ruslar üçün böyük maddi ziyan gətirsə də, onlar bu ideyadan əl çəkmirlər. Bu missiya siyasətlə bağlıdır. İndinin özündə də ruslar belorusları, ukraynalıları, ermənilәri öz təsiri altında saxlamaqdan ötrü külli miqdarda ziyanla razılaşırlar. Lakin buna baxmayaraq, həmin xalqlar ruslara qarşı səmimi deyillər, "Böyük qardaşa" qarşı yeri gələndə, nankorluq edirlər.

### *ŞOVİNİZM*

Şovinizm – milliyyətçiliyin, bir xalqın başqa xalqlardan üstün olması, onları əsarət altına almağın, milli qarşıdurmalara çalışmağın ən mürtəce formasıdır.

Rus şovinizmi, mənə elə gəlir ki, ruslara əsassız vurulmuş damğadır. Əslində, şovinizmə xas olan əlamətlər ruslarda başqa millətlərlə müqayisədə, demək olar ki, yox dərəcəsindədir. Ruslar heç vaxt özlərini başqa xalqlardan üstün hesab etməmişlər. Onların başqa xalqlara, millətlərə kini-küdurəti, nifrəti, qısqanclığı yoxdur.

Rusiyada təhsil alan hər bir azərbaycanlı, rusların onlara səmimi münasibətini, hər cür köməkliyini, qayğıkeşliyini hiss ediblər, ayrı-seçkilik görməyiblər.

Rusiyada yaşayan xalqların ruslar tərəfindən əsarət altına alınmasından danışmaq yersizdir. Ruslar hər bir millətin adət-ənənələrinə, dilinə, mədəniyyətinə hörmət edən olduqca xeyirxah, sadə insanlardır. Bu xalq başqa millətlərlə yola gedən, milli qarşıdurmadan uzaq, səbrli, təmkinli, dözümlü bir xalqdır.

Çoxları məni qınaya bilər ki, bəs Rusiyada baş verən qanlı olayları, milli qarşıdurmaları, terrorizmi, qatı milliyyətçiliyin təbliğini kimin ayağına yazaq?

Rusiyada baş verən cinayətkarlığın sadə rus xalqı ilə bağlılığı yoxdur. Bu, hakimiyyət dairələrinin, siyasətçilərin, xüsusilə, başqa millətlərdən olan yüksək imkan sahiblərinin əməlləridir. Qatı rus millətçilərinin damarlarında rus qanı axmır. Jirinovski də özünü rus adlandırır. Əslində onun damarlarında bir qram da rus qanı yoxdur. Əsl rus mərhəmətlidir, insanlara nifrəti yoxdur.

Əlbəttə, ruslardan da dəhşətli cinayətkarlıq gözləyə bilərik və bu, hər gün baş verir. Amma bu, ayrı-ayrı cinayətkarların əməlləridir. Cinayətkarlar hər millətdə var. Lakin bu cinayətlərin səbəbi nədir, niyə baş verir, bax, bu, əsas məsələdir.

Ermənilər əsrlər boyu türkün qanına hərislik göstərib. Ayrı-ayrı cinayətkarlar yox, məhz erməni xalqı. Yeni doğulmuş erməni körpəsinə də başa salırlar ki, türk sənin düşmənindir. Bu, bütöv bir xalqın başqa bir xalqa sönməz nifrətidir, qisasçılığıdır. Bax, budur şovinizm.

Polyakların ruslara qarşı əsrlər boyu azalmayan nifrəti, almanların yəhudilərə qarşı düşmənçiliyi, özlərini bütün millətlərdən üstün tutması – budur şovinizm.

Rusiya kütləvi təbliğat vasitələri Azərbaycan əleyhinə məqalələr, verilişlər təşkil edir, məlumatlar yayırlar. Ancaq araşdırma aparanda, burada erməni əli olduğu aşkarlanır. Ermənilərin Rusiyada böyük dayağı, imkanı var. Lazım olduqda onlar bu imkanlardan gen-bol istifadə edə bilirlər. Onların yaratdığı fəsadlar rusların adına çıxılır.

Rusiyanın elə bölgələri var ki, əhalinin 90-95%-ni ruslar təşkil edir. Lakin ən mühüm vəzifələri başqa millətlərin nümayəndələri tuturlar. Yəni, hakimiyyət sahibi başqa millətlərin nümayəndələridir. Millət sözü işlədilən heç bir ölkədə belə fakta rast gəlmək mümkün deyil. Budurmu "rus şovinizmi"? Təəssüf

ki, bəzi hakimiyyət sahibi olan millətlərin nümayəndələri rusların bu alicənablığına nankorcasına yanaşır, rus millətinin imicinə böyük ləkə salır.

Sözün əsl mənasında, yoxdur "rus şovinizmi". Cinayətkarlar və cinayətə təhrik edilən rus cinayətkarları var.

### *ALKOQOLİZM*

Hesablamalar göstərir ki, əhalinin bir ildə hər nəfərinə düşən içilən spirtin miqdarı 14 litri aşanda, millət fəlakətə uğrayır. Rusiyada bu həddi keçiblər. Spirtli içki milli bəlaya çevrilib. Və vəziyyət getdikcə acınacaqlı hal alır. Rus və araq sözləri sinonim kimi işlənir.

Maraqlı burasıdır ki, elə Avropa ölkəsi (Fransa, Almaniya) var ki, adambaşına düşən illik içilən spirt 18 litri keçir. Lakin bu xalqlara "alkaş" xalq demirlər, millətin deqradasiyasından danışmırlar. Bu ölkələr dünyanın ən sivil dövlətlərindən sayılırlar. Çünki bu ölkələrdə içmə mədəniyyəti var, keyfiyyətli içkilər içirlər. Onlar kef çəkmək üçün içirlər. Ruslar isə əllərinə nə düşdü içirlər. Keflənib dərdlərini, çətinliklərini, ağrı-acılarını unutmaq üçün, vəziyyətin çıxılmazlığından içirlər.

Bəs bu "rus bəlasının" kökündə nə dayanır? İçkiyə aludəliyi rusun genləri ilə bağlayanlar səhv edirlər. Mən yüzlərlə, minlərlə rus görmüşəm ki, ömürləri boyu dillərinə spirtli içki dəyməyib. Rusu və arağı ayrılmaz sayanlar səhv edirlər. Bu rus fəlakətinin kökündə illər boyu həyata keçirilən dövlət siyasəti durur. İnsanları bu vəziyyətə salmaq üçün güclü təbliğat maşını işləyir. İnsanların içki ilə başını qatırlar. Kefli insanların hakimiyyətdən nə tələbi ola bilər? Təki içməyə nəsə olsun, başları açılmasın.

Səfalət, işsizlik hökm sürdüyü, heç bir faydalı məşğuliyyətin olmadığı kənd yerlərində içməkdən başqa nə edə bilərlər? Heç olmasa, içməklə dərdlərini, müvəqqəti olsa da, unudurlar.

İçki mədəniyyətinin olmaması vəziyyəti daha da ağırlaşdırır.

Məclislərimizdə iştirak edən rus qonaqlarımız həmişəki qədər içsələr də, məclisdən sonra "öz ayaqları" ilə gedə bilmələri onlara anlaşılmaz gəlirdi. Əslində isə burada elə bir anlaşılmazlıq yox idi. Sadəcə olaraq içki mədəniyyəti nəzərə alınmışdı. Ruslarda isə içki qəbulu tez keflənməyə hesablanır. İçkinin təsirini tez hiss etməkdən ötrü stəkanlarla, yeməkdən qabaq içirlər. Yeməkləri də əksər hallarda duzlu xiyar, yaxşı halda seledka və soyutma kartof olur. Onlar üçün əsas şərt keflənməkdir. İnsan sifətini itirənə qədər, yıxılana qədər içməsən, bu, içmək hesab olmur.

Qəribə burasıdır ki, hakimiyyət dairələri bu bəlanın qarşısını almaq üçün heç bir iş görmür, çünki bu işdə maraqlıdır. Dövlət televiziyasında, kinolarda, tamaşalarda generalı da, alimi də, artisti də, müəllimi də, həkimi də içir. Bunu görən sıravi insanlar, gənclər niyə içməsin?

Bir sözlə, dövlətin, hakimiyyətin alkoqolizmə münasibəti dəyişməyincə xalqı məhv olmaqdan qorumaq mümkün olmayacaq. Yalnız öz xalqı haqqında düşünən hakimiyyət bu dəhşətli xəstəliyi sağalda bilər. Rus xalqı içki düşgünü deyil, onu bu bəlaya düşünülmüş şəkildə təhrik ediblər.

### *DİL VƏ DİN MƏSƏLƏSİ*

Bir məşhur gürcü ziyalısının ana dili haqqında mənimlə söhbətini xatırlayıram. O, deyirdi ki, əgər Azərbaycanda bütün azərbaycanlılar ancaq rusca danışsalar da, bunun qorxusu yoxdur, çünki sizin o boyda Türkiyəniz var. Amma biz gürcülər dilimizi unutsaq, bu dil məhv olub gedər, Gürcüstandan başqa bu dili saxlayan yoxdur.

Doğrudan da, böyük xalqların əhatəsində kiçik xalqların öz ana dillərini saxlaya bilməsi fədakarlıq tələb edir. Böyük xalqların isə dillərini itirməsi çətin məsələdir. Ayrı-ayrı dövrlərdə Rusiyada fransız, alman dillərində danışmaq kübarlıq əlaməti olub. Lakin sadə insanlar rus dilini qoruyub saxlaya biliblər.

Xalqın dilinin keşiyində onun yazıçıları, şairləri, görkəmli ziyalıları dururlar. Nə qədər ki, L. Tolstoyun, F. Dostoyevskinin, A. Çexovun kitabları var və oxunur, rus dilinin məhv olma qorxusu yoxdur.

Deyilənə görə, K. Marks görkəmli norvec yazıçısı İbseni orijinalda oxumaq üçün norvec dilini öyrənmişdi.

Ruslar, əsasən, dinə bağlı insanlardır. Rusiyada tolerantlıq hökm sürür. Bütün mövcud dinlərin fəaliyyəti üçün şərait yaradılıb. Vicdan azadlığı mövcuddur.

### *TARİXİN SAXTALAŞDIRILMASI*

Tarixin saxtalaşdırılması bir xalqın başqa xalqa torpaq iddiaları, maddi, mənəvi dəyərlərinə sahib çıxmaq məqsədi güdür. Tarixi saxtakarlıq məsələsində ermənilərin tayı-bərabəri yoxdur. Bu saxtakarlıq milli ideologiya səviyyəsinə qaldırılmış, sağalmaz xəstəliyə çevrilmişdir. Öz sərsəm ideyalarını həyata keçirmək üçün ermənilər hər cür vasitələrdən istifadə edirlər.

Yadımdadır, sovet turistlərinin tərkibində Suriyada səfərdə idik. Bizi Dəməşqin ən məşhur muzeylərindən birinə apardılar. Gid erməni qızı idi. Ekskursiya böyük bir xəritə üzərində izahatdan başlayırdı. Bu, "dənizdən-dənizə böyük Ermənistan"ın xəritəsi idi. Xəritədə Azərbaycan, Türkiyə, İran, Gürcüstan, Rusiya torpaqları Ermənistan dövlətinin torpaqları kimi göstərilmişdi. Biz azərbaycanlı turistlər etiraz əlaməti olaraq, muzeyi tərk etdik.

Ermənilər tarixi Azərbaycan torpaqlarını mənimsəyərək, şəhərlərimizin, kəndlərimizin adlarını dəyişdirərək "erməniləşdirirlər". Erməni xisləti, həyasızlığı o dərəcəyə çatıb ki, müvəqqəti zəbt edilmiş Laçının, Kəlbəcərin, Ağdamın adını dəyişirlər, necə ki, Xankəndini Stepanakert, Ağdərəni Mardakert, Xoca-

vəndi Martuni adlandırdılar. Onlar nəinki torpaqlarımıza, musiqimizə də, yeməklərimizə də göz dikiblər.

Tarixi saxtalaşdırmaq Azərbaycanı öz strateji tərəfdaşı hesab edən gürcülərdən də yan keçməyib. Onlar da Borçalının şəhər və kəndlərinin tarixi adlarını dəyişərək gürcü adları qoyurlar.

Bəs rusların tarixin saxtalaşdırılmasına münasibəti necədir? Bəri başdan deyim ki, biz burada tamam başqa bir mənzərə görürük.

Türklərə məhəbbətləri ilə seçilməyən ruslar, qədim türk məskənlərinin adlarına toxunmayaraq, dəyişməz saxlayıblar. Altay, Anqara, Baykal, Ural, Yenisey və s. yüzlərlə türk adları dəyişməz qalıb.

Üç yüz illik monqol-tatar zülmündən danışan ruslar, hətta, monqol Mamayın adı ilə bağlı təpənin adını dəyişməyiblər (Mamayev Kurqan).

Xantı-Mansiysk, Sıktıvkar, Salexard, Anadır, Naryan-Mar və s. Rusiyada yaşayan xantıların, mansıların, nenlərin, çukçaların, koryakların, komilərin və s. xırda xalqların adları ilə bağlıdır. Bu bölgələrin əhalisinin 90-95%-i ruslar olsalar da, bu xırda xalqların tarixi torpaqlarında yaşayış məskənlərinin, çayların, göllərin, dağların və s. adları dəyişməz qalıb. Bu, rusların kiçik xalqların tarixinə olan hörmətidir.

Sovet dövründə İttifaqın hər yerində tarixi adların dəyişdirilməsi siyasəti aparılırdı. Müttəfiq respublikalar suverenlik qazandıqdan sonra tarixi adlar öz yerini tutdu. Lakin Sovet İttifaqının keçmiş respublikalarında Moskva, rus xofu özünü göstərirdi. Moskva, Rusiya ilə bağlı adlar dəyişdirilirdi. Maraqlıdır ki, Ukrayna müstəqillik qazanan kimi, Kiyevin mərkəzində yerləşən əzəmətli "Moskva" mehmanxanasının adı dəyişdirilib "Ukrayna" qoyuldu. Moskvada isə daha əzəmətli "Ukrayna" mehmanxanası beş ulduza çevrildisə də, adı dəyişməz qaldı. Digər respublikalarda da Moskva və Rusiya ilə bağlı nə vardısa, tələm-tələsik dəyişdirildi.

Əlbəttə, Azərbaycanın Biləsuvar rayonuna Puşkinin adının verilməsi yersiz görünürdü. Lakin Puşkin adına küçənin, məktəbin, kitabxananın adının dəyişdirilməsinə lüzum yox idi. Çünki Puşkin bir dahi kimi, tək rus xalqına deyil, bəşəriyyətə məxsusdur. Bakıda Moskva prospektinin, Moskva mehmanxanasının, Moskva univermağının adının dəyişdirilməsini də lüzumsuz sayıram. Çünki Moskva Azərbaycanla, Bakıyla bağlı çoxsaylı adları qoruyub saxlayır. Rusiyada Nərimanov adına şəhər var, Nərimanova, Heydər Əliyevə, Nizamiyə abidələr qoyulub və hörmətlə qorunur.

Moskva, rus xofu əsrlər boyu çarizmin, bolşevizmin, kommunist ideologiyasının xalqlara gətirdiyi bəla ilə bağlıdır. Lakin onu da nəzər almaq lazımdır ki, bu bəlalar ruslardan da yan keçməyib. Odur ki, rusları çarizm, bolşevizm, sovetizm ilə bir tutmaq yanlışdır. Təəssüf ki, insanlar xalqlar arasında mövcud olmuş qeyri-normal münasibətləri daha çox yadda saxlayır. Halbuki, keçmiş Sovet İttifaqı xalqlarının həqiqi, səmimi dostluğu da olub. Lakin hakimiyyət dairələrinin, siyasətçilərin, maraqlı xarici qüvvələrin öz siyasətlərini həyata keçirməkdən ötrü xalqları qarşı-qarşıya qoyurlar. Çox təəssüf ki, əksər hallarda hakimiyyətlə xalqın mənafeləri üst-üstə düşmür. Hakimiyyət xalqa deyil, bir qrup təbəqəyə xidmət edir. Bütün bəlalar da buradan başlayır.

Yerinin altı da, üstü də qızıl olan Rusiya adlı məmləkətdə rusların çətin vəziyyətdə, yoxsul yaşaması cinayətdir. Avropanı qazla təmin edən Rusiyanın əhalisinin 40%-i qazdan istifadə edə bilmir, əhalinin 30-40%-nin elementar kommunal şəraiti yoxdur. Kimsə üç yaxtasına dördüncünü əlavə edir, vertolyotu varsa, təyyarə alır, minlərlə pensiyaçı isə dərman almağa pul tapmır. Əhalinin gözü qarşısında sürətli təbəqələşmə gedir. Alın təri tökmədən, zəhmət çəkmədən, ağıl işlətmədən bəziləri milyarder olur, övladlarının, nəvələrinin toyunda, ad günündə milyon dollarla pul xərcləyir, əzəmətli villalar tikdirir, xaricdə imarətlər alır, amma soruşan yoxdur ki, bu var-dövlət səndə haradandır. Bütün bunlar çörək puluna möhtac olan milyonların gözü qarşısında baş verir və insanlarda qeyri-ixtiyari qibtə hissi, aqressivlik yaranır.

## *NƏTİCƏLƏR*

Tolerantlığına, beynəlmiləlçiliyinə, dözümlülüyünə görə ruslar azərbaycanlılara daha yaxındır.

Tanrı həm Rusiyaya, həm də Azərbaycana zəngin sərvətlər, nemətlər bəxş edib. Bu, Tanrının bu ölkələrə iltifatıdır. Hər iki ölkənin güclü iqtisadi münasibətlər qurmaq imkanları var. Lakin bu münasibətlərin lazımi səviyyədə olmasını istəməyənlər də mövcuddur.

Rusiya hakimiyyətində və kütləvi təbliğat vasitələrində başqa millətlərin, xüsusilə, ermənilərin təsir imkanları güclüdür. Onlar Azərbaycanla Rusiyanın strateji tərəfdaşlığına mane olur, rus və azərbaycanlıların dostluğuna ləkə salmağa çalışırlar.

Rusiyada böyük Azərbaycan icması, Azərbaycanda rus icması fəaliyyət göstərir. Bu icmalar yaşadıqları ölkənin həyatında fəal iştirak edirlər.

Keçmiş Sovet İttifaqının respublikalarının heç birində ruslara, rus dilinə münasibətdə Azərbaycandakı qədər səmimiyyət yoxdur. Bunu qiymətləndirmək lazımdır.

## *ARZULAR*

Ruslar əsrlər boyu ədalətli hökmdar arzusu ilə yaşayıblar. Təəssüf ki, bu, elə arzu olaraq qalıb. Arzum budur ki, bu xalqa layiq hakimiyyət bərqərar olsun.

İstedadlı, zəhmətkeş rus xalqına firavan həyat arzulayıram.

Bu xalq xoşbəxt olmağa layiqdir!

*Xəlil Məcidoğlu*
*E-mail: khalil_majid@mail.ru*

# İNGİLİS SİYASƏTÇİ "QURANİ - KƏRİM"İ YANDIRIB



Böyük Britaniyada keçirilən son parlament seçkisində Cənubi Uelsdən namizəd olan Sion Ouensin "Quran"ı yandırarkən çəkilmiş şəkilləri üzə çıxıb. Görüntüləri ələ keçirən "Observer" qəzetinin rəhbərliyi hər hansı bir təxribata yol verməmək üçün şəkilləri Cənubi Uels polis idarəsinə verdiyini bildirib.

Britaniya Milli Partiyasının (BNP) üzvü olan 40 yaşlı siyasətçi polis tərəfindən saxlanılıb. İngiltərə Xarici İşlər Nazirliyi isə hadisəni kəskin pisləyib: "Hökumət olaraq "Quran" səhifələrinin yandırılmasını, ictimaiyyət arasında ayrı-seçkilik yaradan bütün addımları pisləyirik".

# MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA "QURANİ-KƏRİM"İN YANDIRILMASINI PİSLƏYİB

"Bu gün dünyada qarşıdurmaların və münaqişələrin sayı azalmır, əfsuslar olsun ki, artır". AzərTAc xəbər verir ki, bu fikri Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda söyləyib. Mehriban xanım Əliyeva deyib: "Biz elə bir dövrdə yaşayırıq ki, hətta insanların ən müqəddəs, ən ülvi hissləri ilə oynamaq istəyənlər də tapılır. Bizim hər birimiz müxtəlif dinə mənsubuq və bu dinlərin dəyər sistemləri olduqca yaxındır. Biz müxtəlif dinlərdə bir Tanrıya dua edirik və dualarımızın mahiyyəti də eynidir. Lakin biz bu gün insanlıqdan kənar və ağlasığmaz bir faktla üzləşirik. Özünü din xadimi adlandıran biri müqəddəs kitabı - "Qurani-Kərim"i oda atıb yandırır. Nədir belə hərəkətin adı? Nədir onun məqsədi? Hansı siyasi qüvvələrin sifarişidir bu? Belə insanlar nəyə və kimə xidmət edirlər? Ancaq biz belə bir dəhşətli halın, hadisənin dünya ictimaiyyəti tərəfindən qəti şəkildə pislənməsi ilə də rastlaşmadıq. Nəticədə cəzasız qəddarlıq bir az da, daha da dəhşətli qəddarlıqla nəticələndi və biz bunun da şahidi olduq".



Azərbaycanın birinci xanımı deyib ki, zəmanəmizin ən böyük təhlükələrindən biri dinin siyasiləşdirilməsidir. Müxtəlif ekstremist qüvvələr və şüarlar din şüarları altında gündəmə gətirilməməlidir. Tamamilə aydındır ki, belə hərəkətlər, belə hallar dialoqa, normal münasibətlərə zidd olan hərəkətlərdir və yalnız yeni qarşıdurmalar üçün zəmin yaradır.

# "QURAN"I YANDIRANA 70 GÜN HƏBS

***Aprelin 19-da Böyük Britaniya məhkəməsi "Quran" kitabını yandıran keçmiş əsgəri 70 gün azadlıqdan məhrum edib***



BBC-nin verdiyi məlumata görə, məhkəmə prosesi zamanı məhkəmə binasının önündə keçmiş hərbçini dəstək məqsədilə mitinq keçirilib.

Qeyd edək ki, olay bu ilin yanvarında baş verib. 32 yaşlı Endryu Rayan kitabxanadan "Quran" kitabının bir nüsxəsini götürüb və Karlayl şəhərində yoldan keçənlərin gözləri qarşısında yandırıb. Müqəddəs kitabın yandırılmasını məktəblilər də seyr ediblər. Endryu Rayan məhkəmədə deyib ki, iki ay əvvəl Britaniya müsəlmanlarının kağızdan hazırlanmış qırmızı laləni yandırdıqlarını görüb. Qırmızı lalə müharibədə ölənlərin xatirəsinin simvolu sayılır və ona görə də "Quran"ı yandırmağa qərar verib.

# QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ ABŞ-IN FLORİDA ŞTATININ HEYNSVİLL KİLSƏSİNDƏ QURANİ-KƏRİMİN NÜSXƏSİNİN YANDIRILMASINI PİSLƏYƏN BƏYANAT YAYMIŞDIR

Aprelin 4-də Qafqaz Müsəlmanları İdarəsi martın 20-də ABŞ-ın Florida ştatının Heynsvill kilsəsində Qurani-Kərimin nüsxəsinin yandırılmasını pisləyən bəyanat yaymışdır.

Bəyanatda deyilir ki, özünü keşiş kimi qələmə verən birinin mənfur hərəkəti müqəddəs İslam dininə xələl gətirmək iqtidarında olmasa da, bu dinin ardıcıllarının heysiyyətinə toxunmaq, onların ən ülvi mənəvi hisslərinin təhqir edilməsi baxımından olduqca xoşagəlməz haldır. Belə ki, bu hadisənin fəsadları bəşəriyyət üçün çox acınacaqlı və təhlükəli ola bilər.

Keçən il Qurani-Kərimin yandırılacağı ilə bağlı təhdidlər dünya ictimaiyyətinin ardıcıl təzyiq və tələbləri nəticəsində neytrallaşdığı halda, bu məsələnin yenidən gündəmə gəlməsi yalnız və yalnız qərəzli xarakter daşıyır. Belə ki, müsəlmanların haqlı qəzəb və hiddətinə səbəb olmuş bu hadisənin törədilməsi xristian-müsəlman ziddiyyəti yaratmağa yönəlmiş addımdır.

Bəyanatda vurğulanır ki, səmavi kitabların sonuncusu olan Qurani-Kərimə təhqiredici münasibətin bütün dünyada demokratiya dəyərlərinin, insan hüquq və azadlıqlarının ardıcıl müdafiəçisi kimi çıxış edən, özünü İraqda, Əfqanıstanda, Liviyada müsəlman əhalinin təəssübkeşi olaraq təqdim edən bir ölkədə baş verməsi demokratiya adına ləkədir.



Qurani-Kərimdəki ali mətləblərdən xəbəri olmadan onu yandırmağın mahiyyət etibarilə Tövrata da, İncilə də qarşı bir üsyan olduğu vurğulanan bəyanatda ABŞ Dövlət Departamentindən bu məsələyə münasibət bildirilməsi tələb olunur. Qafqaz Müsəlmanları İdarəsi milyonlarla müsəlmanın heysiyyətinə toxunan bu hadisəyə qəti etirazını bildirir, ABŞ-ın dövlət rəsmilərini, ictimai birliklərini və dini mərkəz rəhbərlərini bu mənəviyyatsız addıma qarşı vahid, ciddi qınaq mövqeyindən çıxış etməyə, insan qarşıdurmasına yol aça biləcək belə mənfur təxribatların gələcəkdə qarşısını almaq üçün fəal səy göstərməyə çağırır. Eyni zamanda, İslamın müqəddəs kitabına belə bir təhqiramiz münasibətin bütün dini rəhbərlər tərəfindən pislənməsini vacib sayır, artıq insan tələfatına səbəb olmuş bu mənfur hadisəni törətmiş bədnam keşişin dini ədavəti qızışdırmaq cəhdinə görə cəzalandırılmasını tələb edir.

# FRANSADA QADINLARIN ÇARŞABDA GƏZMƏSİ YASAQ EDİLDİ

*Aprelin 11-də Fransada ictimai yerlərdə hicabda gəzməyi qadağan edən qanun qüvvəyə minib*

Yeni qanun müsəlman icmasının ciddi narazılığına səbəb olub. Qanunu pozanların 150 avro cərimələnməsi nəzərdə tutulub. Qanuna əsasən, həyat yoldaşları və qızlarını çadra taxmağa məcbur edən kişilər 30 min avro cərimə olunacaq, əgər buna məcbur edilən şəxs yeniyetməlik yaşına çatmayan qızdırsa, o zaman cərimənin həcmi iki dəfə artır. Müsəlman icması prezident Sarkozinin təşəbbüsü ilə qəbul olunan bu qanunun tətbiqinin polislə ölkə əhalisinin bir hissəsi arasında toqquşmalara səbəb olacağı barədə xəbərdarlıq edib, Üsamə bin Laden isə buna görə Fransadan qisas alacağını bildirib.

Artıq Fransada adı açıqlanmayan bir qadın ictimai yerdə çarşablı gəzdiyinə görə həbs olunub. Hadisə Avinyon şəhər vağzalında baş verib. Qadın qadınların ictimai yerlərdə üzləri tam bağlı şəkildə gəzməsini qadağan edən qanuna həsr olunmuş verilişdə iştirak etmək üçün Parisə gedirmiş. Həbs olunan qadın bildirib ki, bu qanun onun dini azadlıqlarını pozur. Yeni qanuna görə saxlanan qadın 150 avro cərimə ödəməli və xarici vətəndaşlar üçün məcburi kurslara cəlb olunmalıdır. Bundan əvvəl Parisdə qanunun əleyhinə aksiya keçirməyə çalışan 60-dək şəxs saxlanıb.

**Milli.Az**

# CEYHUN OSMANLI: "XARİCDƏ TƏHSİL ALAN GƏNCLƏRLƏ BAĞLI YANLIŞ FİKİRLƏRƏ SON QOYULMALIDIR"

*"İrəli" İctimai Birliyinin sədri, millət vəkili Ceyhun Osmanlının müsahibəsi*



**- Son dönəmlərdə xaricdə təhsil alan gənclərin adı müxtəlif siyasi proseslərdə çox hallandırılır. Buna münasibətiniz necədir?**

- Gənclərimizi xaricdə təhsil alan və ya almayan deyə qruplara bölüb parçalamaq lazım deyil. Bizim üçün hər iki kateqoriyaya aid olan gənclərimiz çox əzizdir. İnkişafımız üçün hər bir insanımızın potensialından istifadə etməliyik. İstənilən gəncin siyasətlə məşğul olması normaldır. Amma unutmamalıyıq ki, Azərbaycanda yaş həddi imkan verənlərin yalnız 10 faizi partiya üzvüdür. Elektoratın təxminən 90 faizi heç bir partiyanın üzvü deyil. Deməli ki, çoxluq neytral mövqeli insanlardır. Ona görə də, bir qrupun siyasi mövqeyini çoxluğa aid etmək düzgün deyil!

**- Sizcə, xaricdən gələn təsirlərlə xaricdə təhsil alan gənclər arasında bağlılıq nə qədərdir?**

- Xaricdən gələn təsirlərlə xaricdə təhsil alan gənclər tamam ayrı anlayışlardır. Xaricdən gələn bütün təsirlərin də mənfi olduğunu söyləmək olmaz. Məsələn, əgər xaricdən elmi inkişaf, texnoloji inkişaf, keyfiyyətli təhsil, tibb, rabitə, informasiya texnologiyaları, "know how" və s. inkişafa xidmət edən cərəyanlar gəlirsə, bunun nəyi pisdir ki? O ki qaldı mənfi təsirlərə, sirr deyil ki, bu gün hələ də müstəqilliyimizi həzm edə bilməyən, bizə yuxarıdan aşağı baxmağa cəhd göstərən, ərazi bütövlüyümüzə qəsd edən, daxili işlərimizə qarışmağa cəhd edən, təbii sərvətlərimizə göz dikən, inkişafımızı gözü götürməyən xarici ölkələr və onlara dəstək göstərən və ya özü də fərqinə varmadan belə qüvvələrə alət olanlar var. Amma o demək deyil ki, bu qüvvələrdən danışarkən xaricdə təhsil alan gənclərimiz nəzərdə tutulur. Bu yolverilməzdir. Ona görə də, mən təəssüf edirəm ki, bəzi müxalif partiyalar, radikal şəkildə qütbləşmiş qruplar və media nümayəndələri əsassız olaraq xaricdəki gənclərimizin adını hallandırırlar. Müxalifət və ya iqtidar partiyası nümayəndəsi olmasından, xaricdə və ya daxildə yaşamasından asılı olmayaraq, hər kəsin fəaliyyəti qanunla tənzimlənməlidir. Əgər hər hansı fərd və ya qurum qanuna zidd çağırışlar edirsə, bu həmin şəxsin və qurumun öz adına şamil olunmalıdır. Ona görə də, qətiyyətlə deyirəm ki, xaricdə təhsil alan gənclərlə bağlı yanlış fikirlərə son qoyulmalıdır. Bu gün xaricdə təhsilini başa vurub dönən gənclərimizin mütləq əksəriyyəti ölkəmizin inkişafı üçün kadr bankı, xaricdə qalanlar isə bizim mənəvi səfirlərimiz və təmsilçilərimiz rolunu oynayır. Dövlətimiz hər zaman bu gənclərə sahib çıxır və çıxacaq.

**- Siz tez-tez xaricdə təhsil alan gənclərimizlə görüşürsünüz. Onların ölkəmizlə bağlı düşüncələri necədir?**

- Bu gün xaricdə təhsil alan 11 minə yaxın gəncimiz var. Böyük bir faiz gənclər də xaricdə təhsil alıb vətənə dönüblər. Dünyada nə qədər insan varsa, o qədər də fərqli və rəngarəng fikir var. Ona görə də, bir cavabla bütün gənclərimizin adından danışmaq ədalətsizlik olardı. Ümumi məqsəd mütləq əksəriyyətdə eynidir – vətənimizin, millətimizin və dövlətimizin inkişafına maksimum faydalı olmaq. Bunun yolu isə fərdi inkişafdan və işinin peşəkarı olmaqdan keçir. Fərdi inkişaf və onun ümumi məqsədlər üçün realizə olunmasında müxtəlif baxışlar ola bilər. Fərqli fikirlərdən qorxmaq lazım deyil, əksinə, hər bir fikrə fərdi yanaşmaq lazımdır. "Bir insanın təşəbbüsü bütün dünyanı xilas edə bilər" fikrinə inanmağı bacarmalıyıq. Ölkəmizin inkişafı naminə səslənən fərqli fikirlərə bizi ayıran cəhət kimi yox, faydalanmalı olduğumuz intellektual xəzinə kimi yanaşmalıyıq. Bizim yaşımız kimi müstəqilliyimiz də gəncdir və cəmi 20 yaşındadır. Müstəqilliyimizin gənc olmasına baxmayaraq, bizim üçün dəyəri çox yüksəkdir. Onun daha sağlam dayanması üçün daha sağlam dayaqlara ehtiyacı vardır. Odur ki, bizlər həm dayaq, həm də inkişaf üçün zəruri halqalar olmağı bacarmalıyıq.

**- Müstəqilliyi gənc olan bu ölkənin gəncləri üçün son 20 ildə nə dəyişdi?**

- Biz 20 ildir ki, cibimizdə müstəqil bir ölkənin pasportunu daşıyırıq. Bu bizim üçün ən dəyərli hadisədir. Bu ölkə hər gün daha da inkişaf edir və hər bir gəncimizin qürur mənbəyinə çevrilir. Odur ki, inkişaf edən, dünyada tanınan müstəqil ölkədə yaşamaq, o ölkənin gənclərinin özünə olan güvəninin artmasına səbəb oldu. Daha sonra isə bu 20 ildə cəmiyyətin gənclərə, gənclərin dövlətə, dövlətin isə gənclərə etimadı formalaşdı. Həm cəmiyyətimiz, həm də dövlətimiz şahidi oldu və qəbul etdi ki, bizim gənc, lakin peşəkar

həkimimiz, mühəndisimiz, sahibkarımız və hökümət nümayəndlərimiz ola bilər. Lakin gəncliyimiz hər zaman daha çoxunu istəyir. Bu da normaldır. Çünki gəncliyimiz ölkədə təbii çoxluqdur. Lakin biz bu çoxluğu mütərəqqi fikirlərin daşıyıcısı olan intellektual çoxluq kimi görmək istəyirik. Çünki biz cəmiyyətimizi insan kapitalının sürətlə inkişafda olduğu, elmə və təşəbbüslərə əsaslanan cəmiyyət kimi görmək istəyirik. Belə bir cəmiyyəti qurmaq üçün isə hər bir insan, hər bir fərd çox çalışmalıdır və özünü yetişdirməlidir.

**- Daha yaxşı bir ölkə qurmaq üçün hökümət və vətəndaş münasibətlərini necə qiymətləndirərdiniz?**

- Bu məsələdə həm hökümət, həm də vətəndaşlardan bərabər şəkildə səy göstərmək tələb olunur. Bu gün ölkə prezidenti çalışır ki, daha şəffaf, bərabər imkanlar və sosial ədalət yolunda inamla irəliləyən bir Azərbaycan qurulsun. Ölkədə olan korrupsiya və rüşvətxorluq kimi problemlər prezident səviyyəsində dilə gətirilir və bununla mübarizə aparılır. Eyni zamanda, ölkə prezidenti tərəfindən vətəndaşlarımız belə neqativ hallarla mübarizəyə dəvət olunur. Həm seçki dövrü, həm də indi keçirilən sosioloji sorğular göstərir ki, ölkə prezidentinin nüfuzu çox yüksəkdir və insanlar əksər problemlərinin həllində prezidentə arxalanır və ona səs verir. Bu onu göstərir ki, daha şəffaf və güclü Azərbaycanın qurulmasında xalqla prezident eyni cəbhədədir. Ölkə rəhbərliyinin və xalqın belə iradəsindən sonra hələ də rüşvət və korrupsiya faktlarında adı hallanan insanları və qurumları mən də hər kəs kimi qınayıram. Hər hansı bir qanunsuz əmələ rəvac verən, öz insanlarına əziyyət verənlər anlamalıdır ki, onlar vətəni, milləti və dövləti qarşısında xəyanət edirlər və gec-tez buna görə cavab verəcəklər. Belə insanların əməlləri yalnız müxalifətin dəyirmanına su tökür və Azərbaycanın inkişafına, eyni zamanda beynəlxalq imicinə xələl gətirir. Bu gün ölkə prezidenti tərəfindən hər bir vətəndaşımızın öz potensialına uyğun olaraq realizə olunması üçün şərait yaradılır. Bu gün pulsuz orta təhsil, şəffaf ali təhsil imtahanları, dövlət qulluğuna imtahan yolu ilə şəffaf qəbul, xaricdə pulsuz təhsil imkanları, idman, mədəniyyət və karyeranın bütün mərhələlərində inkişaf imkanları, açılan yüz minlərlə yeni iş yerləri vətəndaşlarımız üçündür. Qısa müddətdə ölkənin bütün infrastrukturunun müasir səviyyədə qurulması, mədəni inkişaf, güclü iqtisadiyyat bizə və gələcək nəsillərə xidmət edəcək. Amma bunlarla yanaşı problemlər də bizimdir, onları görürük, bilirik və həlli naminə əzmlə çalışmalıyıq. Düşünürəm ki, bu mübarizədə xalqla prezidentin olduğu cəbhə bütün problemlərə səbəb olan mənfi tendensiyalara qalib gələcək.

**APA**

## ASAİF TƏKLİFLƏR PAKETİ HAZIRLAYACAQ

Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumu (ASAİF) "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" proqramı üçün təkliflər paketi hazırlayacaq.

Təşkilatdan Lent.az-a verilən məlumata görə, irəli sürülmüş plana uyğun olaraq, ASAİF xaricdə təhsil alan tələbələri bir araya toplayaraq, yaradıcı gənclərə yeni imkanlar əldə etmək üçün onların bu və ya digər problemlərini həll etmək və onlarla müxtəlif sahələrdə fikir mübadiləsi aparmaq niyyətindədir.

Planda həmçinin dövlətçilik ənənələrini möhkəmlətmək istiqamətində gənclərin səylərinə və rolunun artırılmasına önəm veriləcək.

Təkliflər planı yaxın vaxtlarda ictimaiyyətə açıqlanacaq.

## MƏŞHUR UNİVERSİTETLƏRİN REYTİNQ CƏDVƏLİNDƏ DƏYİŞİKLİK

***Kembric Universiteti Oksford Universitetini geridə qoyub***



Böyük Britaniyanın dünyada da məşhur olan universitetlərinin yeni reytinq cədvəli açıqlanıb. Lent.az-ın "mignews.com" saytına istinadən verdiyi məlumata görə, 116 universitet arasında ilk yerə titullu Oksford Universitetini arxada qoyan Kembric Universiteti layiq görülüb.

Beləliklə, son on ildə Kembric Universiteti ikinci dəfə Oksford Universitetini reytinq siyahısında qabaqlayıb. Kembric Universiteti bu uğura ilk dəfə 2007-ci ildə imza atıb. Reytinq müəyyənləşdirilərkən universitetlərdə aparılan araşdırma proqramları, tələbələrin təhsil səviyyəsinə münasibətləri, diplomların qiymətləndirilməsi, iş tapmaq perspektivi və digər kateqoriyalar nəzərə alınıb.

İlk üçlüyü London İmperiya Kolleci qapayır. Dördüncü və beşinci yerlərdə uyğun olaraq London İqtisadiyyat Məktəbi və Darem Universiteti qərarlaşıb.



# ATATÜRKÜN İMZASINA QIYMAYAN AZƏRBAYCAN ƏSİLLİ BƏSTƏKAR

Türkiyə mətbuatında Azərbaycan əsilli bir bəstəkarla bağlı maraqlı fakt ortaya çıxmışdır.

AzərTAc Türkiyə mətbuatına istinadən xəbər verir ki, Rəna Dişa adlı müəllif daşnakların Qarsı Ermənistanın paytaxtı etmək barədə sərsəm iddialarına cavab olaraq qələmə aldığı "Başkent KARS" adlı yazısında həmin bəstəkarla bağlı faktı açıqlamışdır. Yazarın bildirdiyinə görə, 6 oktyabr 1924-cü ildə Mustafa Kamal Atatürk Qars şəhərinə səfər edir. Mustafa Kamal dəmiryol vağzalında mahnı ilə qarşılanır:

*Hoş gəlişlər ola Mustafa Kamal Paşa,*
*Əsgərin, millətin, bayrağınla çox yaşa.*

*Cəbhədə süngülər ayna kimi parlayır,*
*Azəri Türkləri bayraq açmış bəkləyir.*

*Parlayan ulduzun aləmi tenvir edər, (işıqlandırar – red.)*
*Cümhuriyyət bayrağın səmalar içrə üzər.*



Bu mahnının bəstəkarı azərbaycanlı Tağı Oşenyüzəndir. Həmin vaxt Atatürk bəstəkarı mükafatlandırır və ona 500 lirəlik çek yazır. Çox kasıb olan bəstəkar ölənə qədər yoxsulluq içində yaşayır. Və ən heyrətamizi... Ölümündən sonra onun evindən həmin 500 lirəlik çek tapılır. Məlum olur ki, yoxsulluğa baxmayaraq, bəstəkar çeki pula çevirməmişdir, ona görə ki, çekdə məhz Atatürkün imzası varmış...

# AZƏRBAYCAN FİLMİ İRAN FESTİVALINDA MÜKAFAT QAZANDI

***"Ritm Production" şirkətində istehsal olunan "Baş daşı" filmi İran İslam Respublikasında keçirilən Beynəlxalq 100 saniyəlik Filmlər Festivalında mükafat qazanıb***



Bu barədə Lent.az-a "Ritm Production" Kino Şirkətinin direktoru Xaqani Həşimov məlumat verib.

O ilk olaraq xatırladıb ki, "Baş daşı" filmi şirkətin fəaliyyətinin 5 illiyi münasibətilə keçən ilin iyun ayında tələbə və gənclər arasında keçirilən 5 dəqiqəlik film ssenariləri müsabiqəsində qalib gəlib. Mədəniyyət və İncəsənət Universitetinin IV kurs tələbəsi Royal Əliyevin ssenarisi əsasında çəkilən filmə rejissorluğu da elə Royal özü edib: "Biz "Ritm Production" olaraq gənclər və tələbələrlə çalışmalarımızı davam etdiririk. Hər zaman maraqlı ssenarilər gözləyirik. Məqsədimiz istedadlı gənclərə imkanlar açmaq, onlara çəkiliş meydançasında, studiyalarda işləmək şəraiti yaratmaqdır. Kinomuzun sürətli inkişafı üçün yeni nəsillər yetişməlidir. Bunun üçün də istər dövlət, istərsə də özəl kino şirkətləri, eyni zamanda yaradıcı və texniki peşəkarlar hər zaman gənc nəslə dəstək olmalıdırlar".

Xaqani Həşimov onu da deyib ki, "Baş daşı" filmi keçən ilin sonunda ACİ YF-in keçirdiyi müsabiqədə də mükafat qazanıb. Hazırda film daha iki festivala dəvətlidir.

# PAMUK "SHORT LİST"DƏ



21 ildir keçirilən "İndependent" mükafatının bu ilki "short list"-ində Orxan Pamukun da adı var.

Bu mükafatı İngiltərənin "İndependent" qəzeti xarici yazıçılar və onların əsərlərinin tərcüməçiləri üçün təsis edib.

Orxan Pamuk 1990-cı ildə "Bəyaz Qala" əsəri ilə bu mükafata layiq görülüb.

Bu il isə Maruen Frili tərəfindən ingiliscəyə tərcümə olunan "Məsumiyyət muzeyi" mükafat üçün yarışacaq.

Qeyd edək ki, 10 min funt sterlinq dəyərində olan mükafat yazar və tərcüməçi arasında bölünür.

# "TARİXİN RƏMZİ" SƏNƏDLİ FİLMİNİN ÇƏKİLİŞLƏRİ BAŞA ÇATMIŞDIR

"Yaddaş" studiyasında Əməkdar İncəsənət Xadimi, kinorejissor və kinooperator Ələkbər Muradovun lentə aldığı "Tarixin rəmzi" sənədli filminin çəkilişləri başa çatmışdır. Studiyadan AzərTAc-a bildirmişlər ki, film 1918-ci ildə ermənilər tərəfindən Qubada törədilmiş soyqırımından və xain düşmənin xalqımızın başına gətirdiyi digər müsibətlərdən bəhs edir.

Yeni ekran əsərinin ssenari müəllifi Mahir Qəribov, rejissoru və operatoru Ələkbər Muradov, prodüseri Əbdül Qutsiyev, rejissor assistenti isə Murad Muradovdur.

# ÇAPLİN HAQDA 10 FAKT

*Aprelin 16- da dünya kinosunun dahi aktyor və rejissorlarından biri Çarli Çaplinin 122 yaşı tamam oldu*



Yoxsulluqda doğulan Çaplin sonralar filmləri hesabına varlandı, kinonun əfsanəsinə çevrildi və qadınların qəlbini fəth etdi.

Çarli Çaplin haqda 10 maraqlı faktı təqdim edirik.

- Çaplin bir dəfə də olsun Oskar mükafatı almayıb. Yalniz müsabiqədən kənar Oskara layiq görülüb.

- Amerikada 40 ildən çox yaşasa da, bu ölkənin vətəndaşı olmayıb. Həmişə Böyük Britaniya vətəndaşı olub.

- Həyatında çox qadın olan Çaplin 4 dəfə evlənib və 11 uşaq atası olub. 12-ci uşağı məhkəmə vasitəsi ilə ona sırımağa çalışsalar da, ekspertiza aktyorun uşağın atası olmadığını təsdiq edib. Aktyorun sonuncu övladı o 73 yaşında olanda doğulub.

- Çaplin "Böyük diktator" filmində canlandırdığı Adolf Hitlerdən 4 gün böyük idi. Deyilənlərə görə, Hitler bığının formasını Çaplindən götürüb.

- Çaplin - fotosu Time jurnalının üz qabığında təsvir olunan ilk aktyor idi. 1975-ci ildə o, cəngavərlik titulu almışdı.



- Başqa ad altında Çaplinin oxşarları müsabiqəsində iştirak edib. Bir versiyaya görə aktyor müsabiqədə ikinci, birinə görə üçüncü, başqa versiyaya görə isə beşinci yeri tutub.

- Çaplin ayaqlarını 20 min dollar dəyərində sığorta etmişdi.

- 1928-cil ildə çəkdiyi "Sirk" filmində qulağına mobil telefona oxşayan qurğu tutan qadın təsvir edilib.

- "Qadın istənilən kişi milyarderi milyonçu edə bilər" və "Mən fillərə nifrət edirəm: onlar çox güclü və sözəbaxandılar" kimi məşhur fikirlərin müəllifidir.

- Çaplinin gözləri mavi olub.

*Rəna Nevzat*

# KOSMOSUN İLK FATEHİ

*Yerətrafı orbitə uçuşun 50 illiyi münasibətilə*



**"Başıma pis iş gələrsə, kədər və qüssəyə qapılma..."**

"Əgər orada ölsəm, sən də kədərlənib ölmə. İnsanlar bəzən yeriyəndə də yıxılır və boyunlarını sındırırlar. Orada da başıma hər iş gələ bilər. Əgər başıma pis iş gələrsə, Valyuşa, kədər və qüssəyə qapılma. Ən azı ona görə ki, günlərin birində kiminsə maşın zərbəsindən ölməyəcəyimə təminat yoxdur".

Bu məktubu 50 il bundan əvvəl, aprelin 10-da Qaqarin öz həyat yoldaşına yazıb. Məktubdan iki gün sonra artıq bütün dünya ondan danışacaqdı. Göylərin ilk fatehi Qaqarindən. O Qaqarindən ki vur-tut 34 il yaşamışdı. Və artıq əfsanəyə çevrilmişdi. Elə yazımız da bu əfsanədəndir.

### *Dülgər oğlu*

Yuri Alekseyeviç Qaqarin 1934-cü ildə kəndli ailəsində anadan olmuşdu. Onun atası Aleksey İvanoviç Qaqarin dülgər, anası Anna Timofeyevna Qaqarina isə heyvandarlıqla məşğul idi. Uşaqlığını Smolensk vilayətinin Kluşino kəndində keçirmişdi. Amma buna uşaqlıq demək mümkün idisə. 41-ci ildə almanlar Kluşinonu işğal etmişdilər. İşğal altında olan kəndlərində, təbii ki, balaca Yuranın təhsil alması da mümkün deyildi. 43-cü ildə sovet qoşunları Kluşinonu azad etdikdən sonra Qaqarinlər ailəsi Qjatsk şəhərinə köçürlər. Yeri gəlmişkən, həmin şəhər indi Qaqarin adlanır. 1951-ci ildə Yuri orta ixtisas məktəbini bitirərək, metaltökmə ixtisasına yiyələnir. Həmin ilin avqustunda Qaqarin Saratov sənaye texnikumuna və oktyabr ayında Saratov aviasiya məktəbinə daxil olur.

### *Qızlar ona vurulmuşdu*

Qaqarinin tələbə yoldaşı Andrey Tobleyevin xatirələrindən: "Yura məktəbdə o qədər də fitri istedadı ilə seçilmirdi. Adi tələbə olsa da, çox inadkar idi. Orta qiymələrlə oxuyurdu. Məktəbdə təyyarəçilikdən daha çox basketbolla maraqlanırdı. Özü də onun üzünün gülmədiyi vaxt olmazdı. Həmişə dişləri ağarırdı. Biz toxucu qızlarla bir yataqxanada qalırdıq. Bütün qızlar ona vurulmuşdu".

### *İmtahandan kəsilə bilərmiş...*

1955-ci ildə aviasiya məktəbində buraxılış imtahanı keçirilir. Və Yura ilk cəhddəcə uğursuzluqla üzləşir. "Yak-18" təyyarəsində ilk dəfə sərbəst uçuş edən gələcəyin kosmonavtı onu təlimata uyğun yerə endirə bilmir. Bu isə o demək idi ki, gənc Qaqarin imtahandan kəsilirdi.

"O, hönkür-hönkür ağlayırdı. İmtahan komissiyasının üzvlərinə, məktəbin direktoruna yalvarırdı ki, ona bir şans da versinlər. Direktor qəti şəkildə bunun əleyhinə idi. "Səndən təyyarəçi çıxmaz. Get, başqa peşə sahibi ol" - deyə, Yuranı tam ümidsiz etmişdi. Amma son anda imtahan komissiyasının sədri onu yanına çağırdı. Kursdakı bütün tələbələr imtahan verəndən sonra ona şans veriləcəyini dedilər. O, gözünün yaşını silib, öz şansını gözləyirdi. Və hamıdan sonda yenidən "Yak-18"-in kabinəsinə qalxır. Və elə bir uçuş göstərir ki, imtahan komissiyasının üzvləri, hətta direktor belə onu ayaq üstə alqışlayırlar". Bunu isə uzun müddət Qaqarinlə dostluq etmiş tələbə yoldaşı Georgi Tarasov xatırlayır.

### *Altıdan biri*

1955-ci ilin oktyabrında Qaqarin əsgərliyə çağırılır və Orenburqdakı 1-ci hərbi aviasiya məktəbinə xidmətə göndərilir. Və onun ulduzu da, necə deyərlər, burda parlayır. 1959-cu ildə o, ərizə ilə



kosmonavtlığa namizədlərin siyahısına götürülməyi xahiş edir. Qaqarin iki tibbi ekspertizanı keçdikdən sonra 1960-cı ildən general Verşinin əmri ilə kosmik uçuşlar üçün hazırlıq komandasına qəbul edilir. 1961-ci ildə ABŞ-la kosmik yarışda önə çıxmaq istəyən sovet kosmonavtikasının "atası" akademik Sergey Korolyov namizədlər arasından 6 nəfəri seçir. Həmin dövrdə SSRİ və ABŞ arasında kosmos uğrunda əsil yarış gedirdi. "Yarış" 4 oktyabr 1957-ci ildə Sovet İttifaqında Yerin ilk süni peyki "Sputnik-1"in kosmosa göndərilməsi ilə başlamışdı. Yeri gəlmişkən, SSRİ dünyada kosmosa ilk insan göndərən dövlət oldu və bu





məsələdə ABŞ-a texniki və ideoloji zərbə endirdi. Amerika buna 23 gündən sonra cavab verə bildi. ABŞ astronavtı Alan Şepard "Freedom-7" kosmik gəmisi ilə yerətrafı orbitə göndərildi. Beləliklə, Şepard kosmosa göndərilən ikinci insan oldu. SSRİ buna növbəti kosmonavtlarını yerətrafı orbitə göndərməklə cavab verdi. 1962-ci il avqustun 12-15-də kosmosa iki nəfər göndərdi və bununla Amerikanı yenə də qabaqlamış oldu.

Kosmos uğrunda gedən savaşa qadınlar da cəlb edildilər. 1963-cü il iyunun 16-da "Vostok-5" gəmisi ilə SSRİ ilk qadın kosmonavtı, Valentina Tereşkovanı kosmosa göndərdi. Bu isə ideoloji baxımdan ABŞ-a vurulan daha bir zərbə oldu.

*Qa-qa-rin!!!!*

İndi isə qayıdaq 1961-ci ilin aprelinə. Kimin kosmosa uçması son dəqiqəyə qədər gizli saxlanılır. Son anda Qaqarin və Titov seçilir. Bəs niyə son anda şans Qaqarinə verilir? Bunun da maraqlı bir tarixçəsi var...

Korolyov məruzə üçün o vaxtkı baş katib Nikita Xruşşovun yanına gəlir. Baş katibə məruzə edən akademik bildirir ki, həm Qaqarin, həm də Titov uçuşa hazırdılar. Amma Titovun uçmasının tərəfdarıdır. Xruşşov soruşur:

- Niyə Titov?

- Onun psixoloji hazırlığı ilə bağlı aparılan testlər Qaqarininkidən bir qədər yaxşı nəticə verib. Qərara gəlmişik ki, Titov uçsun.

Xruşşov Korolyovdan daha heç nə soruşmur. Səhər onu yenidən qəbul edəcəyini bildirir. Səhəri baş katibin qəbuluna gələn akademik eşitdiyindən şoka düşür:

- Kosmosa Qaqarin uçacaq!

- Nikita Sergeyeviç, axı...

- Sergey Pavloviç, Mərkəzi Komitə belə qərara gəlib.

Və qərarı belə izah edir:

- Biz ABŞ-ı qabaqlamışıq. Biz ilk imza atırıq. İndi siz deyirsiniz ilk kosmonavtın familiyası Titov olsun? Görün necə gurultulu səslənir: Qa-qa-rin! Yoxsa, Ti-tov...

Korolyovun razılaşmaqdan başqa əlacı qalmır.

*Tarixə düşən 108 dəqiqə*

Uçuş təcili şəkildə 12 aprel 1961-ci ilə təyin olunur. Çünki sovet kəşfiyyatının əldə etdiyi bilgilərə görə, təxminən 20-25 gündən sonra ABŞ kosmosa adam göndərməliydi. Ayın 12-si günü hamı həyəcan içində Qaqarini kosmik gəmiyə yola salır. Qaqarin yenə gülümsəyirdi. Amma kabinəyə daxil olan anda geri çevrilib, sağollaşanda onun üzündə qəribə bir nisgil vardı. Saat 9.07-ni göstərirdi.

"Poyexali!" Bu, Qaqarinin kosmik gəmi yerdən götürüləndə dediyi sözdür. Hamı 1 saat 48 dəqiqə ərzində göydən həyəcanla xəbər gözləyir. Ən çox həyəcanlanan isə həmin vaxt Abxaziyada dincələn baş



katib idi. Demək olar ki, hər iki dəqiqədən bir Korolyovla əlaqə saxlayan Xruşşov "uçuş normal gedir" cavabından sonra sakitləşirdi. Qaqarinin içində olduğu "Vostok" gəmisi göydə 108 dəqiqə dövr etdikdən sonra sağ-salamat yerə qayıdır. Amma nəzərdə tutulduğu yerdən 300 kilometr aralı düşür. Saratov vilayətinin Engels şəhərinin yaxınlığına. Onu yerli mexanizatorlar qarşılayırlar. Və Qaqarin zarafatla ilk məruzəsini də onlara edir: "Təyyarəçi-kosmonavt Yuri Alekseyeviç Qaqarin kosmosa uçuşu uğurla yerinə yetirmişdir".

### *"Atam quş kimi uçurdu"*

"Atama xəbər veriləndə sevincdən quş kimi uçurdu. Abxaziyada istirahətini yarımçıq qoyub təcili Moskvaya gəldi. Marşal Malinovskini yanına çağırıb, Qaqarinə polkovnik rütbəsi verilməsini tapşırır. Malinovski bildirir ki, Qaqarin baş leytenant rütbəsini təzə alıb, birdən-birə polkovnik verilməsi mümkünsüzdür. Amma Xruşşov təkid edir. Uzun mübahisədən sonra tərəflər mayor rütbəsində razılığa gəlirlər".



Bu isə Xruşşovun oğlu Sergey Xruşşovun xatirələrindəndir. Oğul Xruşşov onu da xatırlayır ki, baş katibin ən böyük qorxusu, sən demə, Qaqarinin kosmosdan sağ-salamat qayıdandan sonra dəli ola bilmə ehtimalından imiş.

Qaqarin, təbii ki, dəli olmur. Onu dəlicəsinə sevməyə başlayırlar. Dəhşətli dərəcədə populyarlıq qazanan Yura bütün dünyanı gəzməyə başlayır. 80-ə yaxın ölkədə olur. İngiltərədə olarkən kraliça Yelizaveta onunla şəkil çəkdirəndə "mən xoşbəxtəm ki, kosmosa ilk uçan şəxslə fotom olacaq" - deyir. İtaliya və Fransanın ali ordenlərinə layiq görülür. Anqolanın paytaxtında aeroporta onun adı verilir. Çexoslovakiya, Polşa, ADR-də mərkəzi küçələr onun adını daşıyır. SSRİ-nin onlarla şəhərinin, eləcə də Bakının fəxri vətəndaşı olur. Bu cür məqamları çox sadalamaq olar. Amma unutmayaq ki, ona, 27 yaşlı Qaqarinə həm də Sovet İttifaqı Qəhrəmanı adı verilir. Üstəlik, SSRİ Ali Sovetinə iki çağırışda deputat da seçilir. Bir sözlə, şöhrətin zirvəsi...

### *Son uçuş*

Uzun fasilədən sonra - 1967-ci ildə Qaqarin yenidən uçmağa başladı. Bu dəfə Qaqarin özünü "MİQ-17" təyyarəsində sınadı. Amma bu uçuş onun əvvəlki bacarığını itirməkdə olduğunu göstərdi. Belə ki, yerə enən zaman düzgün hesablama apara bilmədi və uzun müddət hərbi hava limanının üzərində dövrə vurmağa məcbur oldu. O, yenidən kosmosa uçmaq niyyətində idi. Ona görə də Qaqarin inadla məşq edir, unutduqlarını bərpa etməyə çalışaraq, gecə-gündüz hava limanından ayrılmırdı. Bununla belə, kosmonavtlar hazırlayan mərkəzdə hamıya aydın idi ki, Qaqarin artıq təkbaşına uçuş etməyə hazır deyil və bu, onu faciəyə doğru aparır.

1968-ci il, mart ayının 27-də, Moskva vaxtı ilə saat 10.18-də Qaqarin və Seryogin Çkalovsk aerodromundan növbəti sınaq uçuşuna qalxdılar. Hava olduqca sakit və açıq idi. Sınaq uçuşu üçün 20 dəqiqə nəzərdə tutulmuşdu. Amma saat 10.30-da Qaqarin yerə enmək üçün icazə istədi. Bundan sonra təyyarə ilə əlaqə kəsilir. 3 saatlıq axtarışdan sonra, saat 14.50-də təyyarənin qalıqlarını uçuş-sınaq mərkəzindən 85 kilometr aralı, Novoselovo kəndi ətrafında tapmaq mümkün olur. Bu, artıq son idi...

İstintaqda təyyarənin qəzaya səbəb olduğu güman edilib. Lakin həmin vaxtdan bu günə qədər ölüm səbəbləri sırasında hava şəraitinin pis olması, quş dəstəsinin və ya toz buludunun Qaqarinə mane olması, pilotun sərxoş olması ehtimalları da səsləndirilir.

İstintaq belə qənaətə gəlib ki, hadisə baş verən gün hava pis olub və Qaqarinin olduğu təyyarə quş qatarı və ya toz buluduyla toqquşmamağa cəhd göstərib. Amma son nəticədə bu mübarizədə məğlub



olaraq, idarəetməni itirib. Qaqarinin sərxoş olduğu, pilot kabinəsinin yanlışlıqla açılması kimi iddialar da qəzanın səbəbləri kimi qeyd edilib.

Qaqarinin təyyarəsi ilə idarəetməyə nəzarət qülləsi arasında sonuncu əlaqə saat 10:30-da olub. Uçuşun sakit keçdiyini bildirən Qaqarin aerodroma dönmək istədiyini xəbər verib. Qüllədən icazə verilməsinin qarşılığında kosmonavt "enirəm" cavabını verib. Bu da Qaqarinin son sözləri olub.

Ölüm hadisəsilə bağlı təşkil edilən hökumət komissiyası çox uzun araşdırmalar aparıb. Ancaq təyyarənin enişilə bağlı dəqiq açıqlama verilməyib.

Olayla bağlı mütəxəssisləri iki sual narahat edir: enmə icazəsi istəyən Qaqarin niyə təyyarənin sürətini azaltmayıb? Qəza zamanı göyə katapult sistemindən niyə istifadə etməyib? Son bir dəqiqə içində baş verənlər isə illərdir hələ də sirr olaraq qalır.

*Səbuhi Məmmədli*

# STOKHOLM SÜLH PROBLEMLƏRİ İNSTİTUTU: AZƏRBAYCAN 10 İL ƏRZİNDƏ MÜDAFİƏ SAHƏSİNƏ 9,2 MİLYARD DOLLAR AYIRIB

*Ötən il Cənubi Qafqaz ölkələrindən Ermənistan büdcədə müdafiə xərclərini artırsa da, Azərbaycan və Gürcüstan azaldıb*

APA-nın Stokholm Sülh Problemləri İnstitutuna (SİPRİ) istinadən verdiyi məlumata görə, 2010-cu ildə bölgə ölkələrindən Azərbaycan müdafiə xərcləri üçün büdcədən 1 milyard 421 milyon ABŞ dolları, Ermənistan 404 milyon dollar, Gürcüstan isə 452 milyon dollar vəsait ayırıb.

Ermənistan müdafiə xərclərini 2009-cu ilin rəqəmlərinə nisbətən 45 milyon dollar artırıb, Azərbaycan 52, Gürcüstan isə 152 milyon dollar azaldıb.

SİPRİ-nin hesablamalarına görə, 2000-2010-cu illər ərzində Azərbaycan müdafiə sahəsinə 9 milyard 200 milyon dollar, Gürcüstan 4 milyard 317,6 milyon dollar, Ermənistan isə 2 milyard 630 milyon dollar vəsait xərcləyib.

Qeyd edək ki, hesablamalarda dövlət büdcəsinin müdafiə xərcləri sektoru üzrə ayrılan vəsaitləri nəzərə alınıb.

# İNFORMASİYA TEXNOLOGİYALARININ İNKİŞAF DƏRƏCƏSİ

***İnformasiya texnologiyalarının inkişaf dərəcəsinə görə Azərbaycan dünyanın 138 ölkəsi arasında 70-ci yeri tutur***



Dünya iqtisadi forumu İNSEAD biznes məktəbi ilə birlikdə informasiya texnologiyalarının inkişaf dərəcəsinə görə dünya ölkələrinin reytinqini tərtib etmişdir. Sayca onuncu dəfə tərtib edilən bu hesabatdan alimlər, ekspertlər, sahibkarlar və siyasətçilər öz işlərində istifadə edirlər. Yekun reytinqdə Azərbaycan dünyanın 138 ölkəsi arasında 70-ci yeri tutur. Siyahıda İsveç liderlik edir.

# ÇİNİN QIZIL EHTİYATLARININ HƏCMİ 3 TRLN. DOLLARI KEÇİB



Çinin qızıl ehtiyatlarının həcmi bu ilin I rübünün yekunlarına əsasən 197,4 mlrd. dollar artaraq 3 trln. 44 mlrd. dollara çatıb. Bu barədə Çin Xalq Bankı açıqlama yayıb.

Bundan əvvəlki rübdə Çinin qızıl ehtiyatlarının həcmi 2,85 trln. dollara yüksəlib. Bu ilin I rübünün göstəricisi isə ötən ilin analoji dövrünün göstəricisindən 25% çoxdur.

Bu göstəricilər Çin Mərkəzi Bankının dollar və digər xarici valyutaları aktiv şəkildə alması ilə bağlıdır. ABŞ və Qərb ölkələri milli valyutanın kursuna sərt nəzarət siyasətindən əl çəkməsi üçün Çinə təzyiq edirlər. Amma məhz yuanın aşağı salınmış kursu Çinə mütəmadi olaraq ticarət balansının profisitini nümayiş etdirmək imkanı verir.

Qeyd edək ki, Çin öz qızıl ehtiyatları barədə ətraflı məlumatı ilk dəfə 2010-cu ilin sentyabrında açıqlayıb. Həmin vaxt bu göstərici 2,45 trln. dollar təşkil edib. İkinci yerdə gələn Yaponiyanın qızıl ehtiyatlarının həcmi 1 trln. dollardır. Üçüncü yerdə isə Rusiya qərarlaşıb.

# ERNEST HEMİNQUEYİN İNTİHARI



Ernest Heminqueyin babası da, atası da intihar etmişdi. Güman etmək olar ki, ona intihar irsən keçib. Amma intiharın səbəbinə baxanda, onun özünə qəsd etməkdən başqa çarəsi qalmadığını düşünürsən. Bu böyük Amerika yazarının intihar səbəbi haqqında qaydaya uyğun olaraq, yazının sonunda danışaq. Hələlik isə dahi yazarın həyatına nəzər salaq.

## *3 YAŞLI OVÇU*

Ernest Miller Heminquey 1899-cu ildə 21 iyul tarixində Çikaqo yaxınlığındakı Ouk-Park şəhərciyində doğulmuşdu. Ailədə altı uşaq idilər, böyükləri Ernest idi. Anası musiqiçi, atası həkim idi. Anası onun da musiqiçi olmağını istəyirdi. Buna görə də, onda zorla musiqiyə həvəs oyatmaq istəyirdi.

O isə atası kimi təbiətə meylli idi. Üç yaşı olanda atası Ernestə tilov hədiyyə etmişdi, onu özü ilə balıq tutmağa aparırdı. Seymur Baycan yeni nəşr olunmuş romanında yazır: "Nə vaxtsa oxumuşdum: yazıçı minimum on beş quş, on beş ağac, on beş çiçək adı bilməlidir".

## *İNTİHAR ALƏTİ BABA HƏDİYYƏSİYDİ*

Ernest səkkiz yaşı olanda Amerikanın Orta Qərbində mövcud olan bütün bitkilərin, ağacların, çiçəklərin, heyvanların, quşların, balıqların adını əzbərdən bilirdi. Onun ikinci sevimli işi isə ədəbiyyat idi. O, saatlarla ev kitabxanasında oturub mütaliə edirdi.

12 yaşı olanda babası Ernestə tüfəng hədiyyə elədi. Bu hədiyyə onun həyatını ovçuluğa bağladı. Eləcə də ölümə.

## *UNIVERSİTET YERİNƏ REDAKSİYA*

Heminquey fiziki cəhətdən möhkəm adam idi. Futbol və boksla məşğul olurdu. Məktəb jurnalında da kiçik hekayələr yazırdı. Bu illərdə o özlüyündə müəyyənləşdirdi: mütləq yazıçı olacaq.

Buna görə də, valideynlərinin təkidlərinə baxmayaraq, universitetə daxil olmadı. Kanzas-Sitiyə gedib, orada "Star" qəzetində müxbir kimi çalışmağa başladı.

O, qəzetdə rayonun bir hissəsinə cavabdehlik daşıyırdı. Ernest hadisə yerlərinə gedir, cinayətkarlarla, fahişələrlə, oğrularla tanış olur, hər bir hadisəni, iyi, qoxunu, söhbəti, davranışı təfərrüfatı ilə yadda saxlamağa çalışırdı. Bunlar ona sonrakı ədəbi fəaliyyətində lazım olacaqdı.

O, müxbirlik həyatında redaktorlardan qısa, aydın, lakin dolğun, məzmunlu yazmağı da öyrəndi. Ernest Heminquey bu publisistik texnikadan yararlanıb, öz üslubunu yaradacaqdı.

Müasiri Uilyam Foknerdən Heminqueyi fərqləndirən xüsusiyyətlərdən biri də bu olmalı idi. Oxucular da onun üslubunu sevdilər. Sadə idi, yormurdu. Bu üslub ədəbiyyat tarixində elə "Heminquey üslubu" olaraq da qaldı.

## *SALAM, MÜHARİBƏ. ƏLVİDA, SİLAH!*

Birinci Dünya müharibəsi başlayan kimi o da müharibənin romantikasına qapılıb, orduya getmək istəsə də, uzun müddət rədd cavabı aldı. Gözləri zəif görürdü.

Uzun cəhdlərdən sonra, nəhayət, müharibə ocağına düşə bildi. İtaliyada Qırmızı Xaçın sürücülüyü-



nü edərkən yaralı italyan əsgərini xilas elədi, yaralandı. İtaliya kralı onu hərbi medal ilə təltif elədi.

Ernest Heminqueyun 1929-cu ildə yazdığı "Əlvida, silah"da da hadisələr İtaliyada cərəyan edir. Müharibənin romantikasına qapılaraq döyüşlərə getmiş, hərbi əməliyyatlarda iştirak etmiş Heminquey sonralar yazırdı: "Mən müharibəyə gedəndə axmaq idim. Elə bilirdim ki, biz yarışda iştirak edən idman komandasıydıq, avstriyalılar isə başqa komanda."

## *40 YAŞLI ƏSGƏR*

Müharibə, macəra romantikası Heminqueyi heç vaxt tərk etmədi. İspaniyada vətəndaş müharibəsi zamanı müxbirlik fəaliyyətini davam etdirdi. Faşistlərə qarşı savaşırdı. Şəhərdə döyüşlər gedən zaman o, otel otağında yazmaqla məşğul olurdu. Yazıçının "Əcəl zəngi"romanı İspaniyada vətəndaş müharibəsindən bəhs edir.

O, İkinci Dünya müharibəsinə də eyni macərapərəstliklə qoşuldu. Hətta bir sıra önəmli hərbi əməliyyatlarda belə iştirak elədi. Müttəfiqlər Normandiyaya desant çıxaranda xüsusi icazə ilə əməliyyatda iştirak elədi, partizan dəstələrinin tərkibində Belçikanın, Elzasın, Parisin azad olunması uğrunda vuruşdu.

## *"PARİS – HƏMİŞƏ SƏNİNLƏ OLAN BAYRAM"*

Heminquey Parisdə İkinci Dünya müharibəsindən əvvəl də olmuşdu. 1921-ci ildə o, dörd evliliyindən birincisini edib, yoldaşı Elizabet Riçardsonla Parisə yollandı. Cütlük Parisdə ucuz bir ev kirayələyib, kasıb həyat sürürdülər.



Parisdə Ernest Amerika yazarı və modernistlərin havadarı Gertruda Stayn ilə tanış olur. Tez-tez Silviya Biçin "Şekspir və kompaniya" kitabxanasına gedir. Orada Ceyms Coysla, Skot Fitsceradla və digər məşhur yazarlarla tanış olur. Ceyms Coysun ABŞ-da nəşri yasaq olunmuş "Uliss"inin Çikaqodakı dostları vasitəsilə gizlicə yayılmasını təşkil edir.

Parisdə yaşayarkən Heminquey yaradıcılıqdan da qalmır, mütəmadi "Toronto Star" qəzetinə hekayələrini göndərir. Hemqney Paris günləri haqqında "Həmişə səninlə olan bayram" romanını yazır.

Əsl uğur yazıçıya "Və günəş doğur" romanının çapından sonra gəlir. Romanın ikinci adı "Fiesta" idi. Roman 20-ci illərdə Fransada və İspaniyada yaşayan cavanlardan – "itirilmiş nəsil"dən bəhs edir.



## *HƏR ŞEY ÖLÜMLƏ QURTARIR*

"Əlvida, silah" romanı ilə Heminquey ədəbiyyat dünyasına öz damğasını vurdu. Əsərin qəhrəmanı Amerika könüllüsü Frederik Henri İtaliyada tibb bacısı Ketrin ilə tanış olur. Sonra müharibənin gətirdiyi bədbəxtliklərdən, ölümdən bezərək, sevgilisi ilə İsveçrəyə qaçır. Lakin İsveçrədə xoşbəxt həyatı uzun sürmür. Tale onunla amansız oyununu davam etdirir.

Doğuş zamanı Ketrin ölür. "Bax hər şey bununla qurtarır. Ölümlə. Heç bilmirsən ki, bunlar nə üçündür. Bilməyə macal tapmırsan. Səni elə beləcə həyatın burulğanına atırlar və sənə həyatın qaydalarını söyləyirlər, səni qəfil yaxaladıqları elə birinci dəfədə də öldürürlər."

## *ŞİR OVU*

1932-ci ildə Hem atanın ( onu belə çağırırdılar) "Günortadan sonra ölüm" romanı dərc olunur. Romanda yazıçı korrida döyüşünü dəqiqliyi ilə təsvir edir, onu ayin kimi, kişilik sınağı kimi təqdim edir. Bu romanla Heminquey bir nömrəli amerikan yazıçısı kimi ad qazanır. Onda hələ Folkneri ABŞ-da qəbul etmirdilər.

O, macəralara daha çox pul xərcləməyə başlayır. Afrikaya səyahətə çıxır. Afrikada ibtidai qəbilələrin həyatı ilə tanış olur, şir ovuna çıxır. Üç dəfə şir ovlayır. 1935-ci ildə yazıçının "Afrikanın yaşıl təpələri" kitabı çap olunur.

"Qoca və dəniz"də balıqçı Santyaqo yuxuda şirləri görür. Əsər də belə bitir: **"Yuxarıda, qoca yenə komasında yatmışdı. O yenə üzüaşağı yatmışdı, oğlansa onun keşiyini çəkirdi. Qoca yuxuda şirləri görürdü"**

## *KUBA SAHİLLƏRİNDƏ UĞUR*

İkinci Dünya müharibəsi illərində Heminquey Kubaya köçür. Havana yaxınlığında ev alır. Qayıq



alıb, balıqçılıqla məşğul olur. Tez tez səyahətə çıxır. Aviaqəzaya düşən yazıçı müalicə olunur.

Uzun müddətli fasilədən sonra Ernest Heminquey "Çayın o tayında, ağacların kölgəsində" romanını yazır. Lakin roman gözlənilən nəticəni vermir. Artıq dördüncü evliliyini yaşayan, bununla belə başqa qadınlara da vaxt tapan, tez tez səyahətlərə çıxan Heminquey öz ədəbi qüdrətini itirmişdi. **"Yazıçıya nə mane olur? İçki, qadınlar, pul və şöhrət. Eləcə də içkinin, qadınların, pulun və şöhrətin olmaması".** Deyəsən qadınlar, içki və şöhrət yazıçıya mane olmağa başlamışdı.

Yazıçı iki il sonra yeni bir əsərini "Layf" jurnalında dərc elədi. Bu dəfə əsər müharibədən bəhs etmirdi, həcmi də kiçik idi. Povestin adı "Qoca və dəniz" idi. Bu əsərlə Heminquey oxucuların qəlbini əbədi olaraq fəth elədi. Heminquey əsərə görə əvvəlcə dünyanın ən məşhur ədəbiyyat ödüllərindən biri Pulitser mükafatına, 1954-cü ildə isə Nobel mükafatına layiq görüldü. Səhhətində problemlər olan yazıçı təqdimetmə mərasiminə qatıla bilmədi.

## *RUS JURNALİSTİNİN XATİRƏLƏRİ*

SSRİ siyası xadimlərindən biri, 1918-ci il mart qırğınları zamanı erməni silahlı dəstələrinə başçılıq etmiş A. Mikoyanın 1960-cı ildə Kubaya səfəri zamanı heyətin tərkibində olmuş jurnalist Henrix Borovik gözlənilənlərin əksinə olaraq yazıçıdan müsahibə ala bilir. Yazıçı onu özü ilə balıq tutmağa dəvət edir. Özünün işləmək metodundan danışır.

Yazıçı hər gün səhər beşdən günorta birə kimi işləyir. Günə 700-800 söz yazır. Günortadan sonra isə özünü içkiyə verir. Heminquey içki həvəskarı idi. Rus jurnalist də ona özü ilə gəritdiyi üç butulka rus arağı hədiyyə eləmişdi. Heminquey də butulkanı onun əlindən alıb başına çəkir.

Yazıçı içki aludəçiliyini onunla izah edirdi ki, bütün günü personajlar haqqında düşünməmək, onların nə danışacağını, nə edəcəyini fikirləşməmək mümkün deyil. Bunları unutmaq üçün isə içmək qaçılmazdır. Əks təqdirdə dəli olmaq olar.

## *HƏDİYYƏ TÜFƏNGDƏN ATƏŞ*

Bu görüşdən bir il sonra yazıçı intihar edir. Səhhəti pisləşən yazıçını müalicə edən həkimlər səhvən ona elekroşok terapiyası tətbiq edirlər. İki seansdan sonra yazıçı hafizəsini itirir, heç nə yaza bilmir.

Yazıçı deyirdi: "Mənə elekrtoşok edən bu həkimlər yazıçıları anlamırlar... Gərək bütün psixiatorlar yazıçı olmağın nə demək olduğunu bilmək üçün bədii əsər yazmağı öyrənəydilər... mənim sərmayəm olan beynimi dağıdaraq və yaddaşımı silərək məni həyatın sahilinə atmağın mənası nə idi?"

Yaddaşını itirmiş yazıçı fikirlərini toplaya bilmir. İki sözü belə yan-yana qoyub yaza bilmir. Hafizəsi yazıçının varidatıdır. Daha yaza bilməyən yazıçı heç kimə lazım deyil. Heç özünə də.

Xəstəxanadan buraxılandan iki gün sonra - 2 iyul 1961-ci ildə anbara girib bir zaman atasının intihar etdiyi tüfəngdən özünə atəş açır.



## *KİŞİ KİMİ ÖLÜM...*

Rus jurnalisti ilə görüşündə yazıçı demişdi: "Əsl kişi yataqda ölə bilməz. O ya döyüşdə ölməlidir, ya da alnına güllə sıxaraq".

Ernest Heminquey bəlkə də bu fikirlərin "Oğuznamə"də yer aldığını bilmirdi. Amma daha yaşaya bilməyəcəyini anladığı təqdirdə ölümün onu xəstə yatağında yaxalamasını istəmədi, özü onu qarşılamağa çıxdı.

***Mirmehdi Ağaoğlu***

# UNİVERSİTETİMİZİN TƏLƏBƏLƏRİ MUZEYLƏRDƏ



Yeni Yazarlar və Sənətçilər Qurumunun təşkilatçılığı ilə Xəzər Universitetinin tələbələri üçün aprelin 24-də XI Bakı Kitab Bayramı Kulturoloji tədbirləri çərçivəsində AMEA-nın Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinə, Hüseyn Cavidin Ev Muzeyinə və Miniatür Kitab Muzeyinə ekskursiya təşkil edilmişdir.









# NƏSİMİDƏN SEYİD ƏZİMƏ, YAXUD SÖZDƏN MUSİQİYƏ DOĞRU

*(Ramiz Fasehin elmi yaradıcılığı haqqında)*

**ATAƏMİ MİRZƏYEV,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

Azərbaycan ədəbiyyatşünaslığının klassik ədəbiyyatla bağlı açılmamış çoxlu qatları vardır. Bu qatların açılmasında bir sıra ədəbiyyatşünas alimlərin çeşidli tədqiqlərində bir çox klassiklərimizin söz xəzinəsi, etiqad aləmi, sənət və mərifət dünyası işıqlandırılmış, özünün layiqli dəyərini almışdır. Klassik Şərq ədəbiyyatı özünün spesifik xüsusiyyətləri ilə seçilir. Bu xəzinəyə baş vurmaq, onu çoxşaxəli və çeşidli yönlərdən izah və şərh etmək, oxucuya çatdırmaq, şübhəsiz ki, müəyyən hazırlıq tələb edir. Ərəb və fars dillərinə bələd olmaq, Qurani-Kərim və hədislərlə bağlı təfsir və şərhlərə aşinalıq, Şərq poetikasına və bəlağət elminə yiyələnmək, əruz



və qafiyəşünaslıqla, eləcə də orta dövr fəlsəfəsi və təsəvvüflə yaxından tanışlıq klassik sənətkarların yaradıcılığına baş vurmaq üçün lazım olan ən başlıca tələblərdir. Bütün bunlara bir yerdə, kompleks şəklində yanaşdıqda aparılan tədqiqat uğurlu alınmış olur. Sonuncu onilliyin ədəbiyyatşünaslığı içərisində bütün bu keyfiyyətləri kompleks şəkildə birləşdirən və klassik Azərbaycan ədəbiyyatının korifeylərindən sayılan Nəsimi, Füzuli və Seyid Əzim Şirvani yaradıcılığını dini-təsəvvüfi qaynaqlar baxımından təfsir və şərh edən Ramiz Fasehin – Paşayev Ramiz Mahmud oğlunun müstəsna yeri vardır.

Paşayev Ramiz Mahmud oğlu (Ramiz Faseh) 1939-cu il yanvarın 13-də Bakının qədim Bülbülə qəsəbəsində anadan olmuşdur. Körpəlikdən görmə qabiliyyətini itirsə də, 1950-61-ci illərdə Buzovna qəsəbəsindəki görmə qabiliyyəti zəif və tam görməyən uşaqlar üçün olan xüsusi internat məktəbində oxumuşdur. 1961-ci ildə indiki Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1966-cı ildə həmin universiteti müvəffəqiyyətlə bitirmişdir.

Uşaqlıqdan fenomenal təfəkkür tərzi, qeyri-adi hafizəsi ilə hamını valeh və heyran etmişdir. Klassik Şərq ədəbiyyatının böyük klassikləri – Cəlaləddin Rumi, Sədi və Hafiz Şirazi, Nəsimi, Füzuli, Seyid Əzim, Şəhriyar,Vahid,Cavid və digər sənətkarların şeirlərinin əzbərdən bilicisidir. Azərbaycan xalq musiqisinə, muğamlarına incəliklərinə qədər bələddir. Bütün bunlar Ramiz Fasehə biri-birinin ardınca beş sanballı monoqrafiya yazmağa imkan vermişdir. Elmi yaradıcılığa məqalələrlə başlayan Ramiz Fasehin ilk monoqrafiyası olan «Füzuli şeirində təsəvvüfi qaynaqlar» kitabı 2000-ci ildə «Elm» nəşriyyatında işıq üzü görmüşdür. Müəllifin «Əruz vəzninin tədrisi» adlı ikinci kitabı isə 2003-cü ildə «Çıraq» nəşriyyatında yayımlanmışdır. Ramiz Fasehin sayca üçüncü kitabı olan «Azərbaycan muğamlarında söz və musiqinin əlaqəsi» də «Çıraq» nəşriyyatında 2004-cü ildə nəşr edilmişdir. Müəllifin ən həcmli monoqrafiyası isə «Seyid İmadəddin Nəsiminin seçilmiş bəzi şeirlərinin şərhi» (2007) adlanır. Ramiz Fasehin hələlik son işıq üzü görmüş monoqrafiyası isə 2010-cu ildə çapdan çıxmış «Məhəmməd Füzuli və Seyid Əzim Şirvaninin nət və qəsidələrinin şərhi»dir.

Müəllifin «Füzuli şeirində təsəvvüfi qaynaqlar» adlı ilk iri həcmli monoqrafiyası mövzu və mündəricə baxımından çox geniş olub, təsəvvüfün tərifi, qaynaqları, vəhdəti-vücud kimi məsələlərin həlli ilə yanaşı, Füzuli yaradıcılığında özünəməxsus yeri olan təsəvvüfi kateqoriyalar geniş elmi şərhini tapmışdır. Kitabda diqqəti çəkən ən əsas məqamlardan biri də odur ki, müəllif hər hansı bir fikri və ya mülahizəni yürüdərkən həmin faktın əyaniliyi üçün çoxlu sayda fakt və sübutlar gətirir. Bu fakt və sübutlar isə o qədər zəngin, geniş və əhatəlidir ki, oxucunu bəzi məqamlarda əsas məqsəddən çox-çox uzaqlara apar-

maqla yanaşı, onu olduqca məlumatlandırır. Çünki Ramiz müəllim özünün geniş məlumat dairəsi, Şərq poetikasına və ədəbiyyatına bələdliyi sayəsində Füzulinin hər hansı bir beytini şərh edərkən Qurani-Kərimdən, hədislərdən tutmuş Şərqin böyük mütəfəkkirləri – Sədi, Hafiz, Cami, Əttar, Rumi, eləcə də Nəsimi, Seyid Əzim və onlarla bu kimi söz ustadlarının yaradıcılığına müraciət edir, hər bir sözün çəkisini ustalıqla dəyərləndirir və elmi şərhini verir. Əslində müəllifin bu kitabının əsasını da digər monoqrafiyaları kimi Füzuli şeirlərinin şərhi təşkil edir. Şərq, o cümlədən Azərbaycan ədəbi tənqidi tarixində şərhçilik geniş yayılmışdır. Tarixən Şərqin bir çox klassiklərinin əsərlərinə çoxlu sayda şərhlər yazılmışdır. Ancaq bu ənənə keçmiş sovet dönəmində nisbətən unudulmuş, arxa plana keçmişdi. Lakin Ramiz Fasehin tədqiqatları göstərir ki, bu ənənə hələ də yaşayır. Təsadüfi deyil ki, müəllifin bu ilk monoqrafiyası elmi ictimaiyyət tərəfindən maraqla qarşılandı və özünün yüksək elmi dəyərini aldı. Kitab haqqında ilk dəyərli fikirlər söyləmiş mərhum ədəbiyyatşünas, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Azadə Rüstəmovanın aşağıdakı qeydləri buna gözəl nümunə ola bilər: «Təsəvvüfün məna incəlikləri işığında Bağdad dahisinin bu günə kimi əsil məzmunu qaranlıqda qalan nə qədər beytləri onun (Ramiz Fasehin) səyi nəticəsində öz həqiqi yozumunu tapır. Monoqrafiyada Füzuli şeirində vəhdəti-vücud fəlsəfəsi – məxluq və xaliq münasibətləri, insan – kainat – yaradan arasındakı birlik, Füzulidə dünyəvi və ilahi eşq anlamı çərçivəsindəki problemlər və onlara verilən şərh və izahlar da yetərincə işıqlandırılmış, müəllifin elmi-nəzəri mövqeyini müəyyənləşdirməklə təsəvvüfi və irfani qanunlara dair onun çoxçeşidli bilgi xəzinəsindən xəbər verir».

Ramiz Fasehin ikinci sanballı monoqrafiyası müəllifin dərslik kimi nəzərdə tutduğu «Əruz vəzninin tədrisi»dir. Qeyd etdiyimiz kimi, Ramiz müəllim həm də əruz vəzninin gözəl bilicilərindəndir. Füzuli haqqında yazdığı ilk monoqrafiyada əruzla bağlı məsələlərə ara-sıra toxunan müəllif bu kitabda problemə xüsusi yanaşmış, əruzun Azərbaycan ədəbiyyatında işlənən bəhrlərini və növlərini təfsilatı ilə izah etmişdir. Adətən, əruzdan söhbət düşəndə görkəmli alim Əkrəm Cəfər və onun «Əruzun nəzəri əsasları və Azərbaycan əruzu» (Bakı, 1977) monoqrafiyası xatırlanır. Lakin əruz bitib-tükənməyən elə bir xəzinədir ki, onun bir çox qatları hələ də açılmamış qalır. Bunlardan ən birincisi isə, heç şübhəsiz, onun tədrisidir. Bu baxımdan Ramiz Fasehin bu kitabı əruzun tədrisi ilə bağlı yazılmış ilk vəsait kimi diqqəti cəlb edir. Müəllifin özünün də qeyd etdiyi kimi, «Bu kitab nəinki təkcə orta məktəb ədəbiyyat tədrisi üçün, hətta orta və ali musiqi məktəbləri, Bülbül adına, Asəf Zeynallı adına musiqi məktəblərinin, eləcə də Üzeyir Hacıbəyov adına Musiqi Akademiyasının xanəndəlik sinfinin muğam ifaçıları və müəllimləri üçün də dəyərli bir tədris vəsaiti ola bilər».

Müəllifin bu vəsaitində əruz vəzninin Azərbaycan ədəbiyyatında işlənən bəhrləri və onun növləri ayrı-ayrılıqda izah edilməklə yanaşı, onların hər birinə aid çeşidli örnəklər də təqdim olunur. Ramiz müəllimin «Əruz vəzninin tədrisi» adlı kitabı, deyərdik ki, onun «Azərbaycan muğamlarında söz və musiqinin əlavəsi» (Bakı, 2004) monoqrafiyası üçün hazırlıq mərhələsi olub, onun bu sahədəki tədqiqatlarının baş məşqi adlandırıla bilər.

Azərbaycan muğamlarında sözlə musiqi vəhdət təşkil edir. Bu vəhdət pozulduqda isə muğamda ifadə olunan məna və məzmun düzgün qavranılmır. Bu baxımdan müəllifin bu monoqrafiyası muğam sənətində xanəndələrin müraciət etdiyi qəzəllər və onların bəhrlərinə görə hansı muğamlarda istifadə olunması ilə bağlı uyğunluğu geniş şəkildə tədqiq və təhlil etmişdir.

Azərbaycan musiqisində olan bütün muğam



və şöbələr haqqında geniş və təfsilatı ilə bəhs edən müəllif hər bir muğama və şöbəyə uyğun gələn əruz bəhrlərini incələyir, onların sözlə musiqi arasındakı vəhdətini izah edir, fikirlərini müxtəlif xanəndələrin ifası əsasında şərh edir. Ramiz müəllim, yeri gəldikcə bəstəkarlarımızın muğam operalarına, xüsusilə, böyük Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasına da müraciət edir. Orada da sözlə musiqinin vəhdət təşkil etdiyini, birinin digərini tamamladığını çeşidli nümunələr əsasında incələyər. Müəllifin «Azərbaycan musiqisində söz və musiqinin əlaqəsi» kitabı söz-musiqi tariximizdə bu mövzuya həsr olunmuş ilk monoqrafik tədqiqatdır və gənc xanəndələr üçün əvəzsiz qaynaq rolunu oynayır. Təəssüf ki, bu kitabın az tirajla nəşri ondan lazımınca yararlanmağı çətinləşdirir. Arzu edərdik ki, kitab geniş tirajla yayımlansın və onunla daha çox oxucu auditoriyası tanış olsun.

Artıq Füzuli haqqındakı ilk monoqrafiyasından hiss olunmaqda idi ki, Ramiz Fasehin XIV yüzilliyin söz ustadı İmadəddin Nəsimi ilə bağlı fikirləri olduqca geniş, əhatəli və zəngindir. Odur ki, tədqiqatçının «Seyid İmadəddin Nəsiminin seçilmiş bəzi şeirlərinin şərhi» (2007) həcmli kitabı heç də elmi ictimaiyyət tərəfindən gözlənilməz, qeyri-adi qarşılanmadı. Deyərdik ki, müəllifin bu kitabı ilk monoqrafiyasının bir növ məntiqi davamı kimi səciyyələndirilə bilər. Xronoloji baxımdan Füzuli zirvəsi Nəsimi zirvəsindən sonra gəlsə də, hər iki mütəfəkkirin söykəndiyi mənbə çox yaxın, deyərdik ki, eyni idi – eyni bulaqdan qaynaqlanırdı. Məhz bu səbəbdəndir ki, müəllif hər iki söz ustadının yaradıcılığına eyni mövqedən yanaşmış, tədqiq və şərh etmişdir.

Müəllif bu monoqrafiyasında ilk kitabından fərqli olaraq, daha çox şərhçiliyə üstünlük vermiş, öz fikirlərini konkret şəkildə – Nəsiminin 44 şeirinin təhlili və şərhi əsasında izah etmişdir. Belə bir tədqiqat istiqaməti isə nəsimişünaslıqda ilk addım sayılmaqla bərabər, Nəsimi irsinin yeni istiqamətdə araşdırılması üçün uğurlu bir başlanğıcdır. Nəsiminin 44 şeiri ilk dəfə olaraq Qurani-Kərim, çoxsaylı Quran təfsir və şərhləri, hədislər əsasında beyt-beyt şərh olunmuş, onlardakı dini-təsəvvüfi rəmz və istilahlar zərgər dəqiqliyi ilə incələnmiş, hər bir qəzəlin yazıldığı bəhr, onun növü və təfiləsi göstərilmişdir. Müəllif geniş məlumat dairəsi, iti yaddaşı və hafizəsi sayəsində Nəsimi şeirlərində olan dini-təsəvvüfi baxışların, onlarla bağlı termin və ifadələrin şərhində təkcə şairin divanı ilə məhdudlaşmayıb, yeri gəldikcə Hafiz Şirazi, Sədi Şirazi, Cəlaləddin Rumi, Xətai, Füzuli, Seyid Əzim, Mirzə Əbdül Kərim Şüayi, Mirzə Xaliq Cənnəti, Hacı Əbülhəsən Raci kimi başqa şairlərin əsərlərindən örnəklər gətirərək öz fikirlərini təsdiqləmiş olur. Təsadüfi deyil ki, müəllifin bu kitabı da elmi ictimaiyyət tərəfindən öz lazımi dəyərini almışdır. Klassik irsimizin gözəl bilicilərindən olan professor Nüşabə Araslının kitab haqqında yazdığı aşağıdakı sözlər monoqrafiyanın əsas məziyyətlərini gözəl əks etdirir: «Kitaba daxil olan şərhlər böyük məslək mücahidinin yaşadığı dövrə, mühit və müasirlərinə qarşı cəsarətli çıxışları şairin əsas yaradıcılıq yönümü, onun ictimai-siyasi və əxlaqi görüşləri, həyat və kainatla bağlı düşüncələri – bir sözlə, Nəsimi şəxsiyyəti və Nəsimi sənətinin məna və poetik özünəməxsusluqlarının dərkinə xidmət edir».

Ramiz Fasehin sayca beşinci – sonuncu kitabı olan «Məhəmməd Füzuli və Seyid Əzim Şirvaninin nət və qəsidələrinin şərhi» də bilavasitə haqqında danışılan monoqrafiyaların məntiqi davamı kimi görünür. Müəllif bu monoqrafiyasında Məhəmməd Füzulinin və Seyid Əzim Şirvaninin bir sıra dini məzmunlu qəsidələrinin təfsir-şərhini verir. Məlumdur ki, istər Füzulinin, istərsə də Seyid Əzimin qəsidələri sabiq sovet dönəmində müxtəlif baxımlardan tədqiqata cəlb edilmişdir. Lakin ateizmin hakim olduğu həmin dövrdə Füzuli və Seyid Əzimin dini məzmunlu qəsidələri lazımi şəkildə təhlil və tədqiq edilməmişdir. Füzuli və Seyid Əzim məktəbini bir-birindən ayrı tutmayan müəllif onların qəsidələrini də bir arada təqdiq və şərhə cəlb etmişdir. Füzulinin altı, Seyid Əzimin yeddi qəsidəsini şərh və təfsir edən müəllif daha sonra Füzulinin Həzrət Əliyə həsr etdiyi iki mədhiyyəsinin, eləcə də iki başqa qəsidətövhidinin şərhini verir. Ramiz müəllim Qurani-Kərimdən, hədislərdən və Şərqin digər klassiklərinin əsərlərindən gətirilən çeşidli örnəklər əsasında həmin qəsidələrin daha mükəmməl şərhinə nail olmuşdur.

Ramiz Fasehin bütün monoqrafiyaları klassik poeziya, əruz və muğam sənəti ilə maraqlananlar üçün gözəl töhfədir. Ramiz müəllim öz yaradıcılığında bu üç sənəti vəhdətdə tədqiqata cəlb edib; bu üç sənət vəhdət təşkil edəndə əsl sənət əsəri ortaya çıxmış olur. Biz Ramiz müəllimə qadir Allahdan uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları diləyirik. Arzu edirik ki, o, özünün yeni-yeni kitabları ilə klassik poeziya aşiqlərini sevindirsin.

# ÇOXMƏDƏNİYYƏTLİLİK MÜASİR CƏMİYYƏT ÜÇÜN HANSI ƏHƏMİYYƏTƏ MALİKDİR?

*Fəlsəfə doktoru, Qafqaz Strateji Araşdırmalar İnstitutunun Geomədəniyyət şöbəsinin müdiri Elmir Quliyevlə müsahibə*



***- Elmir bəy, keçən ay bir neçə Avropa siyasətçisi çoxmədəniyyətlilik siyasətinin uğursuzluğa uğradığını bəyan etdi. Sizcə, çoxmədəniyyətlilik müasir cəmiyyət üçün hansı əhəmiyyətə malikdir?***

- Müharibədən sonrakı Avropada çoxmədəniyyətlilik milli siyasətin əsas forması kimi qəbul edilirdi. Etnik və dini azlıqların hüquqlarının müdafiəsi prinsiplərini rəhbər tutan demokratik dövlətlər miqrantların milli cəmiyyət daxilində öz etno-mədəni cəmiyyətləri quraraq, onları inkişaf etdirmələri üçün şərait yaradırdılar. Lakin son zamanlar Qərbi Avropa ölkələrinə qarşı miqrantların təzyiqi o qədər artıb ki, onlar yeni həll yolları axtarmağa başlayıblar. Bir sıra Qərbi Avropa siyasətçiləri bu yaxınlarda verdikləri bəyanatlarda çoxmədəniyyətliliyi Avropa xalqlarının üçüncü dünya ölkələrindən olan miqrantlar üçün müəmmalı qalan alicənab bir jest kimi təqdim ediblər. Bəs müxtəlif mədəniyyət və ənənələrin vahid çoxmədəniyyətli məkanda birgə mövcudluğu ideyası həqiqətən də avropalıların ixtirasıdırmı? İslam aləmində müxtəlif dinlərə etiqad edən xalqların birgə yaşaması uzun əsrlər boyu təbii hal kimi qəbul edilib. Bəzi ölkələrdə bugünkü vəziyyət məhz deyildiyi kimidir. Misal üçün, doğma Azərbaycanı və ya müsəlman və xristianların dinc yaşadıqları və bir-biri ilə bütün sevinc və kədəri bölüşdükləri Misiri göstərək. Çoxmədəniyyətli cəmiyyətdə hər bir etnik, dini və ya mədəni qrup öz ənənələrini yaşatmaq və onları övladlarına ötürmək hüququna malikdir. Dövlət də onların bu hüquqlarını təmin edir və onlar arasında qarşılıqlı anlayış və münasibətlərin olması üçün hər cür şərait yaradır. Lakin Avropada çoxmədəniyyətliliyin özünəməxsus xüsusiyyətləri və zəif tərəfləri var idi.

***- Onlar hansılardır?***

- Əksər Avropa dövlətlərinin miqrantlara qarşı yürütdüyü siyasət uğursuzluqla nəticələnməli idi. Köhnə dünyada çoxmədəniyyətlilik tarixi köklərə malik deyildi və acınacaqlı demoqrafik vəziyyətlə şərtlənən məcburi qayda idi. Avropalılar miqrantlar hesabına səriştəsiz işçi qüvvəsi çatışmazlığını kompensasiya etməyi düşünür, lakin onları öz cəmiyyətlərinin bir parçasına çevirməyə çalışmırdılar. Əksinə, onlara (Angela Merkelin də bu yaxınlarda təsdiq etdiyi kimi) öz vətənlərinə qayıtmalı olan qastarbayterlər kimi baxırdılar. Miqrantların sosial yardım almalarına və şəxsi biznes açmaq imkanlarına malik olmalarına baxmayaraq, onlar, ümumiyyətlə, özlərini cəmiyyətin qalan hissəsindən təcrid edilmiş hiss edirdilər. Öz mənşələrini unutmaqda, ilk növbədə, onlara Avropanın sağçı siyasətçilərinin özləri mane olurdular. Son illər Avropada etnik və dini azlıqlar problemi son dərəcə kəskinləşib. Gözləmək olardı ki, avropalıları yalnız müsəlman ölkələrindən olan miqrantlar deyil, Çin və Asiya məhəllələrində baş verənlər də narahat edir. Amma son illərdə baş verənlər bunun əksini göstərir. İş burasındadır ki, əvvəllər sayca az olan türk və ərəb icmaları nəzərə çarpacaq dərəcədə böyüyüb və yaxın gələcəkdə real siyasi qüvvəyə çevrilə bilərlər. Avropalılar buna hazır deyillər. Onlar qəbul edə bilmirlər ki, müsəlman ölkələrindən gəlmələr parlamentə üzv seçiləcək və ya bələdiyyələrə başçılıq edəcəklər. Onlar gerilik və terrorizmlə əlaqələndirdikləri müsəlmanlara, onların dini və mədəni ənənələrinə dair mövhumatlardan əl çəkməyə hazır deyillər. Onların narazılıqları və qorxuları müsəlmanlar arasında ekstremist əhval-ruhiyyənin artması və mühacirlər arasında cinayətkarlıq və savadsızlıq səviyyəsinin yüksək olması ilə bağlıdır. Adətən insanlar belə halların səbəbləri haqqında düşünmürlər. Onları yalnız şəxsi mənafeləri və hökumətin onları mənfi nəticələrdən qoruyub-qorumayacağı maraqlandırır. Buna görə də, bu gün etnik və mədəni azlıqların hüquqlarının məhdudlaşdırılması çağırışları həm avropalı siyasətçilər, həm də sadə vətəndaşlar arasında getdikcə daha çox tərəfdar qazanır.

***- Fikrinizcə, çoxmədəniyyətlilik ideyasından imtina etmək assimilyasiya siyasətinə birmənalı keçid deməkdir?***

- Bildiyiniz kimi, Avropa Birliyi ölkələrindəki yeni milli siyasətin hələ ki, dəqiq konturları yoxdur. Bu gün bizim əlimizdə yalnız Avropanın yüksək siyasi təbəqəsinin bir sıra nümayəndələrinin bəyanatları mövcuddur. Zənnimcə, bu gün onların yaranan vəziyyətdən çıxış yolu axtarmalarında qəribə heç nə yoxdur. Buna görə narahat olmaq lazım deyil. Lakin türk və ərəblərdən öz mədəni xüsusiyyətlərindən imtina etməyi tələb edən avropalılar anlamalıdırlar ki, onlar özləri də güzəştə getməli və miqrantlara cəmiyyətdə layiqli yer tutmaq imkanı verməli olacaqlar. Düşünürəm ki, belə bir kompromis üçün hələ kifayət qədər səbəb yoxdur. Məsələ yalnız yerli əhalinin narahatlığı və millətçi meyllərin artmasında da deyil. İctimai quruluş forması olan müasir demokratik dövlət ciddi dəyişikliklərin astanasındadır. Siyasi-maliyyə elitası bu gün xalqların taleyinə görə məsuliyyətdən o qədər azad olub ki, iyirmi il bundan əvvəl olduğu kimi, sosial proqramların maliyyələşdirilməsinə böyük vəsaitlər xərcləmək istəmir. Belə bir şəraitdə Avropanın gələcəyi bir çox halda siyasətçi və maliyyəçilərin öz iştahlarını

azaltmağa hazır olub-olmamalarından asılıdır. Əks halda, Avropa demokratiyasını demokratik üsullarla müdafiə etmək çox çətin olacaq.

***- Necə düşünürsünüz, milli azlıqların və onların diasporalarının assimilyasiya siyasətinə reaksiyaları necə olacaq?***

- Çox şey həmin bu cəmiyyətlərin mühacirlərə nə təklif edəcəyindən və əvəzində onlardan nə tələb edəcəyindən asılıdır. Əgər avropalılar Avropa universalizmi ideyasından imtina etsələr və artıq neçə onilliklərdir ki, «əritmə qazanı» siyasətini həyata keçirən Birləşmiş Ştatların yolu ilə getsələr, düşünürəm ki, ciddi problemlər olmayacaq. Bu mənada olduqca vacibdir ki, siyasətçilər «qoca» Avropanın artıq əvvəlki qaydalar üzrə yaşaya bilmədiyini və dəyişməli olduğunu etiraf etmək üçün özlərində güc tapsınlar. Bu, bir tərəfdən zamanın çağırışı, digər tərəfdən isə tarixi imkandır. Bəlkə də bütün dünyada milyardlarla insanı Avropaya cəlb edən həmin dəyərləri qoruyub saxlamaq üçün yeganə imkan. Əgər miqrantların Avropa ictimaiyyətinə inteqrasiyası ideyası düzgün qəbul edilib reallaşdırılmasa, yaxın onilliklərdə Köhnə Dünyanı ciddi etno-dini münaqişələr gözləyir.

***- Siz ona işarə edirsiniz ki, Avropanın gəlmə əhalisi yüksək sürətlə artır, yerli əhali isə nəzərə çarpacaq dərəcədə azalır?***

- Bəli, bunun səbəbi də yalnız bəzi sosioloqların tez-tez qeyd etdikləri kimi, avropalıların həyat səviyyəsinin yüksək olmasında deyil. Başlıca səbəb Avropa cəmiyyətinin ilkin əsaslarını sarsıdan fərdiyyətçilik və hedonizmdədir. Əvvəllər Qərb cəmiyyətini möhkəmləndirən xristian əxlaqı bu gün həzz almağa və şəxsi güzəranını yaxşılaşdırmağa meyl ilə əvəzlənib. Avropanın ənənəvi ailə institutu məhv olmaq üzrədir. Övlad dünyaya gətirmək istəməyənlərin sayı sürətlə artır. Onlar hesab edirlər ki, uşaqlar onların karyera yüksəlişinə və ya sadəcə həyatdan həzz almağa mane ola bilərlər. Qərbin ümumilikdə dinə qarşı siyasətini nəzərə alaraq, bu tendensiyaların yaxın zamanlarda dəyişəcəyini və ya ən azından zəifləyəcəyini düşünmürəm. Bu, mənəvi planda, nə mühacirlərə, nə də öz həmvətənlərinə, demək olar ki, heç nə təklif edə bilməyən müasir Qərb cəmiyyətinin ən böyük qüsurlarından birini açıb göstərir. Karikatura qalmaqalları, minarələrin tikintisinə, ictimai yerlərdə çarşabın örtülməsinə qoyulan qadağalar və s. öz mənbəyini buradan götürür. İslam dünyasında dünyəviləşdirmə prosesinə Avropadakından xeyli sonra başlanılıb və bir sıra obyektiv və subyektiv səbəblər üzündən ictimai şüurun dərin qatlarına nüfuz etməyib. Hətta əhalinin bir neçə onillik ərzində ateist təbliğatın təzyiqi altında olduğu sovet məkanında müsəlmanlar ailə-məişət səviyyəsində dini ənənələrə riayət etməyə çalışırdılar. Buna görə də, müsəlman ölkələrindən olan bir çox miqrantlar avtoritar rejimlərin istibdadından sonra nəfəs almağa başlayaraq, nəinki ənənələrə sadiqliyini qoruyub saxlayır, dinə öz vətənlərində olduğundan daha çox bağlanırlar. Bununla yanaşı, islam və müsəlmanların həyat tərzi ilə tanış olmaq imkanı əldə edərək, bu dini qəbul edən yerli avropalıların sayı da artmaqdadır. Bütün bu amillər birlikdə Avropa ölkələrinin dini palitrasında islamın xüsusi çəkisinin artmasına səbəb olur. Bu onun gələcəkdə ictimai-siyasi həyatda nəzərəçarpan amilə çevriləcəyini də vəd edir. Avropalı siyasətçilərin doğma divarlar arasında bu cür proseslərə nəzarət etməyə nə istəkləri, nə də təcrübələri yoxdur. Olduqca təbiidir ki, onlar buna mane olmağa və öz özünəməxsusluğunu qoruyub saxlamağa çalışırlar.

***- Necə düşünürsünüz, milli siyasət vektorunun dəyişməsi Avropa Birliyinin müsəlman ölkələri ilə münasibətlərinə təsir göstərəcəkmi?***

- Zənnimcə, Avropa Birliyi xarici siyasətinin əsas istiqaməti dəyişməz olaraq qalacaq. Onlar milli maraqlarını qoruyacaq və islam dünyasında demokratik dəyişiklikləri dəstəkləyəcəklər. Lakin istisna etmirəm ki, vaxtaşırı müəyyən mübahisələr də yaranacaq. Yadımdadır ki, ötən ilin sonunda Türkiyə və Avstriya münasibətlərində diplomatik qalmaqal baş verdi. Buna Türkiyə səfirinin bəyanatı səbəb olmuşdu. O bildirmişdi ki, Avstriya hökuməti türk gettoları yaratmış və miqrantların Avstriya cəmiyyətinə inteqrasiya etməsinə hər vasitə ilə mane olmağa çalışır. Digər tərəfdən, Avropa və islam dünyası arasındakı münasibətlər Şimali Afrika və Yaxın Şərq ölkələrində baş verən dəyişikliklərdən də asılı olacaq. Almaniya, Böyük Britaniya və Fransa dövlət başçılarının bəyanatlarını göstərilən istiqamətdə nəzərdən keçirmək mümkündür. Ola bilsin ki, müsəlman ölkələrindəki siyasi dəyişikliklər onların iqtisadiyyatlarının yaxşılaşmasına səbəb olacaq ki, bu da öz növbəsində Avropaya mühacirətin azalmasına gətirib çıxaracaq. Bəlkə də mədəni assimilyasiya siyasəti effektiv olacaq və Avropa ölkələrində sosial gərginliyin səviyyəsini aşağı salacaq. Yaxud da bunun əksi baş verəcək – artan miqrant axını mövcud problemləri yalnız kəskinləşdirəcək. Lakin bütün bunlar yalnız gözə çarpan problemlərdir. Texnoloji və hərbi cəhətdən ən çox inkişaf etmiş Qərb sivilizasiyası dərin mənəvi böhran yaşayır. Texnoloji və iqtisadi üstünlüyündən istifadə edən Qərb qalan dünyaya öz həyat və dünyagörüşü standartlarını qəbul etdirməyə çalışır. Bu, inkişaf etməkdə olan və digər ölkələrdə, ilk növbədə, islam dünyasında cavab reaksiyasına səbəb olur. Bunun nəticəsində Qərblə qalan dünya arasındakı texnoloji uçuruma mədəni uçurum da əlavə olunur. Buna görə də, Qərblə qalan dünya arasındakı qarşılıqlı münasibətlərdə yaranan problemlərin sırf siyasi həlli yoxdur. Onlar daha dərində yerləşir və cəmiyyətlərimizin sosial-mədəni əsaslarına toxunurlar. Fikrimcə, siyasətçilər dünyanın irqçilik və əxlaqsızlıq üzərində dayanmadığını nə qədər tez anlasalar, ikili standartlardan nə qədər tez imtina etsələr və tarix qarşısındakı məsuliyyətlərini dərk etsələr, qlobal şüuru yaymaq da o qədər asan olar.

*Müsahibəni apardı:* **İskəndər Quliyev**
*QHTxəbər*
*12. 04. 2011*

# US BANK APPROVES BAKU SATELLITE FINANCING DEAL

*Armtown*
*28 April 2011*

The US Export-Import Bank Wednesday voted to approve a controversial deal to finance Azerbaijan's purchase of an advanced satellite, Asbarez.com reported citing the Armenian National Committee of America (ANCA). I comes just weeks after Azerbaijan threatened to shoot down a civilian airliner. The decision was made despite serious Congressional reservations and strong opposition by the Armenian American community to US actions that will strengthen Azerbaijan's military capabilities at a time of increasing threats and acts of aggression by Baku against both Armenia and Nagorno-Karabakh. "We are troubled that the Export-Import Bank chose to move forward with this ill-advised deal," said ANCAS Executive Director Aram Hamparian. "The Obama Administration's business-as-usual approach with Ilham Aliyev, who has been seriously preparing for war, undermines America's long term interests in stability in this region. We should not, in any way, use American resources to reward warmongering or add to the capabilities of a dictator, who is openly threatening to use every asset at his disposal to renew his country's aggression," he added. "The Bank's written assurance to us, in the form of a letter from its President Fred P. Hochberg, that the satellite 'lack[s] military capabilities' and that it has taken 'appropriate safeguards' to keep this satellite out of the hands of 'military entities,' falls short of the level of transparency that should be required of a highly sensitive deal of this nature. We continue to call upon the Administration to fully disclose this contract, and to publicly reveal the terms of any and all obligations entered into by either the U.S. or Azerbaijani governments regarding this transaction," he continued. The Export-Import Bank approval of this satellite deal follows a long string of broken promises by the Obama Administration on issues related to Armenia and the region. Over the past three months, the ANCA has conveyed the Armenian American community's serious legal, technical and political opposition to this transaction in a series of letters and meetings with senior officials of the Export-Import Bank and the State Department. The firm selling this satellite, known as Azerspace/Africasat-1A, is Orbital Sciences Corporation of Dulles, Virginia. It is being purchased by the Ministry of Communications and Information Technologies of Azerbaijan in Baku, Azerbaijan. The application for Ex-Im financing was made by BNP-Parabis of New York City, and the loan is being guaranteed by Azerbaijan's Ministry of Finance.



# TURKEY AND AZERBAIJAN AGREE ON PURCHASE AND SALE AGREEMENT ON GAS

*Turkey and Azerbaijan agreed on purchase and sale part of the intergovernmental agreement, adding that, however, the parties needed time to work more on transit passages part of the agreement.*

Turkish energy & natural resources minister said on Friday that Turkey and Azerbaijan agreed on purchase and sale part of the intergovernmental agreement, adding that, however, the parties needed time to work more on transit passages part of the agreement.

Speaking at a news conference regarding the Turkey-Azerbaijan Natural Gas Purchase, Sale and Transit Agreement, Energy& Natural Resources Minister Taner Yildiz said the parties carried out the negotiation process on five topics, underlining that they could not agree on every issue.

Yildiz said the teams would maintain talks and noted that a series of agreements would be signed.

He said there would be a transportation agreement regarding intergovernmental agreement, purchase and sale agreement and transit passage of gas, and noted that some agreements were initialed and some of them were about to be initialed.

"We have agreed on the intergovernmental agreement in principle and in detail. We agreed on issues regarding purchase and sale agreements. Transit passage is a 130 page text. We need time to work on it."

Azerbaijani Energy Minister Natik Aliyev said there was no difference of opinion, noting that the parties would negotiate the matters and sign them.

**AA**
*www.worldbulletin.net*
*30 April 2011*



## RUSİYA PREZİDENTİ 2010-CU İLDƏ NƏ QƏDƏR PUL QAZANIB?

*Rusiya prezidenti Dmitri Medvedev mülkiyyət və gəlirləri haqda bəyannaməni açıqlayıb*

Qazeta.ru saytının verdiyi məlumata görə, ötən il onun gəlirləri 3 milyon 378 min 673 rubl (təxminən 121 min 500 dollar) təşkil edib. Dövlət başçısı Rusiyada sahəsi 367,8 kvadrat metr olan mənzilə sahibdir. Onun Rusiya banklarında 14 hesabı var. Sahəsi 4700 kvadrat metr olan torpaq sahəsini isə Medvedev icarə götürüb. Kreml sahibinin mülkiyyətində 1948-ci il buraxılışlı «Pobeda» avtomobili də var.

## ÖTƏN İL DÜNYADA HƏRBİ MƏQSƏDLƏRƏ NƏ QƏDƏR PUL XƏRCLƏNİB?

*Ötən il dünyada hərbi məqsədlər üçün 1,6 trilyon dollar xərclənib*



«Korrespondent»in verdiyi məlumata görə, bu, 2009-cu illə müqayisədə 1,3% çoxdur. Dünya problemlərinin tədqiqi üzrə beynəlxalq institut bildirir ki, 2010-cu ildə hərbi xərclərin ən çox artdığı region Cənubi Amerikadır (5,8%). Avropada bu artım 2,8% təşkil edib. Ən aşağı artım Yaxın Şərqdə (2,5%), həmçinin Asiya və Okeaniyada (1,4%) qeydə alınıb. 2010-cu ildə ABŞ-ın hərbi xərclərinin artım tempi zəifləyib və 2,8% təşkil edib. Bu, 2001-2009-cu illərlə müqayisədə 7,4% azdır. Buna baxmayaraq, ötən il dünyanın hərbi xərcləri içərisində ABŞ-ın payı 43% təşkil edib.

2009-cu ildə olduğu kimi, ötən il də ABŞ hərbi xərclərinin həcminə görə, dünya lideridir. İkinci yerdə Çin, daha sonra Böyük Britaniya və Fransa gəlir. İlk beşliyi Rusiya qapayır. Yaponiya, Səudiyyə Ərəbistanı, Almaniya, Hindistan və İtaliya sonrakı yerləri tutur.

## DÜNYANIN ƏN VARLI İNSANI 1 MİLYARD DOLLAR CƏRİMƏLƏNDİ

*Dünyanın ən varlı adamı olan meksikalı Karlos Slimin şirkəti 1 milyard dollar cərimələnib*

america móvil

"The New York Times" qəzetinin verdiyi məlumata görə, Meksika Federal Komissiyası ölkənin ən böyük telekommunikasiya şirkəti olan "America Movil" və onun törəmə müəssisəsi olan "Raliomovil Dıpsa" (Telcel) şirkətini azad rəqabəti pozmaqda, qanunsuz fəaliyyətdə günahlandırıb.

telcel

"Telcel" rouminq və gələn zənglərə görə tarifləri yüksəltməkdə günahlandırılıb. Şirkət rəhbərliyi cərimələnməsi ilə razılaşmır və məhkəməyə üz tutmağa hazırlaşır.

Qeyd edək ki, "America Movil" Meksikada mobil rabitə sektorunun 70 faizinə nəzarət edir. Meksikalıların 90 faizi "Telcel"-in müştəriləridir.

## OBAMALARIN ÖTƏN İL GƏLİRİ 1.8 MİLYON DOLLAR OLUB

ABŞ prezidenti Barak Obama və birinci xanım Mişel Obama ötən il 1.8 milyon dollar qazanıblar. BBC.com saytının verdiyi xəbərə görə, onların vergi hesabatları göstərir ki, qazancın çox hissəsi prezidentin kitablarının satışından əldə olunub.



Cütlüyün gəlirləri ötən il 2009-cu ildəki 5.5 milyon dollardan və 2008-ci ildə qazandıqları 2.6 milyon dollardan az olub.

Vergi sənədlərində gəlirlərin azalmasının səbəbi kimi, kitabların satış səviyyəsinin aşağı düşməsi göstərilir.

Obamanın ABŞ prezidenti kimi maaşı ildə 395 min dollardır.

Onlar federal və dövlət vergisi üçün 500 min dollardan artıq və 30-dan artıq xeyriyyə təşkilatına 245 min dollar pul ödəyiblər.

## BAŞ NAZİR ÜÇ ULDUZLU OTELDƏ QALDI



*İngiltərənin baş naziri Devid Kemeron və həyat yoldaşı Samanta İspaniyada 120 avroluq otaqda qaldılar...*

Samanta Kemeronun 40 yaşı münasibətilə cütlük İspaniyaya ucuz təyyarə bileti ilə uçub. Övladlarını dayə yanında qoyan baş nazir və həyat yoldaşı İspaniyada lüks otel əvəzinə üç ulduzlu oteldə qalmağa üstünlük veriblər. Onlar cangüdənlərin uzaqdan nəzarəti altında əl-ələ şəhəri gəziblər.

Devid və Samanta Kemeronların aldığı iki tərəfə təyyarə biletinin qiymətinin 152 funt sterlinq (248 dollar), qaldıqları oteldə iki nəfərlik otağın qiymətinin isə 120 avro olduğu bildirilir...

## ƏN XEYİRXAH XALQ HANSIDIR?

*İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı hansı xalqın daha xeyirxah olduğunu müəyyənləşdirmək üçün uzun-uzadı tədqiqat aparıb*

Raut.ru saytının verdiyi məlumata görə, bu zaman insanların qonşudakı yaşlı insana kömək etmək istəyi, görmə qabiliyyəti olmayan şəxsin yolu keçməsinəköməklik, həmçinin ehtiyacı olan insanlara maddi dəstək, hansısa uşağa oxumağı öyrətmək və sair kimi meyarlar əsas götürülüb. Məlum olub ki, ən xeyirxah insanlar ABŞ, İrlandiya, Avstraliya, Yeni Zelandiya və Böyük Britaniyada yaşayırlar.

Əksinə, xeyirxah insanların ən az olduğu ölkə isə Yunanıstandır. Araşdırma göstərib ki, bu ölkədə çətin vəziyyətdə olan insanlara yalnız 13% sakin kömək etməyə hazırdır.

## ŞAHZADƏ KAPİTAN OLDU

*Britaniya şahzadəsi Harriyə Böyük Britaniya Silahlı Qüvvələrinin kapitanı rütbəsi verilib*



İngiltərə mətbuatının verdiyi məlumata görə, o, bu rütbəyə orduda 5 il qulluq etdikdən sonra layiq görülüb. Harri gələcəkdə Əfqanıstanda döyüşlərin getdiyi bölgəyə yollanmaq fikrindədir. Kapitanın 2012-ci ilin yazında Əfqanıstanda əməliyyatlara qoşulacağı bildirilir.

Xatırladaq ki, Harri artıq 2007-2008-ci illərdə Əfqanıstanda hərbi xidmətdə olub.

# AMERİKALILARDA "KORKUNÇ TÜRK" ÖNYARGISI

*20 Mart 2011*
*CNN Türk*



Amerikalı tarihçi Justin McCarthy, Amerikalılarda geçmişte misyonerlerin çalışmaları nedeniyle 'korkunç Türk' imajı ve önyargılar bulunduğunu belirterek, özellikle 1915 olaylarına ilişkin iddialarla savaşmak için Türklerin önce görmek istemedikleri bu önyargıları kabul etmeleri, sonra buna göre mücadele etmeleri gerektiğini söyledi.

McCarthy, ABD'deki Türk çatı kuruluşlarından Türk-Amerikan Dernekleri Asamblesi (ATAA) ve Türk-Amerikan Dernekleri Federasyonu (TADF) tarafından düzenlenen Türk Amerikan Ulusal Liderlik Konferansında yaptığı konuşmada, ABD'de Türklere karşı uzun yıllara dayanan ön yargılar bulunduğunu, bunun özellikle de Ermeni meselesinde daha katı hale geldiğini söyledi.

New York Times'in "1915 yılı olaylarını 'soykırım' olarak nitelendiren 15 kitabın eleştirisine yer verirken, bunun karşıtı hiçbir kitabı ele almadığını" örnek veren McCarthy, ABD üniversitelerindeki ders kitaplarında da 1. Dünya Savaşı, Yunanlılar, Bulgarlar, Ermenilerle ilgili olanlar dahil hemen her konuda Türklerin suçlu gösterildiğini, filmler ve televizyon dizilerinde de bu şekildeki sunumların devam ettiğine dikkati çekti.

McCarthy, Amerikalıların genelde, tarihi ve doğal güzellikleriyle büyüleyici bulsa da Türkiye ve Türkleri "tehlikeli" zannederek Türkiye'ye gelmekten korktuğunu ifade ederek, beyinlerinde, Türkleri karikatürlerdeki koca bıyıklı, büyük bıçaklı insanlar olarak canlandırdıklarını kaydetti. Tarihçi Mccarthy, "Bu, çok komik ama gerçek" değerlendirmesinde bulundu.

### *"Ortaçağ'a dayanan korkunç Türk miti"*

Ermeni konusunda da ABD'deki insanlarla konuştuğunda çoğu kez "herkes Türklerin bunu yaptığını biliyor" cevabını aldığını anlatan McCarthy, herhangi bir soykırım olmadığını belgelerle göstermelerine rağmen, insanların kafalarına yerleştirilen "korkunç Türk miti" nedeniyle bu yanlışa inanışın sürdüğünü söyledi.

McCarthy, Türklere dair "zalim, gaddar ve hükmeden" mitinin, Türklerin "Hıristiyanların düşmanı" olarak görüldüğü Ortaçağ'a dayandığına işaret ederek, bu mitin daha sonra ABD'de de geliştirildiğini söyledi.

Amerikalıların Yunan isyanında, mantıksallığa bakmadan Hıristiyan oldukları için Yunanlıların yanında yer aldığı örneğini veren McCarthy, "Bulgar veya Rusların öldürdüğü Türk sayısı, öldürülen Hıristiyanlardan kat kat fazla olsa da Amerikalılarca bunları hiçbir zaman duyulmadığını, ABD'deki din adamlarının da o dönemlerde Türklere karşı kampanya yürüttüğünü" kaydetti.

Mccarthy, 1800'lerde ABD basınında Türkler için genellikle "barbar, katil, canavar, tiran" gibi ifadeler kullanılan karikatür ve yazılardan örnekler gösterdi.

### *"Türk imajında misyonerler etkili oldu"*

ABD'de özellikle Ermeni meselesiyle ilgili yürütülen kampanyaların, söz konusu Türk imajının yerleşmesini sağladığını belirten McCarthy, o dönem misyonerlerin Amerikalılara "Türklerin, Ermenilerden kendilerinden daha zengin, zeki ve Hıristiyan oldukları için nefret etmesi ve zaten öldürmeyi seven bir millet olması nedeniyle onları katlettiği" yönünde propaganda yaptığını söyledi.

McCarthy, bu konuda Türklerin bebekleri öldürdüğü, kadınları kaçırdığı, Sultanın, kafataslarını biriktirdiği gibi birçok karikatür ile misyonerlerin gönderdikleri "düzmece hikayelerin" sunumunu yaparak, Amerikalılarda, Türkleri o dönem hiç görmeseler bile bu imajlar oluştuğunu ve bu sayede gelişen ön yargının halen devam ettiğini dile getirdi.

### *"Önyargıyı kabullenin ona göre savaşın"*

McCarthy, ABD'deki ön yargının Türklerin de uzun süre bundan şikayet etmemesinden beslendiğine dikkati çekerek, ABD'de, "Yunanlılar, Bulgarlar ve Ermenilerin aksine Türklere ne olduğuna dair doğru düzgün kitap, belgesel, film, TV programı bulunmadığını, Türkiye'ye gittiğinde, insanlardan dedelerinin Balkanlarda, Kafkaslarda öldürüldüğünü duysa da bunu açıkça anlatmadıklarını" ifade etti.

Türklerin de kendilerine karşı bu ön yargıyı görmek istemediğine işaret eden McCarthy, "Artık sadece kanıtları göstermek yetmiyor, biz bunu yıllardır yapıyoruz çünkü bu ön yargı var. Bu konuda bir şey yapmak için, bir defa bu önyargıyı, dar kafalılığı fark etmeniz lazım, ondan sonra bununla savaşmanız lazım" dedi. McCarthy, Türklerin ne yapması gerektiğine yönelik soru üzerine, "Kendinizi ve etrafınızdakini eğitin, okullara, öğrencilere materyaller götürün, Türkiye'nin kültürünü, sanatını, yemeklerini tanıtın. Öğrencilerin karşısına çıkarak aslında kafalarında yarattıkları gibi bir Türk olmadığını gösterin. Kendi hatalarınızı da kabul etmelisiniz, Türkler de insan ve orada bir savaş vardı, ölümler tek taraflı olmadı. Ermeni iddiaları gündeme getirildiğinde çok mütevazi davranmayın, fikirlerinizin sağlam biçimde arkasında durun" diye konuştu.

## PERİNÇEK'TEN YENİ KİTAP: RUS DEVLET ARŞİVLERİNDEN 120 BELGE İLE ERMENİ MESELESİ

*Haberrus*
*21 Nisan 2011*

Mehmet Perinçek, Moskova'da "Rus devlet arşivlerinden 120 belge ile Ermeni meselesi" adlı kitap yayınladı. Tanıtım sırasında Perinçek'i "yalan eser" diye suçlayan Ermeniler'e, Azeri vatandaşlar karşı tepki gösterince törende "tarih duellosu" yaşandı.

"Dom Knijni" kitap mağazasında düzenlenen tanıtımda Perinçek, kitabıyla ilgili bilgi verdi. Böyle bir eseri yazabilmek için uzun süre Rus devlet arşivlerinde araştırma yaptığını anlatan Perinçek, "Gerçekten de tüm belgeleri toplamak kolay olmadı. Ermeni meselesi hem Türkiye hem de dünya kamuoyunda en tartışılan konulardan biri. Ama Rus arşivlerinde bu konuyla ilgili çok kıymetli belgeler var. Çar ve Sovyet yetkilileri, Türkiye'de 1915-1923 yıllarında yaşanan olaylarla ilgili objektif görüşleri ortaya koymuş. Bunların hepsini bu eserimde toplayabildim.... Bu belgelere atfen kitabım sözde Ermeni soykırımının olmadığını kanıtlıyor. O dönem savaş yaşandı ve iki halk birbirini öldürdü. Ama bunun adı soykırım değil" dedi.




Batı'nın Türkiye'yi zayıflatmak için Ermeni meselesini ortaya attığını belirten Perinçek, "Ne zaman Türkiye ve Rusya düşman olduysa, bu batının ekmeğine yağ sürdü. Ne zaman iki ülke işbirliği yaptıysa bu da batının korkulu rüyası oldu" diye konuştu.

Konuşmanın ardından Perinçek'e Ermeni kökenli vatandaşlar soru yönelterek ortamı germeye çalıştı. Bir Ermeni gazeteci, "Ermeni soykırımıyla ilgili milyon belge var. Nasıl bu konuyu 120 belgede toparlayabildiniz? Bu mümkün değil!" diye sorunca Perinçek, "Bende iki binden fazla arşiv belgesi var. Ayrıca Rus, Bolşevik ve hatta Taşnak (ırkçı Ermeni partisi) yetkililerine ait belgeler var. Bunun dışında İkinci Dünya Savaşı'nda Taşnak Partisi'nin Nazilerle işbirliği yaptığı ve Ermeni kökenli ordu kurduğunu kanıtlayan belgeler var" diye yanıtladı.



Bu yanıtın ardından Ermeni vatandaşlar, "İkinci Dünya Savaşı'nın bu konuyla ne bağlantısı var?!" tepkisini gösterince, araya giren Azeri vatandaşlar, "Olmaz olur mu?! O zaman da Ruslar'a karşı silah kullandınız!" yanıtını verdi. Bir Ermeni vatandaş, "Biz Ruslarla hep kardeş olduk!!" diye belirtince bir Azeri, "O yüzden mi 1977 yılında Moskova metrosuna terör saldırısı düzenlendiniz, Rus halkını kana buladınız!" karşılığını verdi.

Bir Ermeni gencin, Perinçek'in arkasında durarak elinde sözde 1915 olaylarıyla ilgili fotoğraf tutması Azerilerin tepkisine yol açtı. Bazı Azeri gazeteciler, "Onu oradan kaldır! Biz de Hocalı soykırımının fotoğraflarını buraya asabiliriz" müdahalesinde bulundu. Azeriler Ermeniler'i provokasyon yapmakla suçladı. Ardından Ermeni vatandaşlar programı terk etti.

Bir Ermeni kadının Perinçek'e, "Hrant Dink'i neden öldürdünüz? Cevap verin? yoksa bunun için de belgeleriniz var mı?" sorusunu yöneltmesi üzerine Perinçek, "Dink ölmeden önce Kürtler'e seslendi. Batının oyununa gelmeyin. 1915'te bizim yaptığımız hatayı yapmayın. Dink'i öldürenin Türk olmadığını düşünüyorum" ifadelerini kullandı. Ermeni kadının "Katili kahraman ilan ettiniz" iddiası üzerine Perinçek, "Ben Dink'in öldürülmesi ve öldüreni savunmuyorum. Ama siz beni ille de savunmaya itiyorsunuz" şeklinde konuştu.

# KANADALI YAZAR: "YABANCI PARLAMENTOLARIN SOYKIRIM KARARLARINI ALMASINI ANLAYAMIYORUM"

*LONDRA, ANKA*
*27 Nisan 201*



"Uzlaşılamamış Farklılıklar. Türkiye, Ermenistan, Azerbaycan" adlı kitabın yazarı, Kanadalı gazeteci yazar Scott Taylor, parlamentoların 1915 olaylarının "soykırım" olduğu yönünde karar vermelerini anlayamadığını belirterek, "Üstelik hiç kimse Ermeni sorunu konusunda arşivleri okuyamıyor. Dışarıdaki parlamentolar bilmedikleri konuda karar almak yerine arşivlerin açılması için gayret gösterseler, hayırlı bir iş yapmış olurlar" şeklinde konuştu. Ottowa merkezli, askeri konularda uzmanlaşmış Esprit de Corp dergisinin kurucusu Scott Taylor, BBC Türkçe tarafından yayımlanan geniş söyleşide "Birçok ülkede parlamentolar ardı sıra 1915 olaylarının soykırım olduğu yolunda karar aldı. Son yıllardaki bu tırmanışı nasıl açıklıyorsunuz" sorusunu yanıtlarken, "Yabancı parlamentoların böyle karar almasını anlayamıyorum" karşılığını verdi. Taylor şöyle devam etti: "Bir Kanadalı olarak ülkemdeki politikacıların yeni ulaşım sistemleri ya da sağlık sistemlerini tartışıyor olması beni daha çok ilgilendirir. Kendi tarihimizi konuşmaktan kaçınırken bir lobi grubu istiyor diye politikacılarımız, muğlak bir durum hakkında karar alabiliyor. Bu konularda geçmişi temiz olup başkasını yargılamaya kalkacak bir ulus var mı acaba? Vikingler mi? Viking vahşetini bilmeyen var mı? Amerikalılar mı? Kendi Kızılderililerine ne yaptıklarına baksınlar." Taylor, üstelik hiç kimsenin Ermeni sorunu konusunda arşivleri okumadığını belirterek, "Dışarıdaki parlamentolar bilmedikleri konuda karar almak yerine arşivlerin açılması için gayret gösterseler, hayırlı bir iş yapmış olurlar. Arşivlerin açılması gerek. Çünkü iki taraf olayı çok farklı anlatıyor" şeklinde konuştu.

## "ERMENİLERE ELEŞTİRİ"

Kitabında anlaşmazlıkların dışarıdan müdahale olmadan taraf ülkeler arasında çözümlenmesini savunduğuna dikkat çekilmesi üzerine Taylor, "Ermeniler, ezilen taraf olarak görülmeyi çok iyi beceriyor. Ama adamına göre tersini de yapabiliyorlar" dedi. Taylor şunları da söyledi: "Mesela benimle konuşurken Azerilere karşı kazandıkları başarıyla övünüyorlar. Dağlık Karabağ'da savaşan birliklere, bölüklere 1915'den önce Osmanlılara karşı savaşmış, tanınmış generallerin isimleri verilmişti. Ama bunun bilinmesini istemiyorlar. Çünkü insanlar bilse, 1915'den önce o Ermeni generali ya da halk nazarında kahraman sayılan askerin Osmanlıya karşı niçin savaştığını sorabilir. O zaman Ermenilerin yaklaşık 100 yıllık bir zaman dilimi içinde Osmanlı'ya isyan ettiği ortaya çıkabilir. Ve bu olaylar sırasında önce Ermenilerin bol bol Türk ve Kürt öldürdüğünü dünya öğrenebilir."

## "UZLAŞMA OLURSA EN KARLI ÇIKAN ERMENİLER OLUR"

Türkiye'nin şu anda önemli bir güç olduğunu, dünyada en hızlı gelişen ekonomiler arasında bulunduğunu söyleyen Taylor. "O zaman insanlar Türkiye'den biraz büyüklük bekliyor. Soykırımı kabul edebileceğini umut ediyor. Türkiye, uzlaşma için yumuşama gösterdi aslında ama Ermeniler, hiç adım atmaktan yana değil. Oysa eski nefretlerin bir faydası yok. Eğer bu konuda bir uzlaşma sağlanabilse en karlı çıkan taraf, Ermeniler olur" değerlendirmesini de yaptı. Scott Taylor, "Soykırımı kabul ettirme ısrarının nedeni, toprak talebinde bulunma niyeti değil mi" sorusuna, "Toprak şanslarını 1920'de yitirdiler. Tam uzlaşma sağlandığı sırada daha fazla toprak talebinde bulunarak antlaşmayı imzalamadılar. Bolşeviklerin Atatürk'ün arkasında olduğunu hesaba katamadılar. Sonunda ne oldu? Moskova ile antlaşan Ankara, Ermenilere bırakılması düşünülen Kars'ı da aldı. Şimdi o zaman kabul etmedikleri antlaşmanın peşindeler. Ama iş, işten geçti" dedi.




## "ÖLDÜRÜLEN TÜRK SAYISI DAHA FAZLA OLA BİLİR"

Scott Taylor, 1915 olayları sırasında ölenlerin sayısına ilişkin bir soruya da "300 bin ile 600 bin ara-

sında söyleniyor ama yüz yıllık zaman dilimi içinde iki taraftan ölenler nüfusa oranlanacak olursa arada fark kalmaz. Hatta öldürülen Türk sayısı daha fazla da olabilir. Çünkü Ermeniler tehcir sırasında açlıktan ve hastalıktan dolayı da öldü. Aynı nedenlerden dolayı Türkler de kırıldı" karşılığını verdi. Olayları açıklığa kavuşması için tüm arşivlerin açılması gerektiğini vurgulayan Scott, "O sırada toplam Ermeni sayısı 1,6 milyon. Şimdi öyle web siteleri var ki ölenlerin 3 milyon olduğunu yazıyor. Bu gidişle yakında, ölen Ermenilerin İkinci Dünya Savaşı'nda öldürülen Yahudilerden daha fazla olduğu ileri sürülecek. Bu da Yahudileri kızdırıyor" görüşünü de dile getirdi.

# AZERBAIJAN GAP ANALYSIS
# STRATEGIC PLANNING & ANALYSIS DIVISION

*E&E Bureau*
*USAID*

Highlights. Of the five Monitoring Country Progress (MCP) indices, Azerbaijan's development progress is below Eurasian average in democratic reforms, well-above Eurasian average in economic performance, and roughly Eurasian average in economic reforms, human capital, and peace & security. In all of the second stage macroeconomic reforms (in governance, the financial sector, infrastructure, and competition policy), as well the first stage reforms in largescale privatization, significant challenges remain. Only Belarus and Turkmenistan trail Azerbaijan in progress towards large-scale privatization. No measurable advances have occurred since 2002 in first stage reforms in Azerbaijan and since 2004 in the second stage reforms.

Well more than a majority of Azeri businesses surveyed in 2008 identified three constraints in particular as problematic: corruption (66% of firms identified it as problematic); tax rates (65%); and access to land (61%). Four business constraints appear to have significantly worsened since 2005: corruption; access to land; access to financing; and the skills and education of the labor force.

Five of the six democratic reform dimensions tracked by Freedom House have backslid significantly since 1999 in Azerbaijan. Independent media and the electoral process reforms have regressed the most. Governance reforms is the one area which saw little net change from 1999 and 2009, though these reforms have been gradually deteriorating since 2003. Civil society is the most advanced area but is still below Eurasian average; independent media and the electoral process are the least advanced. According to Freedom House, of the CEE and Eurasian countries, only Turkmenistan and Uzbekistan have greater corruption than does Azerbaijan.

Azerbaijan's macroeconomic performance exceeds Southern Tier CEE and Eurasia average performance; of the nine Southern Tier CEE countries, only the economies of Bulgaria and Romania outperform Azerbaijan's economy as measured by the MCP economic performance index. However, progress across the economic performance dimensions in Azerbaijan is very uneven; and the effects of Azerbaijan's dependence on oil are very substantial.

Economic growth in Azerbaijan has been exceptional by many standards for most of the transition years. From 2002 to 2010, Azerbaijan's economy expanded by an annual average rate of 16%, well above both global standards and Eastern European standards. Azerbaijan's economy weathered the global economic crisis in 2009 well, due in no small part to its robust oil sector. The oil output share of GDP in Azerbaijan increased from 20% in 1995 to 60% by 2008. Oil exports increased from 40% of total exports in 1995 to more than 95% by 2007. Oil revenues as a percent of total government revenues have grown from less than 10% in 1998 to 75% in 2008. A key variable is the price of oil which experienced a rapid and substantial increase from 1998 to 2008 to historically high levels, followed by a very significant drop in

2009 and significant recovery in 2010. The impact of Azerbaijan's dependence on oil is evident in key indicators of Azerbaijan's integration into the global economy. The volatility in Azerbaijan's current account balance and in foreign direct investment (FDI) flows, even its export share of GDP, has been extraordinarily high. Azerbaijan is highly energy independent by global standards; energy exports are roughly 3.5 times greater than domestic energy use in Azerbaijan. However, energy efficiency in Azerbaijan remains relatively low; output per unit of energy use in Azerbaijan is slightly lower than the global average of 5.8.

*Available as PDF file:*
*http://www.usaid.gov/locations/europe_eurasia/wp/mpc_gap_analyses-azerbaijan_january_2011.pdf*

# YAS MƏRASİMİ İLƏ ƏLAQƏDAR BİD'ƏT HAQQINDA

**Əlirza Balayev,**
*əməkdar jurnalist*

Dünya dinlərinin hər birisi ona qail olanlar üçün üstün və müqəddəsdir. Biz müsəlmanlar da, təbii olaraq, öz islam dinimizi üstün və müqəddəs hesab edərək, onun ayin və ehkamlarına riayət etməyi öz borcumuz bilirik və ya bilməliyik. Lakin hansı ayin və hansı ehkamlar? Məsələ bundadır ki, sanki nəhs bir qanunauyğunluğun hökmü ilə dünya dinlərinin islamdan əvvəlki digər ikisində - buddizm və xristianlıqda olduğu kimi, islamda da əyintilər, sapmalar meydana çıxmış və çıxmaqdadır ki, islam dinində buna bid'ət (***yəni, Peyğəmbərimizin*** ﷺ ***zamanında olmayıb, dində sonradan meydana çıxarılan söz, yazı, üsul və işlər***) deyilir. Bu da bir paradoksdur ki, islam dini ilə heç bir əlaqəsi olmayan saxta ayin və mərasimlər islam qayda-qanunlarına riayət olunmasına nəzarət etməli olan din xadimləri tərəfindən yaradılır, ya da təşviq edilir.

Bid'ətlərdən biri, bəlkə də hər bir ailəyə aid olduğu üçün ən birincisi, yas mərasimi və onunla əlaqədar məsələlərdir. Bu məsələ uzun illərdən bəri müxtəlif zümrələr və xüsusən ziyalılar arasında müzakirə mövzusu olsa da, din xadimlərinin şüurlu laqeydliyi, bəzən hətta inadkarlığı üzündən həllini tapa bilmir.

Yas, təziyə məclisləri dünyadan köçən ailə üzvlərimizin, qohum və dostlarımızın xatirəsini əziz tutmaq və onların ruhunu şad etmək məqsədilə həyata keçirilən mərasimlərdir. Və ölüm həyatın adi və təbii bir gerçəkliyi olduğu kimi, əlaqədar mərasimlərin də sadə və təbii keçirilməsi məqbul olmazmı?!

**Problem yas saxlamağın müddəti; yas mərasiminin necə keçirilməsi; mərhumun ailə üzvlərinin davranışı və əlaqədar olaraq qəbir üstünün necə götürülməsi məsələlərini özündə ehtiva edir.** Və bəri başdan qeyd edək ki, bunların heç birisində islam qayda-qanunlarına nəinki riayət olunmur, onlar hətta kobudcasına pozulur ki, bu zaman açıq-aydın bid'ətə yol verilmiş olur.

Məlumdur ki, Azərbaycanda, o cümlədən Bakıda ehkama çevrilmiş ənənəyə görə, vəfat edənlərə, bir qayda olaraq, uzun müddət yas saxlanır; mərhumun üçü, yeddisi, cümə axşamları, qırxı və ili qeyd olunur. Ailədə, bir qayda olaraq, il ərzində nişan, toy, düyün məclisləri keçirilmir. Uzun müddət yas saxlanmasının bəzən necə acı nəticələrə səbəb olduğuna bir çox ailələrin timsalında hamımız dəfələrlə şahid olmuşuq. Yaxın qohumun vəfatı ilə əlaqədar bir il toy gözləyən nişanlıların nisgili, bəzən həmin müddətdə nişanın pozulması, hətta bir il yas müddəti bitməmiş başqa yaxın qohumun vəfatı ilə əlaqədar daha uzun müddət yas saxlanması kimi hallarla qarşılaşırıq ki, xatirəsini əziz tutduğumuz mərhumun ruhunun bundan şad olacağına inanmaq çətindir.

İslam mahiyyəti etibarilə dərin qəmə, bədbinliyə, matəmə qapılmağın əleyhinədir. İnsani mənəvi dəyərləri küll halında təsbit edən islam dini, eyni zamanda, həyat eşqi aşılayan, nikbinlik təlqin edən bir dindir. Bu barədə Qur'anda əksini tapmış müddəalarla yanaşı, Məhəmməd peyğəmbərin ﷺ bu hədisinə nəzər salmaq kifayətdir: ***"Əgər görsən ki, qiyamət başlayanadək bir xurma ağacı əkməyə vaxtın çatar, onu ək!"*** Həyata bağlılığı bundan dərin və gözəl ifadə etmək mümkünmü?

Bütün dini ədəbiyyatdan məlumdur ki, Peyğəmbərimiz ﷺ öz əmisi Həmzə Seyyidi-Şühəda üçün üç gün yas saxlamışdı. Şəriət nöqteyi-nəzərincə yasın üç gün olduğu məşhur din alimlərinin əsərlərində əksini tapmış, təsbit olunmuşdur. Ağa Bağır Məclisinin "Həyatül-qülub", Şeyx Bəhaəddin Məhəmməd Amilinin "Bistbab" risalələrini və başqa əsərləri misal göstərmək olar. Əlaəddin Hacıgəri "Dürrül-muxtar" əsərində yazır ki, "Dəfndən sonra dua edilir, Qur'ani-kərim oxunur, sonra camaat və meyit sahibi işlərinin başına dağılmalıdırlar. Üç gündən sonra təziyə saxlamaq **məkruh**dur" (***yəni, haram olmayıb, ancaq çarə və imkan olduğu halda işlədilməsi***

*məsləhət görülməyən iş və əməldir*).

Son illərdə Naxçıvan Muxtar Respublikasında bərqərar olmuş qaydaya görə yas mərasiminin cəmi 3 gün olması hər yerdə nümunə götürüləsi gözəl ənənədir. Naxçıvan nisbətən кiçiк şəhər olduğu üçün, deməк olar кi, əкsər insanlar bir-birini tanıyır və 3 gün ərzində hamı yas yerlərində iştiraк edərəк, mərhumun yaxınlarına başsağlığı verir. Sonrakı 7, 40 və il mərasimləri geniş miqyasda deyil, mərhumun daha yaxınlarının iştiraкı ilə (ailə və ən yaxın qohum-qonşu) кeçirilir. Yuxarıda qeyd olunanlar təкcə Naxçıvan şəhərində deyil, Muxtar Respubliкanın rayon və кəndlərində də tətbiq olunur. Yas mərasimləri də «maddi imкanların nümayişi» prinsipi ilə deyil, cox sadə, təm-təraqdan uzaq tərzdə keçirilir.

Başqa möhkəm kök salmış ənənə yas məclislərində təam hazırlanaraq, ehsan verilməsidir. İndiki həyat şəraitində bunun necə məhrumiyyətlər yaratdığının sübuta ehtiyacı yoxdur. Başçısını itirmiş bəzi ailələrin borc edərək ehsan verməsi və sonralar uşaqların boğazından kəsərək, borcu qaytarması halları ilə hamımız qarşılaşırıq. Məgər bundan mərhumun ruhu şad olurmu? Hələ vaxtilə böyük Sabir ürək ağrısı ilə yazırdı:

Vəqta ki, qopur bir evdə matəm,
Təşkil olunur büsati-ehsan.
Ev sahibinin xəyalı bərhəm,
Əfkarı qonaqların fisincan...

Təamla ehsan verməyin də islam qayda-qanunları ilə heç bir əlaqəsi yoxdur. Əksinə, islam yas evində təam yeməyi yox, yas evinə təam aparmağı nəzərdə tutur. Peyğəmbər ﷺ Həmzə Seyyidi-Şühədanın məclisində buyurmuşdu ki, qohum-qardaş və qonşular evlərində təam bişirib, yas sahibləri üçün gətirsinlər. Əlaəddin Hacıgəri "Dürrül-muxtar"da yazır: "Cənazə çıxan evə qonşuların və yaxında yaşayan əqrəbanın yemək göndərmələri **müstəhəb**dir (***yəni, edilərsə savab olan, edilməzsə günah olmayan əməldir***). Cəfəri-Təyyar şəhid olunca, Rəsulullah onun evinə yemək göndərilməsini əmr etdi. Ölü evində təam yemək məkruh və çirkin bir bidətdir." "Dəfndən sonra bir həftə hər gün sədəqə verib, savabını mərhumun ruhuna hədiyyə etmək müstəhəbdir" – dinimizin tövsiyəsi belədir.

Təxminən 15 il əvvəl Bakı kəndlərinin birində baş vermiş hadisəni xatırlayıram. Sakinlərdən biri ailədə vəfat edən olduğuna görə ehsan verməkdən ötrü, bir qədər əvvəl həyəti üçün sifariş verdiyi darvazanın, artıq hazır olmasına baxmayaraq, pulunu geri götürmüşdü. Bu, kənd camaatından gizlin qalmamışdı. Kəndin dindar ağsaqqalları, ziyalıları, məscidin axundu və rəisi də daxil olmaqla bir yerə yığışıb, ehsan verilməməsi haqqında məsləhətə gəlmişdilər. Bundan sonra həmin kənddə axşamüstü qəbir ziyarətinə getməmişdən əvvəl Qur'an tapşırılır, yasin oxunur və qəbir ziyarətindən sonra qapıda başsağlığı verməklə məclis bitmiş hesab olunur, yəni heç bir təam verilmirdi. Lakin bu gözəl başlanğıcdan digər kəndlər nümunə götürmədilər, həmin kənddə də bu yalnız ilyarım-iki il davam etdi və hər şey köhnə məcrasına qayıtdı.

Yas sahiblərinin davranışı məsələsinə gəlincə, burada da bid'ət dərin kök salmışdır. Cənazəni vay-harayla yola salmaq, şivən qoparmaq, üz-göz cırmaq hallarına da rast gəlirik. Ailə üzvləri bunu bəzən şüurlu surətdə, mərhumu olduqca çox istədiklərini (başqaları bunun əksini düşünməsinlər deyə) isbata yetirmək üçün edirlər. Halbuki dinimizin tövsiyələrinə görə, mərhum üçün göz yaşı ilə, ancaq səssiz ağlamaq olar. Vay-haray, şivən qoparmaq bir yana, heç yüksək səslə ağlamaq, matəm tutmaq, qara paltar geyinmək, qara pərdələr asmaq və s. bu kimi əlamətlərdən də istifadə etmək yaramaz. Məhəmməd peyğəmbərin ﷺ bizə gəlib çatmış bir məktubu – Müaz bin Cəbələ oğlunun vəfatı münasibətilə göndərdiyi məktub ibrətamizdir:

*"Allahü-təala səni salamat eləsin! Ona həmd edirəm. Hər kəsə yaxşılıq və zərər yalnız Ondan gəlir. O diləmədikcə, kimsə kimsəyə yaxşılıq və pislik edə bilməz. Allahü-təala sənə çoxlu savab versin, səbr etməyi nəsib eyləsin, Onun nemətlərinə şükr etməyi ehsan etsin.*

*Mütləq surətdə bilməliyik ki, öz varlığımız, mallarımız, sərvətimiz, qadın və uşaqlarımız Allahü-təalanın saysız nemətlərindəndir. Bu nemətləri bizdə sonsuz qalmaq üçün deyil, əmanət olaraq istifadə etmək və sonra hamısını geri almaq üçün vermişdir. Bunlardan müəyyən bir zaman daxilində faydalana bilərik. Vaxtı gələndə, hamısını geri*

*alacaqdır.*

*Allahü-təala nemətlərini bizə verərək sevindirdiyi zaman şükr etməyimizi, vaxtı gəlib geri alarkən üzüldüyümüz zaman da səbr etməyimizi əmr eylədi. Sənin bu oğlun Allahü-təalanın əziz, faydalı nemətlərindən idi. Geri almaq üçün sənə əmanət vermişdi onu. Səni oğlun ilə faydalandırdı, sevindirdi. İndi onu səndən geri alarkən də sənə çoxlu savab verəcək, yaxşılıq edəcək, sənə acıyaraq doğru yolda irəliləməyini, yüksəlməyini ehsan edəcəkdir. Bu mərhəmətə, ehsana qovuşa bilmək üçün səbr etməlisən, Onun elədiyini xoş görməlisən. Qızar, bağırar, çığırarsansa savaba, mərhəmətə qovuşmazsan və sonda peşman olarsan. Yaxşı bil ki, ağlamaq-sızlamaq dərdi-bəlanı geri çevirməz, pərişanlığı dağıtmaz. Səbr etmək, olmuş bitmiş şeyə qızmamaq gərəkdir."*

Məktubun şərhə ehtiyacı yoxdur. Hədislərində müsəlmana həyatı boyu qarşısına çıxa biləcək bütün məsələlərə aid müdrik tövsiyələrini bildirmiş Peyğəmbərimiz ﷺ oğul itirmiş ataya da tək ona yox, hamıya ibrət ola biləcək təskinlik vermişdi.

İslam dininin qaydalarının ciddi surətdə pozulduğu bir məqam da qəbirlərin üstünün götürülməsində, başdaşı qoyulmasında bər-bəzəyə, təmtərağa yol verilməsidir. Dinimiz başdaşlarının üstündə mərhumun şəklinin həkk edilməsini də caiz saymır. İslam müctəhidlərinin əsərlərində bu barədə əsrlərdən bəri yazılırsa da, yenə ən pis bid´ət kimi davam etdirilir. Əgər bunlar vəsiyyət edilmişsə də, yerinə yetirilməməlidir.

Qeyd edək ki, Naxçıvanda qəbirüstü abidələrin və başdaşıların formasında da, bir qayda olaraq, heç bir təmtərağa yol verilmir. Ümumiyyətlə, Muxtar Respublikanın paytaxtında dəfn üçün çox münasib şərait yaradılmışdır. Naxçıvanda mərhum üçün qəbir yeri almaq problemi də yoxdur. Köhnə qəbristanlıqlarda sıxlıq olduğu nəzərə alınaraq, 7-8 il bundan əvvəl Muxtar Respublika rəhbərliyinin göstərişi ilə şəhər ətrafında (köhnə qəbristanlığa lap yaxın olan çox münasib yerdə) xüsusi ərazi ayrılmış, təmizlənib düzəldilmiş, səliqəli şəkildə hasarlanmış, hətta qəbirlərin sıra ilə qazılması üçün xüsusi cərgələrə və damalara bölünmüşdü. Rəhmətə gedən olduqda əraziyə nəzarət edənlərə müraciət olunur. Pulsuz olaraq yer ayrılır, qəbir qazılır. Burada yaxını rəhmətə gedən kimsə əlavə olaraq bir neçə qəbir yerini də "gələcək üçün" boş saxlaya bilməz. Çünki rəhmətə gedənlər kimliyindən asılı olmayaraq burada yalnız bir qayda olaraq sıra ilə dəfn edilir. Bir faktı da deyək ki, həmin ərazidə bir neçə il əvvəl ilk dəfn olunan Xalq yazıçısı, "Şöhrət" ordenli, prezident təqaüdçüsü mərhum Hüseyn İbrahimovun qəbrinin yanında digər sıravi adamlar dəfn olunub.

Dəfnlə əlaqədar Bakı kəndlərinin əksəriyyətində uzun illərdən bəri imkanlı şəxslərin xeyriyyəçiliyi hesabına kəfən və kafurun məscidlərdən pulsuz verilməsi ənənəsi də qeyd olunmalıdır.

Azərbaycan üzrə ümumi mənzərəyə qayıtsaq, yas mərasimi ilə əlaqədar bid'ətin necə geniş yayıldığının və əyintilərin yas mərasiminin düzgünlüyünə nəzarət etməli olanların özləri tərəfindən tətbiq və təşviq edildiyinin şahidi oluruq ki, bu da Peyğəmbərimizin ﷺ sünnətinin (***yəni, Məhəmməd peyğəmbərin ﷺ özünün gördüyü, başqaları tərəfindən görülərkən təriflədiyi, yaxud mane olmadığı işlər və əməllərin***) üstündən qələm şəkilməsidir. Hədisi-şərifdə isə buyurulur ki, **"Sünnətimi tərk edənə şəfaətim haram oldu."** Bid'ətin isə dinin əsaslarını sarsıdan necə bir təhlükə, fəsad olduğunu nəzərə çatdırmaq üçün islam alimi Əbu İdris Həvlani yazırdı ki, **"Dəyişdirə bilməyəcəyim bir bid'əti görməkdənsə, məsciddə söndürə bilməyəcəyim bir atəş görməyi üstün tutaram."**

Yuxarıda yazılanların Azərbaycanın din xadimlərinə bəlli olmadığını düşünmək sadəlövhlük olardı. Müzakirələr Qafqaz Müsəlmanları İdarəsi Qazilər Şurasının fətvasına gətirib çıxarmırsa, məsələ necə həllini tapar? Peyğəmbərimiz ﷺ yenə buyurur: **"Unudulmuş bir sünnətimi meydana çıxarana yüz şəhid savabı vardır."**

*"Bakı-Xəbər" qəzetinin elan etdiyi "İslamda yas mərasimləri və əyintilər" mövzusunda müsabiqəyə təqdim olunur.*

# KOMİTƏ SƏDRİ: "QADINLARDA NİKAH YAŞI QALDIRILMALIDIR"

*"Azərbaycanın qadınlarda nikah yaşının 18-ə qaldırılması ilə bağlı beynəlxalq konvensiya qarşısında öhdəliyi var və bu öhdəliyi də mütləq yerinə yetirməlidir"*

Lent.az-ın məlumatına görə, bu barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Hicran Hüseynova bildirib. O qeyd edib ki, Azərbaycan digər sahələrdə olduğu kimi, mütləq bu nikah məsələsində də öhdəliyi yerinə yetirəcək. Parlamentin Sosial siyasət komitəsinin bu məsələnin hələ tez olması ilə bağlı rəyinə münasibət bildirən H.Hüseynova deyib ki, bunun gec və ya tez olmasına heç kim qərar verə bilməz: "Əsas əhalinin buna münasibətidir ki, hazırda rəhbərlik etdiyim komitə bununla bağlı respublika üzrə iş aparır. Bizim regionlarda Ailəyə Dəstək Mərkəzlərimiz var. Son bir neçə ildə erkən nikahların sayının azaldılması, qeyri-rəsmi nikahların qarşısının alınması ilə bağlı bu mərkəzlər çox iş görüb".

Onun sözlərinə görə, nikah yaşının qaldırılması zamanı qeyri-rəsmi nikahların sayının artmaması üçün bu mərkəzlərin əhali arasında gördüyü işlərlə bağlı ictimai nəzarət də güclü olmalıdır.



Qeyd edək ki, Milli Məclisin Sosial Siyasət Komitəsinin sədr müavini Musa Quliyev Azərbaycanda qadınlar arasında nikah yaşının 18-ə qaldırılmasının hələ tez olduğunu bildirib. Millət vəkilinin fikrincə, bu, indiki halda qeyri rəsmi-nikahların sayının artmasına gətirib çıxaracaq.

Son zamanlar erkən nikaha girənlərin sayının, əsasən, regionlarda daha çox olmasına münasibət bildirən komitə sədri deyir ki, hazırda həmin rayonların adları dəqiqləşdirilir və bu məsələ diqqət mərkəzindədir.

# AZƏRBAYCANDA ƏHALİNİN SAYI 9 MİLYON 137 MİNƏ ÇATIB



2011-ci il aprel ayının 1-i vəziyyətinə Azərbaycan Respublikasının əhalisinin sayı ilin əvvəlindən 25,6 min nəfər və yaxud 0,3 faiz artaraq, 9136,7 min nəfərə çatıb. Milli.Az xəbər portalının Dövlət Statistika Komitəsinin internet saytına istinadən verdiyi məlumata görə, əhalinin sıxlığı bir kvadrat kilometrə 106 nəfər olub. Əhalinin 53 faizi şəhər, 47 faizi kənd yerlərində yaşayır. Ölkə əhalisinin 49,6 faizini kişilər, 50,4 faizini qadınlar, 31,4 faizini gənclər təşkil edir.

2011-ci ilin yanvar-mart aylarında Azərbaycanda 39,0 min, gündə təxminən 434 körpə doğulub, onların 53,8 faizi oğlanlar, 46,2 faizi isə qızlardır. Doğulan uşaqların 408-i əkiz, 3-ü üçəmdir. Hazırda ölkədə əhalinin təkrar istehsalı təmin olunur və uşaq doğmaq qabiliyyətinə malik olan qadınların hər birinə bütün ömrü boyu orta hesabla 2,3 doğulmuş uşaq düşür.

İlin əvvəlindən rəsmi dövlət orqanları tərəfindən ölkədə 15,7 min nikah və 2,3 min boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfəri hesabı ilə 2010-cu ilin birinci rübünə nisbətən nikahların sayı 6,7-dən 7,1-ə qədər, boşanmaların sayı isə 0,9-dan 1,0-a qədər artıb.

2011-ci ilin üç ayı ərzində Daxili İşlər Nazirliyinin müvafiq orqanları tərəfindən Azərbaycana daimi yaşamaq üçün 0,5 min nəfər gələn və 0,1 min nəfər ölkədən gedən qeydə alınıb.

# AZƏRBAYCANDA GƏNC AİLƏLƏRƏ İPOTEKALARIN VERİLMƏSİ QAYDALARI SADƏLƏŞDİRİLƏCƏK

*Azərbaycanda ölkə əhalisinin 31,4 faizini gənclər təşkil edir*



APA-nın məlumatına görə, bu barədə gənclər və idman nazirinin müavini İntiqam Babayev jurnalistlərə açıqlama-sında bildirib.O deyib ki, yeni hazırlanan "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramında gənclərin sosial problemlərinin həlli, məşğulluq məsələləri və gənc ailələrə ipoteka kreditlərinin verilməsi ayrıca bənd kimi daxil edilib: "Bu gün sosial ipoteka üçün ayrılan vəsaitin həcmi mənzil bazarının tələblərinə tam cavab vermir. Hazırda bununla bağlı təkliflər paketi hazırlanır. Eyni zamanda, gənclərin problemlərinin həll edilməsi üçün gənc mütəxəssislərin işlə təmin edilməsi və gənclərin idarəetməyə cəlb olunması nəzərdə tutulur".

İ. Babayev qeyd edib ki, hələlik Azərbaycanda gənc ailə məfhumunun dəyişdirilməsi və bu məfhuma digər statusların əlavə edilməsi ilə bağlı müzakirələr aparılmır. 35 yaşa qədər gənc ailələrin sayı çox olduğuna görə bu sahədə bürokratiyanın qarşısını almaq üçün əvvəlcə bir neçə kateqoriya seçiləcək. Gənc alimlər, Milli Qəhrəmanlar və onların ailə üzvlərindən olan gənclər, beynəlxalq aləmdə yüksək nəticələr qazanan idmançılar, dövlət qulluğunda çalışan gənclər, qaçqın və məcburi köçkün ailələrindən olan istedadlı gənclər güzəştli şərtlərlə ipoteka kreditləri ala biləcəklər.

İ. Babayev qeyd edib ki, hazırda nə qədər gənc ailənin mənzilə ehtiyacının olması dəqiqləşdirilməyib: "Bu məsələ yenidən təhlil olunmalıdır. Azərbaycanda mənzil bazarının dərindən araşdırılmasına böyük ehtiyac var".

# AZƏRBAYCANDA GƏNCLƏR FONDU YARADILACAQ

APA-nın məlumatına görə, bu barədə gənclər və idman nazirinin müavini İntiqam Babayev jurnalistlərə açıqlamasında bildirib. İ. Babayev deyib ki, hazırlanan "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramında Gənclər Fondunun yaradılması nəzərdə tutulub. Artıq fondun əsasnaməsi hazırlanıb, yaxın zamanlarda razılaşdırılmaq üçün müvafiq qurumlara göndəriləcək.

Fond Azərbaycanın gənclər təşkilatlarının ümummilli və beynəlxalq strateji layihələrinə dəstək verəcək. Fonda toplanacaq vəsaitdən elm sahəsində çalışan gənclərin fəaliyyətini stimullaşdırmaq üçün müxtəlif mükafatların və təqaüdlərin təsis edilməsi nəzərdə tutulur.

Eyni zamanda, gənclərlə iş sahəsində maddi-texniki bazanın gücləndirilməsi, dövlət qurumlarında və qeyri-hökumət təşkilatlarında çalışan gənc kadrların hazırlanması da qurumun yerinə yetirəcəyi əsas vəzifələrdəndir.

# DÖVLƏT PROQRAMI İLƏ BAĞLI TƏKLİFLƏRİN MÜZAKİRƏSİ

*Gənclər və İdman Nazirliyində "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı ilə bağlı təkliflər müzakirə olunub*

Gənclər və İdman Nazirliyində Gənclərlə İş üzrə İctimai Şura tərəfindən "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı hazırlanması ilə bağlı müzakirələr aparılıb. APA-nın məlumatına görə, tədbirdə çıxış edən gənclər və idman nazirinin müavini İntiqam Babayev bildirib ki, proqramın hazırlanması ilə bağlı ölkə prezidenti aprelin 6-da sərəncam imzalayıb, dövlət orqanları və gənclər təşkilatlarının nümayəndələrindən ibarət işçi qrup yaradılıb.

Gənclər Proqramının daha effektli fəaliyyət göstərməsi üçün gənclər təşkilatlarının da təkliflərinə böyük ehtiyac olduğunu deyən İ. Babayevin sözlərinə görə, Gənclər və İdman Nazirliyində bu məqsədlə aidiyyatı qurumların nümayəndələrindən ibarət işçi qrup yaradılıb. Nazirliyin internet saytında gənclərin təkliflərini qəbul etmək üçün xüsusi elektron poçt fəaliyyətə başlayıb.

İ. Babayev gəncləri Dövlət Proqramının hazırlanmasında fəal iştirak etməyə çağırıb. Dövlət Proqramının əsas iştirakçıları gənclər olacaq. Buna görə də, səslənən təkliflər gənclərin marağını əks etdirməlidir.

Nazir müavini onu da qeyd edib ki, Dövlət Proqramında Azərbaycanda gənclər mərkəzinin yaradılması da nəzərdə tutulub: "Gənclərin asudə vaxtının təşkili, müxtəlif aksiyaların təşkil edilməsi üçün beynəlxalq standartlara cavab verən Azərbaycan Gənclər Mərkəzi inşa ediləcək".

# KİTABXANAMIZIN YENİ KİTABLARI




Qarabağ yaddaş. – Bakı: MHS-poliqraf, 2010. – 192 s.
– ISBN 978-9952-459-01-2

Məmmədli V. Atropatena dastanı : epos – trilogiya. – Bakı: Zərdabi LTD, 2010. –272 s. – ISBN 978-9952-460-03-2




Kramer S. Tarix Şumerdən başlanır. – Bakı: Kazımi P.F., 2009. – 280 s. – ISBN 5-02-016729-0







Yusif A. İstiqlal yürüşü-1918. – Bakı: Altun kitab. 2009.
– 416 s. – ISBN 978-9952-24-041-2




Məmmədov F. Kulturologiya : effektivli həyat və fəaliyyətə aparan yol kimi. – Bakı: Çıraq. 2008. – 400 s.
– ISBN 5-87459-245-8

The people the world forgot : visions of the Nagorno-Karabakh conflict.– Baku: CBS Polygraphic. 2009. –179 p.
– ISBN 978-9952-806-830




Məmmədov T. Koroğlu aşıq havaları. – Bakı: Apostrof. 2010.
–376 s. –ISBN 978-9952-444-30-8






İsaxanlı İ. Klassik rus poeziyasından nümunələr İsaxanın tərcüməsində. – Bakı: Xəzər Universiteti Nəşriyyatı. 2011. – 96 s.
– ISBN 978-9952-20-64-5



## YAŞIL ÇAY RADİASİYADAN QORUYUR

Gündə cəmi iki fincan yaşıl çay kompüterlərin monitorlarından gələn radioaktiv şüaların təsirini minimuma endirə bilər. Çin tədqiqatçıları hesab edirlər ki, mütəmadi yaşıl çay içmək kompüter qarşısında çox işləyən adamların sağlamlığını qorumağa kömək edir.

Yaşıl çayın sağlamlığı qoruyan xassələri vardır. Bu faktı bütün iş gününü kompüter qarşısında keçirən könüllülərin iştirakı ilə aparılan tədqiqatların nəticələri göstərmişdir. Sən demə, yaşıl çay yarpaqlarında ofis texnikasından gələn radiasiyanın və şüaların mənfi təsirini azaldan elementlər vardır. Yaşıl çay əsas antioksidantı sayəsində DNT-ni radioaktiv şüaların təsiri ilə bağlı zədələnmələrdən S vitamini ilə müqayisədə 100 dəfə güclü qoruyur.

Ekspertlər hesab edirlər ki, kompüterlərin mənfi təsirini minimuma endirmək üçün ofis işçilərinin gündə iki fincan yaşıl çay içməsi çətin məsələ deyildir. "Fukusima-1" AES-də yaranmış vəziyyətlə əlaqədar radioaktiv təsirdən belə müdafiə vasitəsi hazırda Yaponiyada çox aktualdır. Yaşıl çay Yaponiyada çox geniş yayılmışdır. Yaponların əksəriyyəti müntəzəm olaraq bu faydalı çayı içir.

## SÜD MADDƏLƏR MÜBADİLƏSİNİN POZULMASININ QARŞISINI ALIR



Süd, pendir, yoqurt və kərə yağının tərkibində olan transpalmitolein turşusu diabetin ikinci tipinin inkişafının qarşısını alır. 3700 könüllünün iştirakı ilə aparılan eksperiment göstərmişdir ki, qanda bu maddənin yüksək olması xolesterinin və insulinin səviyyəsinin, habelə insulinə qarşı həssaslığın göstəricilərini normallaşdırır. Diabet riski təxminən üç dəfə azalır. Transpalmitolein turşusu insan orqanizmində hasil olunmadığı üçün qida, xüsusən süd və süd məhsulları vasitəsilə qəbul edilir.

Ekspertlər, eyni zamanda, süd məhsullarına çox aludə olmağı məsləhət görmürlər. Süd məhsullarının tərkibi kifayət qədər çox yağlı olduğu üçün artıq çəkiyə gətirib çıxarır. Arıqlamaq istəyənlər əsas etibarilə yağsız süd, kəsmik, qatıq və yoqurt növlərinə müraciət etməlidirlər.



## GÖRMƏ QABİLİYYƏTİNİ QORUYUB SAXLAMAQ ÜÇÜN BALIQ YEMƏK LAZIMDIR

Son təcrübələr göstərir ki, həftədə 1-2 dəfə balıq yeyən qadınların yaş ötdükcə görmə qabiliyyətinin zəifləməsi riski yarıbayarı azalır.

Balığın tərkibindəki omeqa-3 yağ turşusu təkcə arıqlamaq istəyənlər üçün faydalı deyildir. Bu həm də gözün tor qişasındakı sarı ləkənin (bu sahə tor qişada görmə qabiliyyətinin itiliyinə cavabdehdir) yaşla əlaqədar degenerasiyasının qarşısını alır. Ahıl yaşlı qadınlar görmə qabiliyyətlərinin zəifləməməsi üçün həftədə bir-iki dəfə balıq yeməlidirlər. Kişilərin görmə qabiliyyəti üçün balığın faydası artıq təsdiq olunmuşdur.

Alimlərin 10 il müddətində 38 min qadın üzərində apardığı tədqiqatlar göstərmişdir ki, sarı ləkə həftədə 2 dəfədən az balıq yeyən qadınlarda daha çox degenerasiyaya uğramışdır.

Tədqiqatın rəhbəri, Harvard tibb məktəbinin doktoru Uilyan Kristenin sözlərinə görə, "tünd ət"i olan balıqlar - qızıl balıq, sardina, skumbriya və başqaları bu baxımdan daha faydalıdır.

## QAYĞANAQ İDEAL SƏHƏR YEMƏYİDİR



Toyuq yumurtasının qidalılığının insan orqanizminə təsirini öyrənən ABŞ alimləri belə qənaətə gəlmişlər ki, səhər qayğanaq yemək çox faydalıdır.

Aşkar edilmişdir ki, müntəzəm surətdə yumurta yemək sağlamlığa, yaxşı fiziki formaya və yüksək intellektual səviyyəyə çatmağa kömək edir. Eyni vaxtda, gündəlik rasionda olan bu qida artıq çəki yaratmır.

Tərkibində çoxlu miqdarda vitaminlərin və mikroelementlərin olduğuna görə yumurtanı "super-yemək" adlandırmaq olar. Yumurta proteinlərlə, D və B12 vitaminləri, metallarla zəngindir. Yumurtada çoxlu amin turşuları və antioksidantlar vardır.

Nəticədə, günə adi yumurta yeməklə başlayan insan iş günü üçün vacib olan bioloji impuls alır, bu da işin öhdəsindən layiqincə gəlməyə kömək edir.



## VEGETARİAN PƏHRİZ DAMARLAR ÜÇÜN TƏHLÜKƏLİDİR

Belə görünə bilər ki, vegetarian rejim ürək-damar sistemi üçün optimaldır: vegetarian pəhriz saxlayan şəxslər, adətən, artıq çəki toplanırlar. Əslində isə, vegetarian insanlar tez-tez ateroskleroz və tromboz xəstəliklərinə tutulmaq riski ilə üzləşirlər. Alimlər son 30 ildə vegetarianlığın biokimyasına dair dərc olunmuş məqalələri təhlil edərək, bu nəticəyə gəlmişlər.

Düzdür, çoxlu ət yeyən insanların damarları böyük təhlükə ilə üzləşir. Lakin heyvandarlıq məhsullarından tam imtina edilməsinin özü də düzgün deyildir: ət, balıq və süd qəbul etməyənlər az təhlükə ilə üzləşmirlər. "Kənd təsərrüfatı və qida kimyası" jurnalında dərc olunmuş vegetarianlıq haqqında məqalənin müəllifi Duo Li qeyd edir ki, vegetarian pəhrizdə bir çox lazımi mikroelementlər (dəmir, sink, B12 vitamini və Omeqa-3 piy turşuları) çatışmır. Əvəzolunmaz piy turşuları xüsusi problem yaradır: tarazlaşdırılmış, tərkibində kifayət miqdarda zülal olan vegetarian rasionunda piy turşuları çatışmır; deməli, qanda homosisteinin səviyyəsi artır, yüksək tutumlu, "yaxşı" xolesterinin səviyyəsi isə azalır, bu da ürək-damar problemləri yaradır. Buna görə də, vegetarian pəhrizin insanın orqanizminə zərər yetirməməsi üçün Omeqa-3 piy turşularını və B12 vitamini qəbulunu artırmaq vacibdir.

Omeqa-3 piy turşuları balıq, qoz, habelə bitki yağlarında kifayət qədərdir. B12 vitamini əsasən heyvandarlıq məhsullarında (dəniz məhsulları, yumurta və süd məhsullarında) olur. Belə ki, vegetarian pəhriz saxlayan insanlar bu kəsiri aradan qaldırmaq üçün xüsusi əlavə qidalar qəbul etməlidirlər.

## HƏKİMLƏR XƏBƏRDARLIQ EDİRLƏR: TELEVİZOR SAĞLAMLIĞINIZ ÜÇÜN TƏHLÜKƏLİDİR



Siz ekran qarşısında neçə saat keçirirsiniz? Əgər gündə iki saatdan artıq televizora baxırsınızsa – sağlamlığınızın pozulması riski ilə üzləşirsiniz.

Həkim Emmanuel Stamatakisin başçılıq etdiyi Böyük Britaniyanın bir qrup həkimi 4 il müddətində 4512 yaşlı pasiyentin vəziyyətini müşahidə etmişdir. Tədqiqatçılar bildirmişlər ki, televizor proqramlarını 2 saatdan çox izlənilməsi ürək-damar xəstəlikləri riskini 48 faiz artırır. Televizor önündə 4 saatdan artıq oturan mavi ekran həvəskarları isə 125 faiz çox risklə üzləşirlər. Ürəklə bağlı problemlərin sirrini siqaret çəkilməsi, hipertoniya, çəkinin həddindən çox olması ilə əlaqələndirmək düzgün deyildir: bu tendensiya insanın sağlamlığı və həyat tərzi ilə bağlı digər vəziyyətlərdən asılı olmayaraq özünü büruzə verir. Alimlər bu qanunauyğunluğu metabolik və soyuqdəymə halları ilə izah edirlər. Demə, mavi ekran qarşısında keçirilmiş artıq saatlar qanda iltihab prosesini artırır.

# MOZAİKA



## BİR GÜNDƏ 5 DƏFƏ ÖLDÜ

*Honkonqlu aktyor rekord vurub*

Honkonqdakı TVB telekanalı qeyri-adi rekorda nail olub. Az qala bütün yerli teleseriallarda çəkilən populyar aktyor Lo Lok-Lam teletranslyasiyanın bir sutkası ərzində müxtəlif filmlərdə 5 dəfə ölüb.

Lo Lok-Lamın qəhrəmanları sutka ərzində "Relic of an Emissary", "Grace Under Fire", "Fate to Fate", "Virtues of Harmony" və "Police Station №7" seriallarında dünyasını dəyişib.

Ən "möhtəşəm" ölüm "Relic of an Emissary" serialında olub. Lo Lok-Lam bu filmdə Çindəki Min sulaləsinin banisi Çju Yuançjanın obrazını yaradıb.

Aktyor qəhrəmanlarının ekranda ölümündən narahat olmasa da, Lok-Lamın qızı atasının "ölən personaj"ları tez-tez oynamasından narazıdır.

## NƏ "HƏLİM"SƏN, RUS AYISI...

*Primorsk şəhərindəki zooparkda saxlanan erkək ayı indiyədək yayılmış təsəvvürləri alt-üst edib*



Rusiyanın Primorsk şəhərindəki zooparkda saxlanan ayı ailəsi tamaşaçılarla yanaşı, alimlərin də diqqətini cəlb edib.

Balu adlı erkək ayı "arvad"ı Diva və oğlu ilə birlikdə mehriban ailə həyatı yaşayır. Halbuki təbiətdə erkək ayılar bir qayda olaraq balalarına düşmən kəsilir, hətta imkan düşəndə onları parçalayıb yeyirlər.

14 yaşlı Balu isə tam əksinə, balasını çox sevir.

Zooparkın direktoru Yelena Asadullina da erkək ayının davranışına mat qalıb.

"Balunu görənə qədər əsla düşünməzdim ki, erkək ayı ailəsini belə sevə bilər. Ana ayılar balasına çox bağlı olur, ata ayı isə əksinə, balasını sevmir. Hətta ana ayı balasını atadan qorumaq üçün hər şeyi edir. Balu isə fantastikadır - o, balasını elə həlimlik, elə nəvazişlə sevir ki, baxanda mat qalıram", - 34 yaşlı Asadullina deyib.

## İRANDA İT GƏZDİRMƏK YASAQ EDİLƏ BİLƏR



İRNA bildirir ki, İran parlamentinin 39 deputatı yeni qanunverici təşəbbüslə çıxış ediblər. Onlar küçələrdə it gəzdirənlərin köpəklərinin müsadirə edilməsini, üstəlik cərimələnməsini tələb edirlər. Qanun layihəsi şəhərlərdə it saxlamağın qadağan edilməsini və cinayət sayılmasını da təklif edir.

Küçədə it gəzdirənlərin 1-5 milyon İran riyalı (100-500 dollar) məbləğində cərimələnməsi istənilir.

Müşahidəçilər hesab edirlər ki, qanun layihəsinin parlamentdə təsdiqlənmə ehtimalı çox böyükdür.

# ELIZABET TEYLORUN 150 MILYON DOLLARLIQ ƏŞYALARI SATIŞA ÇIXARILACAQ



Keçən ay vəfat etmiş aktrisa Elizabet Teylorun bəzək əşyaları və geyimləri hərraca çıxarılacaqdır. Onun əşyaları Kristi Hərrac Evində satılacaqdır. Daş-qaşların təxmini qiymətinin 150 milyon dollar olduğu bildirilir. Elizabet Teylor təkcə gözəlliyi ilə deyil, zinət əşyaları və ərləri ilə də diqqət mərkəzində olmuşdur. Teylorun daş-qaşlara olan sevgisi onu 2002-ci ildə hətta kitab yazmağa məcbur etmişdir. "Daş-qaşa sevgim" adlı kitabında o, ən bahalı aksessuarlarından bəhs etmişdir.

Onun daş-qaşları arasında ən məşhuru həyat yoldaşı Riçard Bartonun bağışladığı brilyantdır. 69,42 karatlıq armudu brilyant "Bartn-Teylor" adı ilə tanınır.

Digər bahalı aksessuar isə Krupp brilyantıdır. 33 karatlıq brilyant haqqında Teylor belə deyib: "Krupp mükəmməl bir daşdır. İçindən işıq keçəndə həyat enerjisi ilə parıldamağa başlayır. Ölçü vacib deyil, içindəki hiss vacibdir".

Qeyd edək ki, Teylor sağ olanda da bəzi qiymətli əşyalarını hərraca çıxarmış, gəlirlərini isə xeyriyyə məqsədi ilə istifadə etmişdir.

# YAPONİYA SAHİLLƏRİNƏ PULLA DOLU SEYFLƏR ÇIXIR...

*Yaponiyada martın 11-də baş vermiş güclü sunaminin yuyub apardığı yüzlərlə seyf dalğalar vasitəsilə sahillərə çıxır*



«Associated Press»in verdiyi məlumata görə, xüsusilə yaşlı nəslin nağd pullarını bankda deyil, seyflərdə saxlaması okean sularına qərq olmuş yüzlərlə seyfdə xeyli pulun olduğunu söyləməyə əsas verir.

Polis sahilə çıxmış seyfləri sahiblərinə qaytarmağa çalışır. Amma bu, o qədər də asan deyil. Seyflərin kimə məxsus olduğunu müəyyənləşdirmək çətindir. Üstəlik, onların bir hissəsinin sahibi təbii fəlakət zamanı dünyasını dəyişib

İndiyədək çox az sayda seyfin sahibi tapılıb və o, yiyəsinə qaytarılıb.

# ƏN CAZİBƏDAR... DƏVƏ

*Dubayda qeyri-adi gözəllik müsabiqəsi keçirilib*



Milli.Az xəbər portalının Rusiya mətbuatına istinadən verdiyi məlumata görə, münsiflər heyəti qadınların deyil, dəvələrin cazibədarlığını qiymətləndirib. Yarışa Birləşmiş Ərəbi Əmirlikləri ilə yanaşı, Səudiyyə Ərəbistanı, Küveyt, Oman, Bəhreyn və Qətərdən olan heyvanlar qatılıb. Ümumilikdə «gözəllər gözəli» adı uğrunda 10 min dəvə mübarizə aparıb.

Ən gözəl və cazibədar dəvənin sahibi mükafat olaraq nə az, nə çox – düz 10 milyon dollar qazanıb.

# "FACEBOOK"UN TAM TƏRSİ YARADILIB

*Bu servis sosial yox, asosial şəbəkədir*

"USA Today" bildirir ki, internetdə insanları "dostluq" yox, maraqlar əsasında birləşdirməyə cəhd göstərən "Hobius.com" adlı asosial servis yaradılıb.

"Hobius"un yaradıcıları onu "Facebook"un tam tərsi, bütün bloq-platformalar və sosial şəbəkələrin antipodu sayırlar. "Hobius" zahirən sosial şəbəkələrə bənzəsə də, o paradoksal dərəcədə asosialdır. Burada "frend" və ya "follover"lər, "dostların lenti", qrup və birliklər yoxdur. Olan yalnız istifadəçiyə maraqlı əşyalar və ya ünsürlər barədə mövzu axınıdır.

İdeya sadədir. Əsas məqam istifadəçini maraqlandıran mövzudakı kontentdir. Həmin kontenti kimin yazdığı isə əsla vacib deyil.

"Hobius"da maraqlar siyahısını həmişə aktiv saxlayan istifadəçi heç bir əlavə məlumat olmadan öz informasiya axınını əldə edir.

# MARAQLI



## AVTOMOBİL QİYMƏTİNƏ TƏYYARƏ

*Finlandiyalı aviamühəndis Aki Suokas birnəfərlik uçan aparat hazırlayıb*

"Mignews.com" saytının verdiyi məlumata görə, FlyNano aparatının korpusunun uzunluğu 3,8 metr, qanadlarının uzunluğu 4,8 metrdir.

Pilot yerinin üzəri açıqdır, oturacağın altında isə mühərrik yerləşir. Aparat su üzərində uçur və suya da enir. Bu kiçik təyyarəni minik avtomobilinin qiymətinə almaq mümkündür.

## BİR AİLƏDƏ İKİ ƏKİZ FENOMENİ

*Böyük Britaniyada dünyada nadir rast gəlinən hadisə baş verib*





"Daily Mail" bildirir ki, Böyük Britaniyada dünyada çox nadir hallarda rast gəlinən hadisə baş verib. Davud və Treysi Baqeban ailəsində ikinci dəfə əkizlər doğulub. Hadisənin nadir olması budur ki, onlar üç il əvvəl doğulan əkizlərlə eyni gündə, fevralın 27-də dünyaya gəliblər.

Belə hadisə isə 17 milyon doğuşdan birində olur.

Dieqo və Armani əkiz qardaşlarının əkiz bacıları Dolçe və Eliza identik əkizlər sayılır.

Ginnesin Rekordlar Kitabının ekspertləri bildiriblər ki, Britaniyada yalnız 2 belə əkizlər var.



## MİLYARDER YAZIÇI BAĞINDA DAXMA TİKDİRİB

*Harri Potterin "ana"sı nağıl personajlarına olan sevgisinin artdığını deyir*

"Guardian" xəbər verir ki, Harri Potter barədə nağıllar seriyasının müəllifi, britaniyalı yazıçı Coan Roulinq malikanəsinin bağında koma tikdirib.

Edinburq şəhərinin yaxınlığında yerləşən və renessans stilində olan malikanənin həyətində Potter barədə nağıllardakı Hoqridsin koması eynən təsvir edildiyi formada tikilib.

"Nağıllarımın qəhrəmanları Harri, Ron və Germiona tez-tez bu komaya baş çəkiblər. Beladirsə, niyə o koma həyətimdə olmasın ki?" - Roulinq deyib.

# 9 YAŞLI QIZ İLANLARLA YATIR-DURUR

*Onların dostluğunu görənlər şoka düşür*







"Kral kobrası" dünyanın ən zəhərli, qəddar və təhlükəli ilanlarından biri sayılır. Bu kobra özü kimi ilanları, xüsusilə də kobraları yeməklə, habelə çaldığı insanı dərhal öldürməklə tanınır. Üstəlik, bütün kobralardan fərqli olaraq, kral kobrası heç bir səbəb olmadan insana hücum edir və aqressivliyi ilə seçilir.

Amma Hindistanda bu ilanı ram edən də var.

"Asia Online" bildirir ki, Hindistanın Uttar Pradeş ştatındakı Qatampur kəndində yaşayan 9 yaşlı Kajol Xanın ən səmimi, sadiq və yaxın dostları məhz iki kral kobrasıdır.

Balaca Kajol "dost"larını boynuna salıb kəndin tozlu küçələrini dolaşanda camaat pərən-pərən düşür.

"Onlar çox mehribandırlar, əsl dostlarımdır. Onlarla vaxtımı şən keçirirəm. Hərdən dişləyirlər. Dişləyəndə bərk ağrıdır. Amma günah məndə olur, çünki onları cırnadanda hirslənirlər", - Kajol deyir.

Atası və babası ilan ovsunçuları olan balaca Kajolun məharətinə Hindistanın ən məşhur "ilan rəqqas"ları da mat qalıblar. Onların dediklərinə görə, həddən ziyadə aqressiv olan kral kobraları ilə belə davranan insanı indiyədək görməyiblər.

Kajolun atası, 55 yaşlı Tac Məhəmməd 10 yaşından bəri ilan tutmaq və "ovsun"lamaqla məşğuldur. O, ustalığını 28 yaşlı oğlu Qulaba öyrədib.

"Qızımın belə heyrətamiz ustalığa malik olacağını ağlıma belə, gətirə bilməzdim. Amma belə davam etsə, qızımın ailə qurması çətin iş olacaq. Axı bütün günü ilanlarla yatıb-duran qızı kim alar?!", - ata deyib.

Balaca Kajolu isə kənd məktəbindən çıxarıblar. Sən demə, o, dərslərdən birinə çantasında ilanlarını aparıbmış.



# MƏŞHUR AKTYOR QIZININ AD GÜNÜNƏ 5 MİLYON DOLLAR BAĞIŞLADI

*Hollivud ulduzu Tom Kruz qızı Keti Holmsa 5 yaşının tamam olması münasibətilə 5 milyon dollar hədiyyə edib*

Rusiya KİV-in verdiyi məlumata görə, Kruz bu məbləği artıq xeyli pulun toplandığı xüsusi hesaba köçürəcək.

«Artıq həmin fondda bir neçə milyon var. Qızın 18 yaşı bitdiyi gün bu hesab onun üzünə açıq olacaq», - deyə Kruz ailəsinə yaxın şəxs bildirib.

# YA SAQQAL, YA FUTBOL

*Futbolçunun qarşısına belə şərt qoyulub*

"İnterfaks" bildirir ki, Tacikistanın futbol üzrə ölkə çempionatının oyunçularından biri cəzalanıb. Vəhdət şəhərinin "Hayr" klubunun oyunçusu Pərviz Tursunov saqqal saxladığı üçün diskvalifikasiya edilib.

Komandanın baş məşqçisi Tohir Muminovun dediyinə görə, Tursunov müdafiə və hücumda oynaya bilən unikal futbolçudur.

"Onun oyununa iradımız yoxdur. Amma saqqalına görə Daxili İşlər Nazirliyi ilə problemləri yaranıb", - Muminov söyləyib.

Tursunov isə bildirib ki, futbolla saqqal arasında seçim etmək ehtiyacı yaranarsa, saqqalı seçəcək: "Futbol fani məsələdir. Mən isə mömin müsəlman olduğumdan əbədi məsələləri düşünürəm".



# VÜQAR HƏŞİMOV ALMANİYA BUNDESLİQASININ ƏN YAXŞI ŞAHMATÇISI HESAB EDİLMİŞDİR

Almaniyada 2010-cu ilin oktyabr ayından keçirilən Bundesliqa-komanda şahmat yarışı aprelin 11-də başa çatmışdır.

Bundesliqanın 2010-2011-ci illər şahmat yarışında 30 mümkün xaldan 29 xal ( 92-I şəxsi) toplamış Baden-Badenin OSG komandası qalib gəlmişdir. Komandanın heyətinə Vişvanatan Anand (Hindistan), Maqnus Karlsen (Norveç), ispaniyalı Aleksey Şirov, rusiyalı Peter Svidler və digər güclü şahmatçılar daxil edilmişdi.

AzərTAc xəbər verir ki, "Verder" (Bremen) komandası 25 xalla (79-u şəxsi) Almaniyanın vitse-çempionu olmuşdur. Həmin komandanın heyətində Azərbaycan şahmatçısı Vüqar Həşimov, ukraynalılar Pavel Elyanov və Zaxar Yefimenko, Fransa idmançısı Laurent Fressinet və başqaları çıxış etmişlər. Üçüncü yeri Eppingen şəhərinin idman klubu (25-74,5) tutmuşdur. Komandanın heyətində sonuncu turda ingiltərəli Lyuk Makşeynə uduzmuş Azərbaycan şahmatçısı Namiq Quliyev də mübarizə aparmışdır. Vüqar Həşimovun komandası sonuncu turda Eppingen şəhəri komandasına 7:1 hesabı ilə qalib gəlmişdir.

Qeyd edək ki, Vüqar Həşimov Almaniya Bundesliqasının ən yaxşı şahmatçısı hesab edilmişdir. Altı mümkün xaldan 5 xal toplamış Həşimov ən yaxşı reytinq-perfomans (2918) əldə etmişdir.

# AZƏRBAYCAN ALPİNİZM FEDERASİYASININ PREZİDENTİ KANÇENCANQA ZİRVƏSİNƏ QALXMADA İŞTİRAK EDİR



Aprelin 11-də Katmanduda beynəlxalq ekspedisiya dünyada hündürlüyünə görə Everestdən və K-2-dən sonra üçüncü olan Kançencanqa zirvəsinə qalxmağa başlamışdır.

Tanınmış Rusiya alpinisti Aleksey Bolotovun rəhbərliyi ilə Azərbaycan Alpinizm Federasiyasının prezidenti İsrafil Aşurlu, Sankt-Peterburqdan Nikolay Totmyanin, Novosibirskdən Qleb Sokolov, rumıniyalı Aleks Qavan, italiyalılar Mario Panzeri və Antonello Martines, polşalı Pavel Mixalski hündürlüyü 8586 metr olan həmin zirvəyə qalxırlar. Oksigensiz dağaqalxma iki ay müddətinə nəzərdə tutulmuşdur.

İdmançılar " Qışda K-2 zirvəsinə qalxma" ekspedisiyasına hazırlıq kimi Kançencanqanın əsas zirvəsinə qalxmağı planlaşdırmışlar.

Kançencanqa səkkiz min metrdən çox hündürlüyü olan zirvələr arasında qalxma üçün ən mürəkkəbidir. Rel-yefin mürəkkəbliyi ilə yanaşı iqlim xüsusiyyətləri də çətinlik yaradır. Dənizə yaxınlıq iqlimə öz təsirini göstərir, hava dəyişkəndir və tez-tez pisləşir. Kançencanqa "böyük qarların beş sərvəti" deməkdir, çünki massiv beş zirvədən: Baş, Cənubi, Orta, Qərb və Kanqbaçen zirvələrindən ibarətdir.

Kançencanqaya ilk dəfə isə 1955-ci il mayın 25-də Co Braunun və Corc Bendın rəhbərliyi ilə Böyük Britaniya alpinistləri qalxmışlar.

# QADIN GİMNASTLARIMIZ 4 MEDAL QAZANMIŞLAR

Azərbaycanın gənc gimnastları Polşa turnirində olduğu kimi, Türkiyənin Antalya şəhərində keçirilmiş yarışlarda da yüksək nəticələr göstərmişlər.

İki gimnastımızın səyi ilə 3 medal əldə edilmişdir. Ləman Hacızadə 1999-cu ildə anadan olmuş idmançıların turnirində uğurla çıxış etmiş, çoxnövçülükdə qızıl medala layiq görülmüşdür. Ölkəmizə daha bir qızıl medalı 13 yaşlı Gülsüm Şəfizadə qazandırmışdır. O, lentlə hərəkətlərdə birinci yeri tutmuş, mütləq hesabda isə yarışların gümüş mükafatçısı olmuşdur.

Azərbaycan milli komandasının lideri Aliyə Qarayeva Fransanın Tye şəhərində keçirilmiş qran-pri mərhələsi yarışlarını bürünc medalla başa vurmuşdur.

Azərbaycan yığmasının baş məşqçisi Mariana Vasilyeva yetirmələrinin nəticələrindən qazı qalmışdır.

# LONDON OLİMPİADASININ HİMNİNİ KİM BƏSTƏLƏYƏCƏK?

Kris Martin və "Coldplay" qrupu 2012-ci ildə Londonda keçiriləcək yay Olimpiadasının rəsmi himninin bəstələnməsi barədə təşkilatçıların təklifini nəzərdən keçirirlər.





Təşkilatçıların fikrincə Kris Martin himnin müəllifi olmaq üçün əsas namizəddir. Təşkilatçılar bildirmişlər: "Biz "Coldplay" qrupunun digər iştirakçıları ilə birlikdə Kris Martini işə cəlb etmək üçün böyük səy göstəririk. Biz istəyirik ki, onlara "Muse" qrupu və Deymon Olbarn kömək etsinlər".

"Coldplay" qrupunun lideri Kris Martin bununla bağlı hələlik heç bir açıqlama verməmişdir.

# DONETSKLİ MÜHƏNDİS FUTBOLDA PÜŞKÜN DÜZGÜN ATILMASI ÜÇÜN DƏMİR PUL İXTİRA ETMİŞDİR



Donetskdə yaşayan 45 yaşlı ixtiraçı Quzeyev futbol hakimlərinin adi ritualına münasibəti dəyişməyə çağırır. Məlum olduğu kimi, futbol hakimləri yuxarı atdıqları dəmir pulla komandaların meydançanın hansı hissəsində oyuna başlamalarını, habelə oyundan sonrakı 11 metrlik cərimə zərbələrini kimin vuracağını müəyyənləşdirirlər.

Quzeyev fırıldaqçılığı və potensial kələkbazlığı istisna edən və tərəflərin şanslarını təkcə nəzəriyyəyə görə deyil, həm də futbol meydançasında bərabərləşdirən püşkatma üçün dəmir pul layihələşdirmiş və hazırlamışdır.

Donetsk metallurgiya zavodunun baş mühəndisi, 40 illik azarkeşlik stajı olan Quzeyevdə bu fikir ehtimal nəzəriyyəsinə dair ədəbiyyatın öyrənilməsi, dəmir pulla fokus göstərilməsini və falabaxmanı izlədiyi zamanı yaranmışdır.

Quzeyev demişdir: "Hesab edilir ki, püşkatma zamanı dəmir pulun hər iki üzü bərabər düşə bilər, lakin bu nəzəriyyədir. Dəmir pulun kəsilməsi zamanı onun iki tərəfinin qabarıq və batıq hissələri müxtəlif olur. Elə mahir "ustalar" da var ki, dəmir pulu göyə atdıqları zaman pul uçuşda fırlanmır və nəzərdə tutulmuş tərəf açılır. Belə görünür ki, qarşılaşmanın nəticəsinin asılı olacağı düzgün püşkatmanı təmin edən dəmir pul hələlik yoxdur".



Quzeyev düzgün püşkatma üçün dəmir pulun seçilməsində zərb üsulu əvəzinə holoqram ideyasını əsas götürmüşdür. Bu zaman ağırlıq mərkəzi dəyişməyən düzgün disk əldə olunur. Quzeyev dəmir pula orijinal ştrix əlavə etmişdir. Bu, holoqramın ətrafında hər iki tərəfdən bort şəklində girintili-çıxıntılı haşiyədir. Bu, fırıldaqçılara dəmir pulu fırlatmadan atmağa və nəzərdə tutulmuş yöndə yerə salmağa imkan verməyəcəkdir.

İxtiranın ciddiliyi artıq iki dövlət səviyyəsində - Rusiya və Ukraynanın patent və əmtəə nişanları üzrə agentlikləri tərəfindən tanınmışdır. Lakin bu ideyanın dünya futbolunda yayıla biləcəyini vaxt göstərəcəkdir. Hələlik isə donetskli həqiqətsevər 2012-ci ildə keçiriləcək futbol üzrə Avropa çempionatına qədər öz ideyasına Avropa İttifaqı ölkələri səviyyəsində patent almaq ümidindədir.

# PROFESSIONAL DEVELOPMENT

## *(Personal Experience)*

**Narmina Fataliyeva,**
*English Language and Literature Department,*
*Khazar University*

Studying in London became a truly unforgettable experience for me. It is a pleasure for me to share it with our readers. A few weeks ago I took teacher training courses in the UK. These courses were organized at Oxford House College and aimed at practicing teachers of English who had already achieved a good standard of English and wished to update their knowledge of contemporary issues in teaching methodology.

I have always tried to approach teaching my students with eager anticipation. Therefore, my strong love for teaching is the main reason why I applied to these courses. After searching for teacher training programs on websites, I finally came across with "The Creative Methodology and Language Skills" courses. There are several reasons why I chose Oxford House College. First, it has a strong reputation of qualified and experienced ELT professionals. Secondly, you can gain a teaching qualification which can help you in the future to enjoy successful EFL careers worldwide.

Oxford House College is located right in the heart of the city in Oxford Street, England's premier shopping destination. Our sessions there were conducted by a highly qualified and experienced trainer. We had an international group of professional teachers from all over the world: Italy, Germany, Spain, Sweden, Czech Republic, Latvia, Poland, Romania and Turkey. It was a pleasure to share experience with teachers from other countries. Everyone got along with one another perfectly, so it didn't take us long to become friends.

We discussed different issues in language, and in the classroom observation sessions we had the opportunity to see how college teachers put techniques we discussed into practice. We examined aspects of English in greater depth to refine our understanding of key concepts and develop our knowledge of current didactic materials. During our lessons we practiced various interesting activities and role-plays with other teachers. Our trainer was a person of a friendly and outgoing character and tried to make our long lessons fun. He showed us how to integrate these techniques and so make our teaching more effective. He also asked us to make experimentations with these new skills and ideas, in order to produce durable instructional change. So we were learners and teachers of English at the same time; we practiced what we learnt.

After the lessons we went sightseeing with all the teachers. London is home to more than 200 museums and galleries. Its popular attractions include the London Eye, Buckingham Palace, Hampton Court Palace, Westminster Abbey, the Tower of London, the Royal Botanic Gardens at Kew, Greenwich's Royal Observatory, the Houses of Parliament, etc.

I tried to visit almost all famous museums in London. The British Museum, the Natural History Museum, the Science Museum, and the Victoria and Albert Museum were among them. The world-famous **British Museum** is so large that it took me a few minutes to orient myself. It exhibits the works of man from prehistoric to modern times from around the world.

In **National Gallery** placed in Trafalgar Square we could see Western European paintings from the 13th to the 19th centuries. There are also works by such famous masters as da Vinci, Van Gogh, Botticelli, Renoir, etc.

Sometimes I took a tour around the city on my own. I could sample a huge variety of attractions. I visited the London Eye, Big Ben, the Tower Bridge, St James's Park, the Hyde Park, The Green Park, Shakespeare's Globe Theatre and Her Majesty's Theatre, Buckingham Palace and many more. But these are the ones I would like to tell you about.

From **the London Eye** I could get a fantastic feeling of viewing the whole city. An experience on the London Eye lasted for approximately 30 minutes. It is located next to Big Ben. The real name of **Big Ben** is the Clock Tower of the Palace of Westminster, and strictly speaking, the name relates only to the largest of the clock's bells - the one that strikes the hour.

I also visited **St James's Park** which is at the very heart of London. It is famous for its mature trees and open grassland; however, it is often used for ceremonial and state occasions.




**The Hyde Park**, on the contrary, is the very place for you if you need a rest from the rush of London life. You can see a lot of people lying on the lawn. I liked **the Tower Bridge** very much. It wasn't necessary to go inside to appreciate its beauty. It's a real achievement of Victorian engineering, and looks great, especially at night.

I also visited **Shakespeare's Globe Theatre** and **Her Majesty's Theatre**. In Her Majesty's Theatre I had a great time, because I got the chance to see the musical "The Phantom of the Opera". I definitely can say that this was an unforgettable time for me, because I am still under its impression.

In general, I really enjoyed living and studying in UK. London is definitely one of the most diverse and exhilarating places on the planet. I met people and ideas from over the world. People there were very friendly and helpful. I made lots of friends there.

Finally, I would like to add that teacher development courses were of a great importance for me. They helped me to develop my professional knowledge and skills from insights into recent developments in English language teaching to practical classroom ideas and activities. As a whole, these courses fostered my commitment to continuing my professional development.

This experience gave me some practical knowledge related to what I had learned before from textbooks. Moreover, it is my honor and pride to mention that our English Language and Literature Department at Khazar University now has a similar international atmosphere in terms of attitude and communication. This helped me greatly in my easy adaptation to the local situation while I managed my courses in the UK.

## XƏZƏR UNİVERSİTETİ "DÜNYA" MƏKTƏBİ ÜÇÜN YENİ BİNA





Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti Başçısının 14 aprel 2011-ci il tarixli 69 nömrəli sərəncamı ilə (Bakı Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma Baş İdarəsinin 18 mart 2011-ci il tarixli 18/03-8/666 nömrəli razılıq məktubuna əsasən) Xəzər Universitetinin fəaliyyətdə olan tədris korpuslarına əlavə olaraq yeni bir tədris kompleksinin tikintisinə ilkin icazə verilmişdir. Yeni tədris korpusu Xəzər Universiteti "Dünya" məktəbi üçün nəzərdə tutulmuşdur. Kompleks Bakı şəhərinin Binəqədi rayonu ərazisində "Ə. Naxçıvani küçəsi, 9" ünvanında inşa ediləcək. Hazırda tikintinin başlanması üçün hazırlıq işləri görülür.



# "ANAR USUBOVUN UZUN SƏYAHƏTİ" FİLMİNİN TƏQDİMATI



Aprelin 8-də "Park Inn Azerbaijan" otelinin "Dan ulduzu" zalında türk rejissoru Cem Oğuzun çəkdiyi, Xocalı hadisələrini təsvir edən "Anar Usubovun uzun səyahəti" adlı sənədli filmin təqdimat mərasimi keçirildi. Mərasimdə Anar Usubovun özü filmin çəkiliş prosesi və Xocalı hadisələri barədə danışdı. Film geniş auditoriyaya Azərbaycan Sosial Dəstək və Maarifləndirmə Proqramı (ASAAP) İctimai Birliyinin təşəbbüsü ilə təqdim olundu. Qeyd edək ki, ASAAP ictimai birliyinin təsisçilərindən biri Xəzər Universiteti Psixoloji Məsləhət və Psixoterapiya Mərkəzinin direktoru Ülkər İsayevadır. Film tədbir iştirakçılarının böyük marağına səbəb oldu.




# SUSİ PROQRAMININ TƏQDİMATI

Aprelin 14-də Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetdə "IREX" SUSI proqramının təqdimatı keçirildi. Proqram rəhbəri Nərgiz Hüseynova tələbələrə bu barədə geniş məlumat verdi. Proqram koordinatoru Fidan Həsənova iyul-sentyabr aylarında ABŞ - da keçiriləcək 6 həftəlik proqramın şərtləri, ərizə forması və digər məsələlərlə bağlı məlumat verdikdən sonra tələbələrin sualları cavablandırıldı.

# XƏZƏR KİTAB KLUBUNUN AÇILIŞ MƏRASİMİ



Aprelin 21-də Xəzər Universitetinin Neftçilər kampusunda Xəzər Kitab Klubunun açılış mərasimi oldu. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı tədbiri açaraq qeyd etdi ki, kitab klubunun açılmasından məqsəd kitabın tələbələr arasında daha səmərəli təbliğ olunması ilə mütaliəyə marağı artırmaqdan, həmçinin mədəni-kütləvi tədbirlər keçirməklə tələbələrin dünyagörüşünü genişləndirməkdən ibarətdir. Beləliklə də, kitab klubu tələbə, müəllim və qonaqlara kitab ticarəti xidmətindən əlavə müxtəlif ədəbiyyat və incəsənət tədbirlərinin, sərgi, görüş, disput və debatların keçiriləcəyi mərkəz kimi fəaliyyət göstərəcək.

Açılış mərasimində AMEA Nəsimi adına Dilçilik İnstitutunun dialektologiya bölməsinin rəhbəri professor Qəzənfər Kazımovun kitablarının təqdimatı keçirildi. Professor özünün on cildlik "Seçilmiş əsərləri" və digər kitabları haqqında məlumat verdi, onları universitetin kitabxanasına hədiyyə etdi. Sonra klubun fəaliyyəti ilə əlaqədar söhbət çay süfrəsi ətrafında davam etdirildi.

# "DÜNYA" MƏKTƏBİ

"Xəzər Xəbər"dərgisinin "Dünya"məktəbi üçün əlavəsi




*There was a competition between our group and 5a last week. There were our teachers Miss Gunel and Miss Shafag, nine students in 5a and five students in our group. Of course they were more than us. Miss Shafag prepared thirty questions. We answered the questions. We were good. But in the end we were weak. 5a won the competition. We became very sad. We asked different questions to everyone in that group. Later on they became a little bit weaker. Because they didn't know the answers of some questions. I asked them about health problems. The competition was very interesting for me though we lost it. Then we went to our class to discuss our failure.*

*Narmin, 4A*




Oh, Mr. Clown, Clown
Mr. Funny Clown,
Please be funny with me.

Oh, Mr. Clown, Clown
Mr. Funny Clown,
Hiding in a circus.

These little children
Are asking you,
To make a funny show
For them to watch.

Oh, Mr. Clown, Clown
Mr. funny Clown,
Please be funny,
Please be funny,
Please be funny with me! ( Oh, Yeah! )

Arzu, 4A

What are you?
What are you?
What are you going to do today?
Do you want to practice thepiano/
Sure. That's sounds like fun!
Let's practice the piano!

Nigar, 4A

Where are you going to go today?
I'm going to go to the park.
What are you going to do in the park?
I'll teach my dog to bark!

Arzu, 4A

I can play
It's fun to do,
But I can't play
Basketball with you!

Tural, 4A

I can play
With my Teddy,
And I feel that
I'm happy!

Nijat, 4A



# GƏLİN, DÜNYAMIZI QORUYAQ!

Aprel ayı ərzində "Dünya" məktəbində bir neçə yaddaqalan tədbir keçirildi. Məktəbin "VIII a" sinf şagirdlərinin təşəbbüsü ilə hazırlanan "Earth day"-"Yer günü" bayramının məqsədi diqqətin ətraf mühitin çirklənməsi və canlı aləmin qorunması problemlərinə cəlb etməkdi. Tədbirin fərqli cəhəti bayrama həsr olunmuş bədii kompozisiyanın bütünlüklə ingilis dilində hazırlanması idi.

Xəzər Univversitetinin "Dünya" konsert salonunda keçirilən tədbirdə əvvəlcə musiqi sədaları altında VIII sinif şagirdləri müxtəlif xalqların milli geyimlərini nümayiş etdirdilər. Azərbaycan, Koreya, Hindistan, İspaniya, Fransa xalqlarının milli geyimlərindəki qızlar tamaşaçılara şirniyyat və "Yer günü" bayramı haqqında informasiya vərəqləri payladılar. Daha sonra səhnəyə kiçik yaşlı şagirdlər dəvət olundu. Balacalar tamaşaçılara ingilis dilində mahnılar ərməğan etdilər. Mahnılar gözəl rəqslərlə müşayiət olunurdu. Bu nəğmələrin əsas mövzusu insanların sülh, dostluq arzusu idi. Müharibələrə, zorakılığa etiraz isə onların dilində xüsusilə kəskin və təsirli səslənirdi. Sonra tamaşaçılara "Xocalı" ədəbi-bədii kompozisiyası təqdim olundu. Səhnədə quraşdırılmış ekranda şəhid şurnalist Çingiz Mustafayevin lentə aldığı kadrlar nümayiş olunurdu, şagirdlər isə ingilis dilində şeirlər oxuyurdular. Məşhur "Ya Qarabağ, ya ölüm!" şüarı bu dəfə ingilis dilində səsləndi. Maykl Ceksonun sevilən "Earth" mahnısına çəkilmiş klip ekranda göstərilən zaman şagirdlər həmin mahnını özünəməxsus şəkildə ifa etdilər. Görüntü ilə şagirdlərin ifası qəribə bir həmahənglik təşkil edirdi. Bu səhnə tamaşaçıları xüsusilə təsirləndirmişdi.

Sonda Xəzər Universitetinin rektoru Con Rayder səhnəyə qalxaraq hamını "Yer günü" bayramı münasibətilə təbrik etdi və şagirdlərin ingilis dilində hazırladıqları bu kompozisiyanı yüksək qiymətləndirdi. Daha sonra söz Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinin nümayəndəsinə verildi. O da tədbirin son dərəcə gözəl təşkil olunduğunu qeyd edərək, "Dünya" məktəbinin şagird və müəllim kollektivi tərəfindən böyük zövqlə hazırlanmış bu bayramı "əsl fantastika" adlandırdı. Tədbirin belə rəngarəng və maraqlı alınmasında isə məktəbin ingilis dili departamentinin müəllim kollektivi, xüsusilə də Nərgiz Mahmudzadənin əməyi böyük idi.

Aprelin 25-də "Dünya" məktəbinin direktoru Mərufə Mədətli tədbir iştirakçılarına sertifikatlar təqdim edərək, onları uğurlu layihə münasibətilə təbrik etdi.

**Aləmzər Cabbarova,**
"Dünya" məktəbinin müəllimi


EARTH DAY

# EARTH DAY COMES TO BAKU!

As many great ideas do, it all started with a suggestion. Sitting in a lesson, Miss Nargiz asked us if we had heard of Earth Day - none of us had. She explained what Earth Day was, and told us she thought we might want to consider holding an Earth Day celebration. We liked the concept and ran with it. After some research we concluded that Azerbaijani students had never celebrated Earth Day before, so we were excited and wanted to be the first. We wrote a letter to our principal Mrs. Marufa Madatli. She also liked the idea and supported us to plan the event.

Our teachers Miss Nargiz, Miss Gunel, Miss Madina, Miss Mehriban, Elman muallim and Alemzar khanim helped us with coordinating. They coordinated rehearsals, invited parents and guests, set up the venue and so on.

As part of the Earth Day celebration, Primary and Secondary students performed plays, poems and songs.

Aydan Nasibova, 8A

What Is Earth Day?

Earth Day is a day that is intended to inspire appreciation for the Earth's natural environment. It was founded by Senator Nelson in the USA in 1970. It is celebrated on the 22nd of April in more than 175 countries every year. It's a day to celebrate Earth as a whole. Earth Day activities boost recycling efforts worldwide and express the damages of pollution.

Fatima Khalilova, 8a

The first Earth Day had participants in two thousand colleges and universities. As my friend said, it's now observed in over 175 countries.

Earth Day is a day to show the importance of protecting our world. Because if we don't take care of it, all beautiful things could turn to ugly ones.

Aslan Isakhanli, 8a

This month our group worked together in our school yard to make the ground better, cleaner, greener. When we were planting, KG children looked at us in delight. They watered the plants and felt the importance of doing that.

I thank all the students and our principal for great support. And I am to add that the world is in our hands... we have to handle it with care.

Togrul Mammadov, 8a

# "DÜNYA" MƏKTƏBİNDƏ VALİDEYN İCLASI

Aprel ayının 23-də Dünya məktəbində növbəti valideyn iclası keçirildi. İclası məktəbin direktoru Mərufə Mədətli açaraq valideyn və müəllim kollektivini salamladı. Mərufə xanım ingilis dilinin interaktiv tədrisində əhəmiyyətli rolu olan "Belt stady sistem" proqramının məktəbdə tətbiq olunacağı barədə valideynlərə məlumat verdi. Bu barədə "Belt stady sistem" proqramının koordinatoru və Xəzər Universitetinin müəllimi Elif Tüylü danışdı. Proqram valideynlərin çox xoşuna gəldi.

İclasda həmçinin İnternational House şirkətinin nümayəndəsi də iştirak etdi. O,valideynləri Kanadanın Toronto şəhərində təşkil olunacaq dil kursları barədə məlumatlandırdı. Proqramın mahiyyəti, keçiriləcək dərslər və təşkil olunacaq gəzintilər haqqında ətraflı məlumat verdi. Sonda valideynlər onları maraqlandıran suallarla proqramın təmsilçisinə müraciət etdilər.

**Mədinə Karahan,**
*"Dünya" məktəbinin müəllimi*





Kosmonavtika gününün 50 illiyi ilə əlaqədar məktəbimizdə bir sıra tədbirlər həyata keçirildi. Kosmonavtların həyatını, onların uğurlarını əks etdirən fotostend hazırlandı. Üç komandadan (Apollon, Qalaktika, Sfera) ibarət yarış keçirildi. Münsiflərin və şagirdlərin müşayiəti ilə keçirilən yarışda Apollon komandası qalib oldu. Aprelin 12-də komandanın üzvlərinə diplomlar təqdim olundu. Fizika müəllimi Əlihüseyn Dövlətov şagirdlərə daha böyük uğurlar arzulayaraq, texniki fənlərə diqqət və marağın artırılması məqsədilə belə yarışların bundan sonra da davam edəcəyini vurğuladı. Direktor müavini Çiçək Qaracayeva isə kosmosun fəth edilməsində Azərbaycan alimlərinin rolundan danışaraq, adı dünya kosmonavtikası tarixinə əbədi həkk olunan general-leytenant Kərim Kərimovun və qürur mənbəyimiz olan Tofiq İsmayılovun həyatı ilə şagirdləri tanış etdi. Sonda qeyd etdi ki, istərdik xalqımızın görkəmli oğullarının həyat yolu hər bir azərbaycanlı üçün öz peşəsinə, seçdiyi işə münasibətin nümunəsi olsun.

Biz inanırıq ki, yaxın gələcəkdə Azərbaycanın kosmik peykləri kosmik fəzaya yol açacaq, kosmik texnologiyaların gündəlik həyatımıza nüfuz etməsi üçün yeni imkanlar yaranacaqdır.

*Fərida Məmmədova,*
*Sevinc Hacıyeva,*
*9a sinif şagirdləri*

# 12 APREL – ÜMUMDÜNYA KOSMONAVTİKA GÜNÜ



# "ÜMİD DOLU GÖZLƏRƏ DOĞRU"



## *"Dünya" məktəbinin şagirdləri xəstəxanada məktəbin yardımı ilə müalicə olunan Rəsul Ağamalıyevlə görüşdülər*

Keçən il Şabran rayonunun sakini Rəsul adlı oğlanın səhhəti ilə bağlı məktəbimizdə xeyriyyə konserti keçirilmişdi. Bu konsertdən toplanan vəsait Rəsulun sağalması üçün idi. Biz bu tədbirdə çox yaxından iştirak etdik. Tədbirdən xeyli vaxt keçib. Şagirdlərim tez-tez Rəsul haqqında soruşur, onun səhhəti ilə maraqlanırdılar.

Rəsula olan qayğı, istək o qədər güclü oldu ki, sinif rəhbəri olduğum X sinif şagirdləri ilə birgə ona baş çəkmək qərarına gəldik. Beləliklə, xəstəxanaya, Rəsulun yanına getdik.

Xəstəxananın pillələrini qalxdıqca qəlblərdə həyəcan artırdı. Məktəbimizin coğrafiya müəllimi Mətanət Ağayeva da bizimlə birlikdə idi.

Palataya daxil olduqda Rəsul anası ilə birgə idi. Görüşdük. Gəlişimizin Rəsula xoş təsir bağışladığının şahidi olduq. Şagirdlər də qısa vaxt ərzində Rəsulla dostlaşaraq, söhbətə başladılar. Mən və Mətanət müəllimə ana ilə söhbət zamanı Rəsulun müalicəsində irəliləyişin olduğunu öyrəndik. Rəsul bunu əsa ilə gəzərək sübut etdi. Biz də onu alqışladıq. Sonda uşaqlar Rəsulla xatirə şəkilləri çəkdirdilər. Mətanət müəllimə Rəsula cansağlığı arzulayaraq, XI sinif şagirdləri adından ona mobil telefon hədiyyə etdi. Onu da qeyd edim ki, insanların maddi və mənəvi köməyi Rəsulun sağalmasında böyük rol oynayır.

Eyni zamanda bildirmək istəyirəm ki, aprelin 30-da "Dünya" məktəbi Rəsula yardım məqsədilə "Ümid dolu gözlərə doğru" devizi altında yeni xeyriyyə konserti keçirəcək.

**Bilqeyis Zeynalova,**
*"Dünya" məktəbinin müəllimi*

# CONFERENCE IN GAZIENTEP, TURKEY



As first year IB students we feel happy to be studying this challenging IB Diploma Program. There are lots of requirements for us to meet according to the IB curriculum. One of them is CAS-- to be creative, open-minded and become an active member of society-- and another one is TOK, the philosophy of this program.

So we felt happy when we got the invitation from Koch IB School in Istanbul, Turkey to the TOK/CAS conference held in Gazientep, as we could get the opportunity to visit a different country, learn the culture and traditions of this country, and share our knowledge and experience with the participants of the conference.

The curriculum requirement for the creativity, action, service (CAS) encourages the students to be involved in social activities and be active in local and international projects.

On the 7th of April we had a flight to Gaziantep and we arrived in Antep in the evening. We were welcomed heartily by Sanko School, which is one of the biggest and famous schools in Gazientep, Turkey. There is a huge soccer stadium in the yard of Sanko School where the children can have rest when the lessons are over or play different games during the gym classes.

Approximately 300 students from different countries attended the conference. Students from Turkey, England, America, Russia, Spain, Lebanon, Bahrain etc. gathered together in a very big conference hall.

First the principal of Sanko School welcomed us and gave a speech about Gazientep and their school. Then we were given a presentation about Gaziantep, its culture and Zeugma Mosaics.

After the presentation we had sessions as separate groups in different classes. We discussed different topics and prepared presentations on the topics discussed. After the presentations we were taken to the Zeugma Museum. Zeugma was an ancient city known as a Greek settlement and invaded by the Roman Empire in 64 BC. The gypsy girl's picture, monuments and statue of Zeus impressed us a lot. The guide gave us information about the excavations that were done in the village near Gazientep.

We took a lot of pictures at the museum. The next day we went to the opening ceremony of the mosaic studio. Each participant was given different mosaic forms to make. I think these activities develop the students' skills of creativity. We visited the city of prophets, Urfa, on the 10th of April. This day was very interesting to everyone. We visited some holy places, such as Halil-Ur Rahman Mosque, Rizvaniye Mosque, The Prophet Ibrahim Chair, Ayn Zeliha Lake and Balikli Lake. There is an interesting story about this lake. It is said that there is a white-yellow fish in Balikli Lake. If one sees the fish and dreams about something, it can come true. We tried a lot, but we couldn't see this marvelous fish. Then we had a boat tour. It was really wonderful. We spent 2 hours in the boat looking at mountains called Rum Kale (castle).

The next day we went to Sanko School. We had discussions and some presentations were made. We also presented our TOK presentation referring to Rupert Sheldrake's ideas and introduced our CAS project. The students from different schools were given some topics for discussion and we needed to find the solution to the matter given. We prepared presentations on these topics. After this we separated into different groups and held discussions on making our interschool presentations. After our presentations, everybody was presented a certificate of attendance.

In the evening a Gala Dinner was arranged by Sanko School, and everybody enjoyed the last hours of the Gazientep trip.

The next day we flew to Istanbul for a field trip for history class. We needed it for an investigation of the Ottoman Empire. Aya Sofia and Sultan Ahmed Mosque impressed us a lot. Our history teacher Gunel Mammadova gave us information about it.

We learned a lot of things from this conference. There were no bad experiences. It gave us the chance to meet IB students from different countries and we are convinced once again of the importance of the IB Diploma Programme which prepares us not only for the university but also for life.

*Materialları çapa hazırladı:* **Mədinə Karahan**

# FOTOSALNAMƏ

## 1991 - 2011














**Xəzər Universitetinin fotoarxivindən**



# XƏZƏR UNİVERSİTETİ

Xaricdə ən çox tanınan,
xaricə ən çox tələbə göndərən,
xaricdən oxumağa tələbələrin ən çox gəldiyi,
xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.

Xəzər Universiteti Azərbaycanda yeganə universitetdir ki, onun tədris siyasəti və diplomları Avropa və Amerikanın aparıcı universitetləri tərəfindən tanınır.

2011-ci ildə İspaniyanın məşhur Dövlət Elmi Tədqiqat Mərkəzinin Webometrics reytinqində dünyanın 6 min ən yaxşı universitetləri sırasına Azərbaycandan yalnız 1 ali məktəb - Xəzər Universiteti daxil edilmişdir.

***

*Xəzər Universiteti beynəlxalq əlaqələrin qurulması, beynəlxalq lay[...] və proqramlarda iştirak, dünyanın aparıcı universitetləri ilə müəllim[...] tələbə mübadiləsi və digər sahələrdə təsirli tədbirlər görməklə kadr hazırlığı sahəsində əsaslı nailiyyətlər əldə etmiş, böyük nüfuz qazanmışdır. Xəzər Universiteti bu gün həm Azərbaycanda, həm də Azərbaycandan kənarda özünəməxsus yeri olan, özünün xüsusi çəkisi olan bir ali təhsil müəssisəsidir.*

**Prof. Misir Mərdanov**
**Azərbaycan Respublikasının Təhsil Naziri**

## Universitedə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:

**I qrup üzrə:**

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi

**II qrup üzrə:**

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix və coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər

**III qrup üzrə:**

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Tərcümə (ingilis dili)
- Jurnalistika
- Politologiya

**IV qrup üzrə:**

- Kimya və biologiya müəllimliyi
- Psixologiya

## Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 11 ünvanda (Neftçilər metrosunun yaxınlığında) yerləşən 5 mərtəbəli tədris korpusunda, eləcə də ən müasir avadanlıqlarla təchiz edilmiş 7 mərtəbəli yeni tədris korpusunda, şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda 4 mərtəbəli və Alatava 2 (Tbilisi prospekti, Mebel fabrikinin yanı) ünvanda 6 mərtəbəli yeni tədris korpuslarında geniş auditoriyalar, zəngin kitabxana, ən müasir kompüter mərkəzləri və s. ilə birgə yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

## Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

## Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. İmtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

**Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.**

Ünvan: Məhsəti küçəsi, 11.
(Neftçilər metrosunun yaxınlığında)
Əlaqə telefonları: (012) 417-91-33; 012 421-68-11;
(012) 421-79-16
Faks: 012 498-93-79
İnternet: http://www.khazar.org